Telman QULİYEV

MİLLİ-MƏDƏNİ İRS VƏ DİL AMİLİNƏ KULTUROLOJİ BAXIŞ

(Naxçıvan dialektinin terminoloji leksikası nümunəsində)

BAKI – 2014

Redaktoru
və ön sözün müəllifi: prof. dr. Ramiz Əskər

Telman Quliyev.
Milli-mədəni irs və dil amilinə kulturoloji baxış.
Bakı, "Ziya", 2014, 216 səh.

Kitabda müasir dövrdə dövlətimizin mədəniyyət siyasəti, zəngin irsimizin tədqiqi və təbliği ilə bağlı bəzi məqamlar, milli varlığımızın qorunmasında və inkişafında dilin rolu araşdırılır, bu sahə Naxçıvan dialektinin terminoloji leksikası nümunəsində nəzərdən keçirilir.

Kitab tələbələr, müəllimlər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-8142-0-0

©Telman Quliyev, 2014

ÖN SÖZ

Gənclik dostum Telman Quliyev mətbuat aləmində kifayət qədər tanınır. O, uzun illər "Şərq qapısı" qəzetində müxbir və tərcüməçi olmuş, Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində məsul vəzifələrdə işləmiş, 80-ci illərin sonlarından kütləvi informasiya vasitələrində sovet imperializminin və onun sadiq nökəri erməni-daşnak faşizminin Azərbaycana qarşı məkrli siyasətinin ifşa olunmasında xüsusi əməyi olmuşdur.

Telman Quliyevin fəaliyyətinin mühüm bir qismi xalqımızın dahi oğlu, ümummilli lideri, ulu öndər Heydər Əliyevin Naxçıvanda işlədiyi mürəkkəb dövrə təsadüf etmişdir. Naxçıvan şəhərindən Naxçıvan MR Ali Məclisinə deputat seçilən Telman müəllim Ali Məclis sessiyaları katibliyinə rəhbərlik etmişdi. O, deputat yoldaşları ilə birlikdə Moskvadan Mixail Qorbaçovun, Bakıdan Ayaz Mütəllibovun təzyiqlərinə qarşı çıxaraq, Heydər Əliyevin siyasi dəst-xəttini müdafiə etmişdir. Jurnalist və deputat kimi dəfələrlə döyüş bölgəsində, cəbhə xəttində olan, bir neçə dəfə Dağlıq Qarabağa yardım aparan Telman müəllim əhali arasında milli vətənpərvərlik hisslərinin yüksəlməsinə çalışmışdır.

Mən, bu kiçik yazımda Telman Quliyevin yalnız çox məhdud dairədə bilinən başqa bir cəhəti haqqında danışmaq istəyirəm. O, tanınmış jurnalist, publisist, ictimai xadim olmaqla yanaşı, həm də istedadlı bir tədqiqatçıdır. Onun mətbuat səhifələrində dərc olunan yazılarına və efirdə

səslənən bütün verilişlərinə bir elmi üslub və analitik təhlil xasdır. Hətta onları elmi aparatla təchiz edilməyən elmi əsərlər adlandırmaq mümkündür.

Telman müəllimin yazılarının mühüm bir hissəsini isə doğrudan-doğruya elmi məqalələr təşkil edir. O bunları Bakı Dövlət Universitetində təhsil aldığı 70-ci illərdən başlayaraq qələmə almışdır. Əvvəlcə jurnalistika fakültəsində oxuyan, hərbi xidməti başa vurub qayıtdıqdan sonra isə təhsilini filologiya fakültəsində davam etdirən gənc Telman yay aylarında qəzetçi kimi staj keçərkən və ya filoloq kimi dialektoloji təcrübə müddətində Azərbaycan dialektlərində işlənən, lakin ədəbi dildə olmayan termin səciyyəli bir sıra söz və ifadələri toplamış, onların linqvistik xüsusiyyətlərini araşdırmış və haqlı olaraq belə bir nəticəyə gəlmişdir ki, bunlar ədəbi dilimizin lüğət tərkibinə daxil edilməli, terminoloji leksikanı zənginləşdirməlidir.

Bəzi misallara müraciət edək. Məsələn, biz bostan və tərəvəz məhsulları ilə addımbaşı qarşılaşırıq və onların ədəbi dildəki adlarını bilirik: paxla, lobya, noxud, kələm, pomidor, xiyar, tərxun, keşniş, nanə və s. Bəzən dükanda-bazarda bu sözləri də eşidirik: maş, gülbəsər. Əslində, bunlar da termindir, maş faraş lobya, gülbəsər erkən xiyar deməkdir. Yaxud heyvandarlıq sahəsində hamının bildiyi buzov, dana, düyə, inək, buğa və öküz sözləri ilə yanaşı qısırəmən və cöngə terminləri var ki, bunlardan qısırəmən bir yaşdan iki yaşa qədər dişi heyvanı, cöngə isə iki yaşdan böyük erkək heyvanı ifadə edir.

Yaşa görə keçi növlərində sıravi oxucu oğlaq, çəpiş, dıbır/dübür, təkə və erkəci/ərkəci bilir. Əslində isə burada

qidik (altı aydan bir yaşa qədər), küvər (bir yaşdan böyük dişi keçi), sibir (üşyaşar erkək keçi), seyiz (dördyaşar erkək keçi), xar (üçyaşar axtalanmış erkək keçi) növləri də var ki, onların adları yalnız bu sahədə işləyən adamlara məlumdur.

Telman müəllim xalq təsərrüfatının müxtəlif sahələrinə dair yüzlərcə bu tipli sözləri xalq arasından toplamış, elmi şəkildə təsnif etmiş və sistemləşdirmişdir. Bu sözləri oxuduqda adam dialekt və şivələrimizin son dərəcə zəngin xəzinə olduğu qənaətinə gəlir. Müxtəlif əlamətlərinə görə qoyun növləri bu baxımdan çox maraq kəsb edir. Orada almaz qoyun – balasını əmməyə qoymayan qoyun; qol qoyunu – çoban yatanda onu oyatması üçün öz qoluna bağladığı qoyun; yava qoyun – özü sağına gələn qoyun; səmə qoyun – sürüdən geriyə qalan qoyun; sülək qoyun – sürüdən ayrılıb yem üstünə qaçan qoyun; fizək qoyun – yad quzunu əmizdirən qoyun kimi növləri görürük.

Tədqiqatçı əsasən Naxçıvanda işlədilən ot, çiçək və ağac adlarını, dərman bitkilərinin adlarını, xəstəlik adlarını, vəhşi heyvan, quş və həşərat adlarını, məişət leksikası, toxuculuq, inşaat, arıçılıq, toy və yas mərasiminə aid sözləri toplamış və yeri gəldikcə onların başqa bölgələrimizdə istifadə olunan adlarla, bəzən də qardaş türk dillərindəki ekvivalentləri ilə müqayisə etmişdir. Bunlar etnoqrafik baxımdan son dərəcə maraqlı materiallardır.

Telman müəllimin bu sahədəki araşdırmaları onun bəzi məqalələrində, kurs işlərində və diplom işində öz əksini tapmış, Bakı Dövlət Universitetində ona dərs deyən müəllimlərin diqqətini cəlb etmişdir. Onlar bu işi

dissertasiya mövzusu kimi götürməyi məsləhət görmüşlər. Təəssüf ki, o, ardıcıl olaraq elmi işlə məşğul olmamışdır.

Telman Quliyev bu sahədəki axtarışlarını sonralar da davam etdirmiş və külli miqdarda faktiki material yığmışdır. Dostlarının təkidinə baxmayaraq topladığı bu materialın bazasında dissertasiya yazmaq fikrini vaxtın ötdüyü bəhanəsi ilə yaxın qoymamışdır. Yalnız mənim israrlı xahişim qarşısında bunları heç olmasa bir kitab halında nəşr etməyə razılıq vermişdir. Bu zaman məsələyə milli-mədəni irsimizin tədqiqi və təbliğində dilin roluna kulturoloji baxış mövqeyindən yanaşmış, müasir dövrdə dövlətimizin mədəniyyət siyasəti, mədəni irsin tədqiqi məsələləri, milli-mədəni varlığımızın mühafizəsində dil amili, dilin kulturoloji mahiyyəti, bu sahədə folklorun əhəmiyyəti və toplanması ilə bağlı bəzi məqamları da gözdən keçirmiş, öz tədqiqatını daha da dolğunlaşdırmış, monoqrafik bir səviyyəyə çatdırmışdır.

Əziz oxucu! Əlinizdəki bu dəyərli tədqiqat işi həcmcə çox böyük olmasa da, məzmunca çox maraqlıdır. Oxuduqca bunu görəcək və ürəyinizdə onun müəllifinə təşəkkür edəcəksiniz.

Prof. Dr. Ramiz ƏSKƏR
Bakı Dövlət Universitetinin
Türk xalqları ədəbiyyatı kafedrasının
müdiri, Azərbaycanın əməkdar jurnalisti

MİLLİ-MƏDƏNİ İRS SAHƏSİNDƏ DÖVLƏT MƏDƏNİYYƏT SİYASƏTİ

Bəşər mədəniyyəti tarixi təcrübəsi sübut edir ki, xalq insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan mədəni irsin, milli-mənəvi dəyərlərin yaradıcısıdır. Bu mənada elə təbiətin hər bir xalqa bəxş etdiyi ən qiymətli miras da məhz bu dəyərlərdir. Lakin hər bir tarixi mərhələdə bu kulturoloji problemə münasibət eyni olmamışdır. Bu gün mədəni dünyanın modern baxışlarında da zamanın tələblərindən irəli gələn amillər müşahidə edilməkdədir. Müasir dünya siyasətində qlobal, regional və lokal problemlərin, qloballaşma və mədəni inteqrasiya məsələlərinin həllinə yeni münasibət özünü göstərir ki, Azərbaycan Respublikası da bu prosesdə fəal iştirak etməkdədir. Artıq bu, danılmaz bir faktdır ki, Azərbaycanda milli və bəşəri dəyərlərin sintezi, dünya təcrübəsi yönündə həyata keçirilən islahatlar dünyanın sosial, mədəni, iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri səviyyəsinə çatmağa şərait yaradır. Sosial, mədəni, iqtisadi tərəqqiyə xidmət edən bu prosesdə qarşıya çıxan problemlər isə bilavasitə mədəniyyət sahəsində bəşər tarixinin,

dünyanın inkişaf təcrübəsinin öyrənilməsini, kompleks əlaqələrinin genişləndirilməsini zərurətə çevirir ki, bütün bunlar da yalnız tarixi-mədəni irsimizin tədqiqi yolu ilə elmi mahiyyət kəsb edə bilər.

Azərbaycan Respublikası demokratik bir mədəniyyət siyasəti xətti tutduğuna və müasir dünya mədəniyyətinə inteqrasiya olunduğuna görə, mədəniyyətimizin özündə böyük bir dəyişiklik etmədən, yəni mühafizə edilməsi zəruri olan milli-mənəvi dəyərlərimizə xələl gətirmədən, təcrübəyə və elmin mütərəqqi nailiyyətlərinə söykənərək, forma dəyişikliklərini şüurlu surətdə aparmaq məcburiyyətində olduğumuzu qəbul etməliyik. Bu gün istəsək də, istəməsək də qloballaşma hərəkatından, mədəni inteqrasiya prosesindən kənarda qala bilmərik. Bu prosesin müsbət cəhətlərinin cəmiyyətimizin mədəni tərəqqisinə xidmət etdiyini danmamaq şərtilə, neqativ təzahürlərinin qarşısını almaq barədə də düşünməliyik [92, s.135].

Mədəniyyət siyasəti sahəsində qazanılan nailiyyətlər sübut edir ki, Azərbaycanın dövlət müstəqilliyi getdikcə möhkəmləndirilir və respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi daha da sürətlə inkişaf etdirilir. Dövlətçiliyin təməlinin, milli varlığın özülünün, əsasının mədəniyyətə bağlı olduğunu aydın dərk edən ümummilli lider Heydər Əliyev 13 avqust 2001-ci il tarixli bəyanatında söyləmişdir: “Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə,

adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

Təbii ki, sovet hakimiyyəti illərindəki nailiyyətlərimizi də danmaq olmaz. O dövrdə də uğurlarımız olmuşdu, xalqımız savadlanmış, onun mədəni səviyyəsi yüksəlmiş, Azərbaycanın böyük elmi yaranmış, respublikamızın milli mədəniyyəti sahəsində bir sıra uğurlar əldə edilmişdir. Lakin bunlar kommunist ideologiyasının rəhbər və istiqamətverici rolunu tanımaq şərtilə əldə edilmişdi. Çünki başqa cür düşünmək belə olmazdı. Milli-mənəvi dəyərlər, soy-kökə qayıdışla bağlı hər hansı müstəqil ideyalarla çıxış etmək sadəcə olaraq qadağan idi [15, s.293-294].

Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktının elan edilməsi (18 oktyabr 1991-ci il) ilə Azərbaycan yenidən itirilmiş istiqlaliyyətini özünə qaytarsa da, istər daxili, istərsə də xarici siyasətində əsl müstəqilliyə nail ola bilmədiyi kimi, dövlət səviyyəsində maddi və mənəvi dəyərlərin qorunması və yaşadılması üçün də əslində heç bir iş görülmürdü. Azərbaycanın başının üstünü yenidən öz müstəqilliyini itirmək təhlükəsi aldı. Belə bir ağır şəraitdə xalqın təkidi və tələbi ilə 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdan Heydər Əliyev qısa müddətdə bütün bu neqativ hallara son qoyaraq hər cür separatçılıq meyllərini aradan qal-

dırdı, ölkədə ictimai-siyasi sabitliyi bərqərar etdi, iqtisadiyyatı fəlakətli vəziyyətdən qurtarmaq üçün islahatlar proqramını işləyib hazırladı və həyata keçirməyə başladı. Mədəniyyət sahəsində təxirəsalınmaz tədbirlər həyata keçirildi, elm və təhsilə qayğı artırıldı.

Digər məsələlərdə olduğu kimi, mədəni irs və milli-mənəvi dəyərlər məsələsinə münasibətdə də Heydər Əliyevin mövqeyi aydın və qəti oldu: "Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirlərini həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir" [15, s. 295-296].

Heydər Əliyev gənc nəslin milli ruhda tərbiyə olunması məsələsini əsas vəzifələrdən biri kimi irəli sürmüşdür. Dövlət başçısı bu məsələdən bəhs edərkən belə deyirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməli-

dir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" [15, s.295-296]. Maraqlıdır ki, Heydər Əliyev tariximizdən bəhs edərkən onu mənəviyyatımızla sıx əlaqədə görür və göstərir ki, bütün mərhələlərdə xalqımızın tarixinin əsasını təşkil edən yüksək mənəviyyat olmuşdur və tarixi keçmişimizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran da, bizim üçün nümunə edən də onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır.

Bu gün Azərbaycanın dünya birliyinə inteqrasiyası sahəsində və Avropa Şurasındakı uğurları göz qabağındadır. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan İlham Əliyevin bu mötəbər beynəlxalq məclisdəki parlaq çıxışları, onun başçılıq etdiyi deputat qrupunun erməni millətçiləri üzərindəki qələbələri hər bir Vətən övladında haqlı qürur hissi doğurur. Bununla yanaşı, İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının büro üzvü seçilməsi və vitse-prezidenti kimi yüksək vəzifəyə layiq görülməsi Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artdığını sübut edən daha bir parlaq faktdır.

Ümumdünya tarixinin dahi şəxsiyyətlərindən biri olan Heydər Əliyevin layiqli varisi İlham Əliyevin rəhbərlik etdiyi müasir Azərbaycan, habelə bütün dünyanın 50 milyonluq azərbaycanlıları dirçəliş yolundadır. Azərbaycan xalqı yaxın gələcəkdə Böyük Azərbaycanın inti-

bahını gözləyir. Azərbaycan xalqının iradəsini ifadə edən İlham Əliyev müstəqil Azərbaycanın prezidenti olmaqla bərabər, həm də dünya azərbaycanlılarının yeni lideridir. Azərbaycanın prezidenti İlham Əliyev bütün dünya tərəfindən qəbul olunan görkəmli və müasir dövlət xadimidir. O, Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir.

İlham Əliyev Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərir. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan İlham Əliyev müasir və çevik siyasətçi kimi dünyada böyük hörmət və nüfuz qazanmışdır. O, sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edir. İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində də rolu və nüfuzu getdikcə artır. Azərbaycan Prezidenti İlham Əliyev bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri adları və mükafatlarına layiq görülmüş, AŞPA-nın fəxri üzvü diplomu və medalı ilə təltif olunmuşdur. Onun həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsədyönlü xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilmişdir.

İlham Əliyev Heydər Əliyevin Azərbaycan xalqının mədəni irsinin, milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir. Onun "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamları (12 yanvar 2004-cü il), Milli Ensiklopediyanın nəşrinə rəhbərliyi şəxsən öz üzərinə götürməsi və bununla bağlı imzaladığı sərəncamlar, alimlərə elmi dərəcələrə görə verilən əlavə əmək haqqı, tələbələr, magistrlər və aspirantların təqaüdlərini dəfələrlə artırması milli-mənəvi və ümumbəşəri dəyərlərə dövlət qayğısının parlaq təzahürləridir.

Heydər Əliyev tərəfindən müəyyənləşdirilən mədəniyyət konsepsiyasının İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycan Respublikasının mədəniyyət siyasətinin mütərəqqi və təminatlı perspektivlərindən xəbər verməkdədir. Bu, özünü Naxçıvanın tarixi-mədəni irsinə münasibətdə də göstərməkdədir ki, bu da təbii sayılmalıdır. Çünki Naxçıvan ərazisi ilk insan məskənlərindən biridir. Qədim daş dövründən başlayaraq insanlar bu ərazidə yaşamış, zəngin mədəniyyət yaratmışlar. Bu diyarda Azərbaycan xalqının tarixi, elmi və mədəni irsi formalaşmışdır. Bəşər sivilizasiyasının ilk beşiklərindən olan Naxçıvan diyarı əsrlər boyu Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzi statusunu qoruyub saxlamışdır.

Hər bir xalqın qədimliyini sübut edən onun mədəniyyətidir, tarixi abidələridir. Bu cəhətdən Naxçıvan ərazisi xüsusilə diqqəti cəlb edir. Naxçıvan torpağı antik, orta əsrlər, yeni və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zəngindir. Bu qədim diyarda hər addımda ilk insanların yaşadıqları mağaralara, qədim yaşayış yerlərinə, erkən şəhər mədəniyyəti qalıqlarına, möhtəşəm qala divarlarına, qayaüstü rəsmlərə, daş qoç heykəllərə, türbələrə – bir sözlə, nadir maddi-mədəniyyət nümunələrinə rast gəlmək mümkündür. Naxçıvandakı Qazma, Əshabi-Kəhf və Kilit mağaraları daş dövrü mədəniyyətinin qalıqlarını yaşatmaqdadır. III minilliyin sonu – II minilliyin əvvəllərində Naxçıvan ərazisində Oğlanqala, Çalxanqala, Govurqala kimi qala şəhər məntəqələri yaranmışdır. Gəmiqaya qayaüstü rəsmləri e.ə.IV-I minillikdə xalqımızın bədii təfəkkürünü, adət-ənənələrini, estetik-fəlsəfi baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirən qiymətli təsvirlər qalereyasıdır. Dahi memar Əcəmi Naxçıvani XII əsrdə Naxçıvanda elmin tükənməz imkanlarını nümayiş etdirərək xalqımıza Yusif Küseyir oğlu və Möminə xatın türbələri kimi möhtəşəm sənət nümunələri qoyub getmişdir. Orta əsrlərdə və sonrakı dövrlərdə Naxçıvan diyarında yüzlərlə belə abidələr ucaldılmışdır. Bunu nəzərə alan ulu öndərimiz Heydər Əliyev qeyd etmişdir ki, "Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır" [79, s.2].

Naxçıvanın tarixi-mədəni irsinə xüsusi qayğı ilə yanaşan Heydər Əliyev öz çıxışlarında həmişə vurğulayırdı ki, Naxçıvan Azərbaycanın ən qədim diyarlarından biridir, çox zəngin tarixə malik olan Azərbaycanın bir hissəsidir, 5000 illik tarixi olan Azərbaycan torpağıdır. Bu tarix çox zəngin hadisələrlə doludur. Bunların hamısı Azərbaycan üçün Naxçıvanın nə qədər qiymətli olduğunu həmişə göstərib, göstərir və gələcəkdə də göstərəcəkdir. Naxçıvan Azərbaycanın Dədə Qorqud mərkəzlərindən biridir və "Kitabi-Dədə Qorqud"un çox izlərinin Naxçıvanda olması Naxçıvanın Azərbaycanın nə qədər qədim və zəngin diyarı olduğunu bir daha göstərir. Naxçıvanın xüsusiyyətlərindən biri də burada milli ruhun, milli şüurun, azərbaycançılığın çox yüksək səviyyədə olmasıdır [118].

Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə Naxçıvanın mədəniyyət müəssisələri şəbəkəsi daima diqqət mərkəzində saxlanılmışdır. Öncə yaradılan mədəniyyət müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsini də məhz bu qayğının nəticəsi kimi qeyd etmək vacibdir. Bu prosesdə muzeylərin etnoqrafik və folklor materiallarının qorunmasında və həmçinin tədqiq edilməsində xüsusi rol oynaması göz önündədir. Fəxrlə demək olar ki, 1968-ci ildə dövlət statusu almış Naxçıvan Dövlət Tarix Muzeyində hal-hazırda 41 mindən artıq eksponat saxlanılır. Qeyd etmək lazımdır ki, bu muzey 1924-cü ildə tarix-etnoqrafiya muzeyi kimi

yaradılsa da, 1968-ci ilə qədər tarix-ölkəşünaslıq muzeyi adlandırılmışdır. Burada Naxçıvan Muxtar Respublikası ərazisində arxeoloji qazıntılar zamanı tapılmış müxtəlif milli geyimlər, tətbiqi sənət nümunələri, xalça məmulatları, maddi mədəniyyət və qədim numizmatika materialları, eyni zamanda məişət əşyaları, qiymətli metallardan hazırlanmış zinət, rəssamlıq əsərləri və s. nümayiş etdirilir. Muzeydə elmi-tədqiqat işlərinin aparılması, stasionar və səyyar sərgilərin təşkili, anım mərasimləri, müxtəlif görüşlər, elmi-nəzəri və təcrübi konfranslar, dəyirmi masa və s. maarifləndirici tədbirlərin həyata keçirilməsi də çox diqqətəlayiq hal kimi qiymətləndirilir.

Orta əsrlərdə yaşamış və dövrünün məşhur memarlarından sayılan Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilən Möminə Xatın, Yusif Küseyir oğlu türbəsinin və bundan başqa müəllifi olduğu digər memarlıq abidələrinin şəkilli materiallarının, qazıntılar zamanı aşkar olunmuş gümüş və mis pulların, bir sözlə, xalqımızın mədəniyyətini, tarıxını özündə əks etdirən bir sıra dəyərli abidələrin sərgiyə çıxarılması da böyük məna kəsb edir.

Onu da deyək ki, bu muzey Muxtar Respublikada tək deyil. Eyni zamanda onunla yanaşı 6 regional tarix-diyarşünaslıq muzeyi də fəaliyyət göstərir. Bütün muzeylərin vətənimizin tarix və mədəniyyətini əks etdi-

rərək milli və tarixi yaddaşın qorunmasında və formalaşmasında müstəsna rolu vardır.

“Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” deyən ümummilli lider Naxçıvan haqqında da çox dəyərli fikirlər söyləmişdir. O, Naxçıvana duyduğu sonsuz sevgini belə ifadə etmişdir: “Müqəddəs Naxçıvan torpağı mənim üçün əziz bir yerdir. Mən bu torpağın qarşısında baş əyirəm. Naxçıvanın böyük və zəngin tarixi vardır. Bu tarixin dünya mədəniyyətinə, bəşər mədəniyyətinə böyük töhfələri olmuşdur. Naxçıvan qədim diyardır. Arxeoloji tapıntıların təhlilinə görə demək olar ki, Azərbaycanın ən qədim diyarlarından biri Naxçıvandır” [118].

Son illərdə Naxçıvan Muxtar Respublikasında istər sosial-iqtisadi, istərsə də siyasət və mədəniyyət sahəsində gedən sürətli inkişaf göz qabağındadır. Bütün Respublikamızda olduğu kimi, Naxçıvanın da belə çiçəklənməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin və onun siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, həmçinin, Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun adı xüsusilə vurğulanmalıdır. Çünki məhz yuxarıda adı çəkilən şəxsiyyətlərin böyük zəhməti və bacarığı sayəsində abadlıq və quruculuq işləri yüksək vüsət almışdır.

Naxçıvanın hərtərəfli öyrənilməsinə, tarixi-memarlıq abidələrinin bərpa və restavrasiyasına ciddi əhəmiy-

yət verilir. Naxçıvan MR Ali Məclisi sədrinin rəhbərliyi ilə keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" (1996) beynəlxalq simpoziumu Naxçıvan diyarının tarixinin xalqın milli mənafeyi baxımından, obyektiv şəkildə araşdırılmasında mühüm rol oynamışdır. Son 10 ildə Naxçıvanın tarixi, mədəniyyəti, toponimikası, biomüxtəlifliyi və təbii ehtiyatlarının öyrənilməsi, azərbaycanlıların soyqırımı və deportasiyası tarixi, maarifçilik hərəkatının inkişafı və b. məsələlərlə bağlı onlarla konfrans və simpozium keçirilmişdir. Naxçıvan mövzusunda, onun tarixi, mədəniyyəti, abidələri, folkloru ilə əlaqədar çoxsaylı kitab və monoqrafiya çap olunmuşdur. İki cildlik "Naxçıvan ensiklopediyası" və "Naxçıvan: tarixi və abidələri" kitabları əhəmiyyətlilik dərəcələrinə görə diqqəti xüsusilə cəlb edir. Naxçıvan diyarının tarixinin, mədəniyyətinin, arxeologiyasının, etnoqrafiya və folklorunun öyrənilməsi, Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması, Naxçıvanda "Dədə Qorqud" meydanının salınması, Nuh peyğəmbərin məzarüstü türbəsinin bərpa edilməsi haqqında və sair bu kimi vacib məsələlərlə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müxtəlif fərman və sərəncamları olmuşdur [79, s. 3].

Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında mühüm hadisə olan Naxçıvan Ensiklopediyası xalqımızın ümummilli lideri Heydər Əliyevin

“Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında” 1999-cu il 12 fevral tarixli sərəncamına əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti nəzdində yaradılmış Naxçıvan ensiklopediyası qurumu tərəfindən hazırlanmış və 2002-ci ildə nəşr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında” 2004-cü il 9 fevral tarixli sərəncamı ilə müəyyən edilmiş tədbirlər planına uyğun olaraq Naxçıvan Ensiklopediyasının təkrar nəşr edilməsi qərara alınmışdır. Buna müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvan Ensiklopediyasının təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşri hazırlanmışdır. Naxçıvan Ensiklopediyası Muxtar Respublikanın təbiətindən, tarixindən, ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatından sistemli şəkildə bəhs edən elmi nəşrdir. Burada Muxtar Respublikaya həsr olunmuş kompleks məqalədən əlavə, diyarın bütün inzibati rayonları, fiziki-coğrafi obyektləri, şəhər və kəndləri, geoloji quruluşu, yeraltı və yerüstü təbii sərvətləri haqqında məqalələr verilmişdir [77, s.5].

Naxçıvan Muxtar Respublikasının tarixinə aid məqalələrə nəzər salsaq, bu ərazidə baş verən mühüm hadisələrin, müharibələr və onları sona çatdıran müqavilələrin, arxeoloji mədəniyyətlərin ensiklopedik prin-

siplərə uyğun gəlməsindən bəhs edildiyini görürük. Bu ensiklopediyadakı yazılar Naxçıvanın bütün Yaxın Şərqdə yüksək sivilizasiyanın ilkin ocaqlarından olduğunu bir daha sübut edir. Naxçıvan Ensiklopediyasında həmçinin xalqımıza başucalığı gətirən, respublikamızı bütün dünyaya tanıdan bir sıra görkəmli dövlət, siyasi və ictimai xadimlərin, tanınmış alimlərin, şair və yazıçıların, müxtəlif sahələrdə uğur qazanmış digər şəxsiyyətlərin də tərcümeyi-halı, yaradıcılığı və s. haqqında məqalələr verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli sərəncamından sonra Azərbaycan MEA Naxçıvan Bölməsində işçi qrupu yaradılmış və ərazidə olan tarix və mədəniyyət abidələri tədqiq edilmiş, hər bir abidəyə pasport yazılmışdır [79, s.4].

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 7 avqust 2002-ci il tarixli (№ 1003) sərəncamı Naxçıvan Muxtar Respublikasında elmi tədqiqat qurumlarının fəaliyyətinin gücləndirilməsi, mövcud elmi potensialdan istifadə olunmasının səmərəliliyinin artırılması, Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şərait yaratdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi haqqında" 2008-ci il 19 mart tarixli sərəncamı ilə təsdiq edilmiş "Tədbirlər planı"na əsasən çap olunmuş "Naxçıvan abidələri ensiklopediyası" dil, folklor, tarixi-etnoqrafik materiallarla zəngin bir mənbədir. Bu ensiklopediya bir daha təsdiqlədi ki, Naxçıvan ərazisində dünya miqyaslı tarixi-memarlıq abidələri mövcuddur və onlar bu gün də qorunur. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini özündə əks etdirən abidələrdir... Azərbaycanın siyasi, iqtisadi və elmi-mədəni həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsində hazırlanmış "Naxçıvan abidələri ensiklopediyası"nda Naxçıvan Muxtar Respublikası ərazisində olan dünya və ölkə əhəmiyyətli tarixi, arxeoloji, mədəniyyət, memarlıq, təbiət abidələrindən, körpü, qala, ziyarətgah və yaşayış yerlərindən bəhs edilir [79, s.4].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəyə rəhbərlik etdiyi ilk vaxtlardan mədəniyyət, ədəbiyyat, tarixi-mədəni irs və milli-mənəvi dəyərlər haqqında bir sıra qanunları təsdiqləmiş, fərmanlar vermiş, sərəncamlar imzalamışdır. Onun 2 oktyabr 2006-cı ildə imzaladığı "YUNESKO-nun "Qeyri-maddi

mədəni irsin qorunması haqqında" konvensiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu ilə "YUNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" 2003-cü il 17 oktyabr tarixli Konvensiyası" təsdiq edilmişdir [84, s.156].

Həmçinin möhtərəm Prezidentimizin 29 yanvar 2004-cü il tarixli Fərmanı ilə "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanunu"nun icrası təmin edilmişdir.

Ümumiyyətlə, Azərbaycanın dövlət rəhbərlərinin – ümummilli liderimiz Heydər Əliyevin və İlham Əliyevin mədəniyyət sahəsində imzaladıqları qanun, fərman və sərəncamlar da sübut etməkdədir ki, respublikamızın tutduğu yol mədəni dünyaya inteqrasiya yoludur və beynəlxalq mədəniyyət təşkilatlarının kulturoloji layihələrinə qoşulmaq yoludur.

Bu mənada dünya elmi-nəzəri fikrində kulturoloji problemlərlə bağlı bir sıra mübahisəli məsələlər olsa da, insanın mədəniyyətin məhsulu olması və bəşəriyyətin qlobal problemlərdən xilasında mədəniyyətin müstəsna roluna dair mütəxəssislər arasında da ciddi bir fikir ayrılığı yoxdur. Ümumilikdə isə, bəşəriyyətin kulturoloji irsinin öyrənilməsi, mühafizəsi və təbliği məsələləri mədəni dünyanı getdikcə daha çox düşündürməkdədir. Son illərdə bu sahədə bir sıra ciddi beynəlxalq layihələr həyata keçirilmiş, konvensiyalar qəbul edilmişdir. Məsələn, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və

Mədəniyyət Təşkilatının Baş Konfransı 3-21 oktyabr 2005-ci il tarixində Paris şəhərində keçirilən 33-cü sessiyasında mədəni müxtəlifliyin bəşəriyyətin fərqləndirici xüsusiyyəti olduğunu təsdiqləyərək, "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" konvensiya qəbul etmişdir [25]. 2004-cü il noyabrın 17-19-da Avropanın siyasi, iqtisadi, mədəni həyatının, vətəndaş cəmiyyətinin nümayəndələri, dövlət rəsmiləri "Avropa üçün ruh" adlı üç günlük konfransda ciddi qərarlar qəbul etmişlər. 2006-cı ildə keçirilən II Berlin konfransında "Mədəniyyətin Avropada birlik və rifah üçün intensiv istifadəsi" təşəbbüsü irəli sürülmüşdür. Avropa Komissiyasının prezidenti X.M.Barrozu Berlində 2006-cı ildə keçirilən konfransın memorandumunda vurğulamışdır ki, "Avropa Birliyi öz inkişafında elə mərhələni qət etmişdir ki, artıq mədəniyyət faktoruna biganə qala bilməz. Birliyimizin gələcəyi üçün mədəniyyəti hərəkətverici qüvvə kimi inkişaf etdirməliyik. Avropanı birləşdirən inteqrasiya proseslərinə yalnız zahiri, maddi irəliləyiş deyil, həm də mədəni, mənəvi tərəqqini, keyfiyyət yüksəlişini təmin etmək üçün ruh, qəlb gərəkdir. Gələcək üçün Avropanın mədəni enerjisi səfərbər edilməlidir. Bunsuz sabitliyə nail olmaq qeyri-mümkündür". Həmçinin, Avropa Komissiyasının prezidenti bu konfransda 2008-ci ilin "Mədəniyyətlərarası dialoq ili" olacağını bəyan etmişdi [3, s. 22-24].

Bu çərçivədə Azərbaycanda da mədəniyyətə dair bir sıra mühüm beynəlxalq tədbirlər keçirilmiş və 2008-ci ildən Bakı Prosesi başlamışdır. 2008-ci il dekabr ayının 2-3-də Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda Bakıda keçirilmiş konfransının, 2009-cu ildə Bakının İslam mədəniyyətinin paytaxtı seçilməsi münasibətilə təşkil edilmiş tədbirlərin, 2010-cu ildə Bakıda Dünya Dinləri Liderlərinin Zirvə Görüşünün, 2011-ci il aprelin 7-9-da Bakıda keçirilmiş Beynəlxalq Forumun, 10 oktyabr 2011-ci ildə Bakıda "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə keçirilmiş Beynəlxalq Humanitar Forumun nəticələri, artıq bir neçə ildir ənənəvi hal almış Qəbələ Beynəlxalq Musiqi Festivalı və nəhayət Azərbaycan Respublikası Prezidentinin 2011-ci il noyabr ayının 29-da "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə sərəncam imzalaması da mədəniyyət fenomeninin bəşəriyyətin gələcəyi üçün nə qədər bir əhəmiyyətli faktor olduğunu təsdiqlədi. Habelə "Muğam", "Aşıq sənəti", "Xalça sənəti" və "Novruz bayramı" kimi milli dəyərlərin YUNESKO tərəfindən dünyanın qeyri-maddi mədəni irsi siyahısına daxil edilməsi və Mədəniyyət və Turizm Nazirliyinin ənənəvi olaraq Milli Kulturoloqların Forumunu keçirməsi, eləcə də digər layihə və tədbirlər, elmi konfrans və simpoziumlar milli-mədəni irsin tədqiqinə

və kulturoloji istiqamətli elmi araşdırmalara stimul verməkdədir [91, s.3-4].

O cümlədən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun 17 fevral 2011-ci il tarixli sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında Naxçıvanşünaslıq Mərkəzinin yaradılması bu bölgədə olan tarixi, etnoqrafik, dil, folklor materiallarının tədqiqi və təbliği baxımdan tarixi bir hadisə idi. Azərbaycanın Naxçıvan Muxtar Respublikası böyük bir tarixi keçmişə malikdir. Lakin bu tarix Sovetlər Birliyi dövründə lazımi səviyyədə öyrənilməmiş, bir sıra ciddi elmi-nəzəri səhvlərə yol verilmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyi dövründə xalqımızın tarixinin, dilinin, ədəbiyyatının, arxeologiya və etnoqrafiyasının, folklorunun və adət-ənənələrinin, milli-mənəvi dəyərlər sisteminin elmi dəlil və konkret faktlar əsasında yenidən araşdırılmasına başlanmışdır. Həmin elmi araşdırmalar sayəsində Naxçıvanın tarixi və abidələri, arxeologiya və etnoqrafiyası, ədəbi mühiti və mədəniyyəti, təbii sərvətləri və biomühiti ciddi tədqiqatların predmetinə çevrilmiş, yeni elmi istiqamətlər müəyyənləşdirilmiş və nəticələr əldə olunmuşdur. Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublika ərazisində 792 yeni tarixi abidə aşkar edilərək tədqiq olunmuş, ümumilikdə 1172 tarix və mədəniyyət abidəsi pasportlaşdırılaraq dövrü və tipoloji mənsubiyyəti

müəyyənləşdirilmiş, 46 tarixi abidə bərpa olunmuş, tarix və mədəniyyət abidələrinin mühafizəsi təmin edilmişdir.

Bununla yanaşı, uzun müddət öyrənilməsinə qadağa qoyulmuş Nuh peyğəmbər və onun Naxçıvana bağlılığı yenidən elmi tədqiqatların gündəliyinə çıxarılmış, Ordubad rayonu ərazisində olan və eradan əvvəl IV minilliyə aid edilən Gəmiqaya abidəsi, buradakı qayaüstü yazılar öyrənilmiş, Naxçıvan şəhəri ərazisində Nuh peyğəmbərin qəbrinin yeri müəyyənləşdirilərək qədim mənbələr əsasında bərpa olunmuş, Naxçıvanın ilkin şəhər mədəniyyətinin öyrənilməsində mühüm amil olan Naxçıvan yaxınlığındakı Duzdağın və ona bitişik ərazilərin tarixi və arxeoloji istiqamətdə öyrənilməsinə başlanmış, əldə olunan nəticələr əsasında Naxçıvanın 5 min illik ilkin şəhər mədəniyyəti elmi dövriyyəyə daxil edilmişdir.

Təşkil olunan elmi ekspedisiyalar, aparılan arxeoloji tədqiqatlar Naxçıvanşünaslığın digər istiqamətlərinin də öyrənilməsinə ciddi əsas yaratmış, Naxçıvanın tarixi, mədəniyyəti, toponimikası, azərbaycanlıların soyqırımı və deportasiyası, maarifçilik hərəkatının və təbii ehtiyatların öyrənilməsi ilə bağlı 50-dən artıq simpozium və konfrans keçirilmiş, Naxçıvanşünaslığa aid 700-dən çox monoqrafiya, kitab, elmi məqalə, dərslik və dərs vəsaiti nəşr olunmuş, Naxçıvan Muxtar Respublika Kitabxanasında “Naxçıvanşünaslıq” bölməsi təşkil edil-

miş, geniş məlumat bazasına malik “Nakhchivan.az” internet portalı yaradılmışdır.

Azərbaycan alimlərinin diqqətini Naxçıvanın müasir elmi yanaşma baxımından öyrənilməsi vacibliyinə cəlb edən ümummilli lider Heydər Əliyev deyirdi: “Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Bizim əsas məqsədimiz Naxçıvanın tarixini hərtərəfli öyrənmək, tədqiq etmək, onları elmi və populyar kitablarda dərc etmək, təbliğat materiallarında istifadə etməkdir”.

Bizə azərbaycançılıq kimi dərin bir fəlsəfi konsepsiyanı bəxş edən, Azərbaycan tarixini, dilini, mədəniyyətini və milli-mənəvi dəyərlərimizi qorumağı dönədönə tövsiyə edən ümummilli liderimiz Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin banisidir.

Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında mədəniyyət təsisatlarının rolunu dəyərləndirən [84, s.11] İlham Əliyev isə tövsiyə edir ki: “Azərbaycanlıların milli-mənəvi dəyərlərinin, mütərəqqi ənənələrinin qorunub saxlanması və təbliğ edilməsi, mədəniyyət mərkəzlərinin yaradılması və səmərəli fəaliyyəti üçün məqsədyönlü və müntəzəm tədbirlər həyata keçirilməlidir” [84, s.16].

Məhz belə bir mədəniyyət siyasəti nəticəsində müstəqil Azərbaycan Respublikası bir tərəfdən öz milli-mənəvi və tarixi-mədəni irsini tədqiq və təbliğ etməkdə, digər tərəfdən də beynəlxalq aləmə inteqrasiya olunaraq belə bir mədəni irslə bəşər mədəniyyətinə töhfələr verməkdədir.

Azərbaycan dövləti xalqımızın tarixi və mədəni ənənələrinə, dilimizə, dinimizə, milli-mənəvi dəyərlərimizə istinad edərək, yeni tarixi şəraitdə müasir tələblərə uyğun olaraq öz daxili və xarici siyasətini həyata keçirir. Bu gün mədəni irsin qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil respublikanın mədəniyyət siyasətinin əsas vəzifələrindən biridir. Bu vəzifələrin icrası yolunda xalqımızın əldə etdiyi nailiyyətlər, milli sərvətimiz olan maddi və mənəvi dəyərlərimizin istifadəsini, bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafını və inteqrasiyasını təmin edir. Azərbaycan xalqı azad və suveren dövlət quraraq mədəni-iqtisadi islahatlar aparmaqla öz milli-əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik ölkələrin təcrübələrindən istifadə edir.

MƏDƏNİ İRSİN TƏDQİQİ MƏSƏLƏLƏRİ

Mədəniyyəti müxtəlif elmlər – kulturologiya, arxeologiya, etnoqrafiya, tarix, sosiologiya, fəlsəfə və digər ictimai elmlər öyrənir ki, bunların hər biri bu fenomenə müxtəlif kontekstlərdən yanaşır. Buraya həmçinin incəsənəti, əxlaqı, dini və s. öyrənən elmlər də daxildir. Konkret elmlərin hər biri öz tədqiqat predmeti daxilində mədəniyyət haqqında müəyyən təsəvvür yaradır [87, s.497]. Məsələn, fəlsəfə konkret elmlərdən fərqli olaraq mədəniyyətin bu və ya digər tərəfini deyil, onun dünyagörüşü ilə bağlı olan ümumi nəzəri səpkisini əsas götürür. Mədəniyyətin fəlsəfi anlayışı ona insan və onun fəaliyyəti ilə ayrılmaz vəhdətdə yanaşır. Hətta mədəniyyət sözünün etimoloji mənşəyi də onun əzəldən insanla bilavasitə bağlılığını sübut edir [119].

Mədəniyyətin tərkibini elə mahiyyət elementləri təşkil edir ki, bunlar onun xarakterini, prosesin özünü müəyyənləşdirir, çoxşaxəli bir sistem kimi, yaradıcı insanın humanizmini, eləcə də mədəniyyətin aparıcı funksiyası kimi, qneseoloji köklərini üzə çıxarır. Bu mənada bəşəriyyətin nəsil-nəsil topladığı, formalaşdırdığı, nəhayət, qazandığı mədəniyyət incilərini gələcək əsrlərə çatdıra bilmək əsas vəzifəmizdir [40, s.6]. Mədəniyyətin əsas funksiyası nəsillərin mənəvi təcrübəsini qoruyub

saxlamaq, sonrakı nəsillərə çatdırmaq və mənimsəməkdir. Mədəniyyət idrakı, informativ və adaptasiya funksiyalarını yerinə yetirir. Mədəniyyət dəyərlər istehsal edilən bir sahə kimi mövcuddur, o, həmin dəyərlər sayəsində cəmiyyəti istiqamətləndirir və tənzimləyir, gerçəkliyin predmet və hadisələrini qiymətləndirir, onları bəyənir, yaxud pisləyir [63, s.262].

Babalarımızdan bizə miras qalan və bizdən də gələcək nəsillərə ərməğan olan mədəniyyəti mütəxəssislər bəşəriyyətin sosial yaddaşı adlandırırlar. Buna arxalanaraq, mədəniyyəti mahiyyətinə görə müxtəlif ünsürləri özündə birləşdirən anlayış kimi qiymətləndirmək olar.

Mədəniyyət fenomeni çox geniş bir anlayış olub, bəşər övladının yarandığı vaxtdan bəri yaratdığı və getdikcə təkmilləşdirdiyi maddi, mənəvi, ruhani, ideoloji, bədii-estetik və digər sərvətləri özündə ehtiva edir. Yəni, insanlığı şərtləndirən yaddaş, dünyagörüşü, elm, davranış, ünsiyyət, incəsənət, məişət və s. bu kimi keyfiyyətlər mədəniyyətin komponentlərindəndir [74].

Bütöv bir sistem kimi qəbul etsək, mədəniyyət şəxsiyyətin və xalqların fərdi intellektinin, yaradıcılıq potensialının göstəricisidir. Təsadüfi deyil ki, hər bir xalqın və şəxsiyyətin xarakterik xüsusiyyətlərinə, daxili dünyasının mənzərəsinə və potensial imkanlarına bələd olmaq istəyənlər birinci növbədə onun yaratmış olduğu mədəni sərvətə, əsərlərinə və abidələrə müraciət edirlər.

Çünki mədəniyyəti yaradan xalq (şəxsiyyət) eyni zamanda bu prosesdə özü formalaşır. Ona görə də xalqın xarakteri onun öz yaradıcılıq məhsullarında – mədəniyyətində üzə çıxır [74].

Genetik yaddaşdan və tarixi inkişafdan gələn dünyabaxışı, adət-ənənə, ünsiyyət, həyat şəraiti, qarşılıqlı əlaqələr, həmçinin təsərrüfat, məişət, geyim, qida və s. mədəni sərvətlərin yaradılmasına xidmət edir. Deməli, mədəni sərvətlərin bütünlükdə mənimsənilməsi, cəmiyyətin inkişafının və formalaşmasının idarə olunmasına xidmət edir.

Sözün geniş mənasında mədəniyyət dedikdə, bəşəriyyətin yaratdığı maddi və mənəvi sərvətlərin məcmusu nəzərdə tutulur. Bununla yanaşı həmin anlayış yaradılmış sərvətlərin insanlar tərəfindən mənimsənilməsi formalarını, ondan istifadə olunmasının prinsip və üsullarını da əhatə edir [119].

Mədəniyyət dedikdə, ilk növbədə insanın yaradıcı əməyi nəzərdə tutulur. Çünki insan fəaliyyəti, xüsusilə də, fiziki və əqli əmək sahəsində qazandığı uğurlar özünü mədəniyyət formasında təzahür edir.

Müasir kulturoloji ədəbiyyatda mədəniyyətin çoxsaylı tərifləri yer almışdır. Hazırda bunların sayı yüzlərlədir və ən əsaslarını aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Təsviri tərif – mədəniyyəti fəaliyyət nəticələrinin məcmusu kimi səciyyələndirir.

2) Tarixi tərif – mədəniyyətdə sosial irsin və ənənənin əsas rolunu qeyd edir.
3) Normativ tərif – qaydaların və normaların əhəmiyyətinə xüsusi diqqət yetirir.
4) Dəyərlər mövqeyindən yanaşan təriflər – mədəniyyəti insan üçün əhəmiyyət kəsb edən ideal yükləmələrin reallaşması kimi səciyyələndirir.
5) Psixoloji səpkili təriflər – mədəniyyətə insanların təbiətə və sosiuma uyğunlaşması kimi yanaşır.
6) İdeoloji təriflər mədəniyyəti ideyalar axını kimi ifadə edir.
7) Semiotik yanaşma mədəniyyəti işarələr sistemlərinin məcmusu hesab edir [119].

Həyata daxil olarkən insanlar həmin həyatın mövcud şəraitinə yiyələnmək məcburiyyətindədir. Həmin şəraitə yiyələnmək dərəcəsi insanın mədəniyyətini müəyyən edir: dil mənimsəmə dərəcəsi – dil mədəniyyətini, əxlaqı mənimsəmək – əxlaq mədəniyyətini xarakterizə edir və s. Mənəvi fəaliyyət sferasında "mədəniyyət" anlayışı da xüsusi məzmuna malikdir və yalnız yaradıcılığın xarakterini deyil, həm də bu yaradıcılığın nəticələrini qavramağın xarakterini müəyyən edir. Əmək mədəniyyəti, davranış mədəniyyəti, təfəkkür və nitq mədəniyyəti, hissetmə və qavrama mədəniyyətindən danışmaq olar. Bütün bu hallarda söhbət insanlar, onların inkişaf səviyyəsi haqqında gedir. Ona görə də yalnız insan vasitəsilə onları mədəniyyət ünsürləri kimi, əşyalaşmış

mədəniyyət kimi qəbul etmək olar. Bilavasitə mədəniyyət isə – yalnız insanın xarakteristikası kimi, onun mənəvi, əxlaqi, peşə inkişafının dərəcəsi və sintetik xarakteristikası kimi çıxış edir [87, s.487-488].

Mədəniyyətin elmi əsası olan kulturologiyanın predmeti ümumbəşəri və milli mədəni proseslərin qanunauyğunluqları, insanların maddi və mənəvi həyatının ən mühüm hadisələridir. Kulturologiya mədəni proseslərin və insanların tələbatının yaranmasının və formalaşmasının ilkin şərtlərini və amillərini öyrənir, mənəvi dəyərlərin istehsalını, mənəvi məhsulların bölgüsünü, mübadiləsini, istehlakını, qorunub saxlanmasını və gələcək nəsillərə çatdırılmasını, dəyər oriyentasiyalarının, müəyyən ideyaların, təsəvvürlərin, estetik zövqlərin yaranmasını tədqiq edir. Kulturologiya həm də müxtəlif cəmiyyətlərdə mədəni həyatı öyrənir və beləliklə, müxtəlif konkret mədəniyyətlərin tarixi tiplərinin nailiyyətlərini və xüsusiyyətlərini aydınlaşdırmağa çalışır. Kulturologiyanın ən mühüm vəzifəsi dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi məsələlərini öyrənmək, müasir dövrün sosiomədəni meyllərini və proseslərini təhlil etməkdir [63, s.25].

Mütəxəssislər tərəfindən daha çox “mədəniyyət haqqında elm” kimi qəbul edilən kulturologiyanın mahiyyətini dərk etmək üçün ilk növbədə “kültür” kəlməsinin etimoloji mənasına diqqət yetirmək lazımdır. Qeyd edək ki, dünyanın müxtəlif xalqlarının dilində fərqli

şəkillərdə yer almış bu termin latınca “cultura” kəlməsindən götürülmüşdür. Bu gün biz milli mədəniyyət kimi qəbul edə biləcəyimiz “kültür” “hər millətə öz özəlliyini verən, ona milli damğasını vuran maddi və bilavasitə mənəvi dəyərlər məcmusudur” [104, s.32]. Dəyər isə mədəniyyət hadisəsidir və öz mahiyyətinə görə həm sosial, həm də fərdi olan maddi və mənəvi dünya obyektlərinin ümumi cəhətdən müəyyənləşdirilməsi, onların insan və cəmiyyət üçün müsbət və mənfi tərəflərinin üzə çıxarılmasıdır. Öz-özlüyündə əşyaların, hadisələrin insanlara aidiyyəti yoxdursa, onlar dəyər anlayışına daxil olmur. Dəyər anlayışı – “əhəmiyyət”, “fayda” və ya “ziyan” anlayışı ilə əlaqədardır. Deməli, maddi və mənəvi dəyərlərin məcmusu, həmçinin yaradılma üsulları, onlardan insan üçün istifadə etməyi bacarmaq, onları nəsildən-nəslə ötürmək qabiliyyəti mədəniyyət (“cultura” – becərmə, emal etmə) deməkdir [87, s.488].

Latınca “cultura” sözündən yaranmış “mədəniyyət” (“kultura”) termini ilk dəfə Romada məşhur siyasi xadim, natiq və filosof Mark Tulli Siseron (e. ə. 106-43-cü illər) tərəfindən “becərmə” mənasında işlədilmişdir. Bu, onu göstərir ki, əvvəllər mədəniyyət dedikdə, insanın təbiətə məqsədyönlü təsiri nəzərdə tutulurdu. Sonralar “mədəniyyət” anlayışı şəhər həyat tərzi ilə assosiasiya edilməyə başlanmışdır [63, s.25]. Anadol Cemal yazır ki, cultura türkcədə sürmək, əkib-becərmək; əkin

deməkdir. Kültürün dilimizdəki müxtəlif mənalarda işləndiyini görürük. Ən çox işlədilən mənası ilə kültür: ümumi bilik, məlumat mənasını ifadə etməkdədir. Başqa mənada kültür – fikir və sənət kəlməsinin əsl mənası oradan doğmuşdur, yetişdirmə, inkişaf etdirmə deməkdir [102, s.33].

Orta əsrlərdə "kult" (pərəstiş) sözü "kultura" (mədəniyyət) sözündən daha çox işlədilirdi; çünki "kult" sözü insanın Allaha məhəbbətində özünün yaradıcı potensialını açmaq üçün onun qabiliyyətini ifadə edirdi.

İntibah dövründə mədəniyyət haqqında antik təsəvvürlər yenidən üzə çıxır. Belə təsəvvür hər şeydən əvvəl harmonik, yüksək inkişafa can atan insanda fəal yaradıcı başlanğıcı ifadə edirdi. Sözün müasir mənasında "mədəniyyət" sözü XVIII əsrdən başlayaraq işlənir. Tamamilə müstəqil anlayış kimi bu sözə ilk dəfə alman hüquqşünası və tarixçisi S.Pufendorfun (1632-1694) əsərlərində rast gəlmək olar. "Mədəniyyətin fəlsəfəsi" termini isə XIX əsrdə alman romantiki V.Müller tərəfindən elmə gətirilmişdir. Mədəniyyətin klassik anlamı tarixin fəlsəfəsinə əsaslanırdı [87, s.487].

"Kültür" sözü leksik baxımdan "şumlanmış torpaq" mənasında olsa da onun daha geniş anlamı ram edilmiş, əhliləşdirilmiş torpaqdır. Çünki hər əkilən torpaq bərəkətli, verimli olmaz. Verimlilik və bərəkət insan iradəsinin torpağa enməsidir. Məsələn, Ərəbistanda, Mərkəzi Asiyada torpaq əhliləşmədi. Əslində köçəri

həyatın da bir səbəbi torpağın əhliləşməməsidir. İnsan ovçuluq dönəmindən etibarən mədəni (kültürlü) olmağı arzu etmiş, yəni uyğun bir məkanda torpağa bağlanaraq daha yaxşı yaşamağı xəyal etmişdir. Əkinçiliyin da kəşfi insanın bu istəyinə bağlı olmuşdur. Bu üzdən də "kültür" əkinçiliyin kəşfi və əkinçilik həyatının ortaya çıxışı ilə meydana gəlmişdir. Əkinçilik həyatı da hər yerdə mümkün olmadığı üçün münbit torpaqlarda məskunlaşmaq uğrunda savaşlar getmişdir. Şumerlərdəki ilk şəhər həyatının də iqtisadi qaynağı əkinçilikdir. Çünki ticarət üçün dünyada insanların sayı az, ehtiyac az, satış məhsulları məhdud və ticarət də zəif idi. Yalnız torpağı əhliləşdirməklə, torpağı daha məhsuldar hala gətirməklə yüksək səviyyədə yaşamaq mümkün olurdu. Bu səbəbdən də əkinçilik yeni bir dövrə keçidin iqtisadi təməllərini təşkil etdiyi üçün ona bağlı olan kültür də bu yaşayışın mənəvi qatını təşkil etmişdir [35].

Xaricidilli elmi ədəbiyyatda "sivilizasiya" və "kultur(a)" terminləri həm sinonim kimi, həm də müəyyən qədər fərqli anlayışlar kimi (əslində, hiponim kimi) işlədilir. Son illərdə Türkiyə türkcəsindən Azərbaycan dilinə keçən və arada bir işlədilən "kültür" sözünü nəzərə almasaq, bizdə istər elmi terminologiyada, istərsə də gündəlik danışıq dilində, bir qayda olaraq, "kultura" (kültür) sözündən istifadə edilmir. Əvəzində məlum fərq – "mədəniyyət" və "sivilizasiya" terminləri arasında qoyulur. Deməli, belə aydın olur ki, Azərbaycan dilində

“sivilizasiya” olduğu kimi saxlanılır, “mədəniyyət” isə “kultura”nın tərcüməsi kimi qəbul edilir [69]. Belə bir terminoloji mənzərənin doğru olub-olmadığına dair fikirlərini ortaya qoyan Ağalar Məmmədova görə, dilimizə ərəbcədən keçən “mədəniyyət” sözünün kökü şəhər (“mədinə”) deməkdir və bu baxımdan “mədəniyyət” latın dilində də sözün kökü şəhər (“city”) demək olan “sivilizasiya”ya uyğundur, nəinki mənası əkmək, şumlamaq, becərmək, bəsləmək, yetişdirmək, qulluq etmək (“colere”) demək olan kulturaya! Yox, əgər “mədəniyyət” sözünü işlədəcəyiksə, onda yuxarıda da yazdığım kimi, onu hərfi mənasına görə yalnız “sivilizasiya”nın əvəzinə, yəni sivilizasiyanın tərcüməsi kimi işlətmək olar. Daha da korrekt olmaq naminə demək lazımdır ki, əslində sivilizasiya (civilization) mədəniyyət yox, mədəniləşmə deməkdir. Belə ki, “mədəniyyət” “siviliti” (civility) sözünün tərcüməsidir [69].

Bir qisim mütəxəssislərin fikrincə mədəniyyət və sivilizasiya bir çox cəhətdən fərqlənmir, bir-birinə keçir, qarşılıqlı asılılıqdadır, amma eynilik təşkil etmir – sivilizasiya mədəni proses üçün ilkin şərait yaradır, mədəniyyət isə yeniliyin yaradıcısı olmaqla sivilizasiyanın inkişafı üçün şərait yaradır. Mədəniyyət sivilizasiyanın təsbit etdiyi sosial normaların təcəssümünü, gerçəkləşdirilməsini nəzərdə tutan müstəqil maddi və mənəvi fəaliyyətdir. Eyni bir sivilizasiya çoxsaylı mədəniyyətlər yaradır. Məsələn, orta əsrlərdə ərəb, fars və Azərbay-

can mədəniyyətləri islam sivilizasiyasının məhsullarıdır; türk sivilizasiyası türk, qırğız və Azərbaycan mədəniyyətlərini, eləcə də digər türkdilli xalqların mədəniyyətlərini əhatə edir [63, s.27]. Qeyd edək ki, "sivilizasiya" termini şəhər sakini olan vətəndaşa aid edilən latınca "sivilis" sözündən yaranıb. Lakin bu sözün mənası tədricən genişlənir, onun etimologiyası və başlanğıcda işlədilən mənası sonralar başqa məzmun qazanır [87, s.497].

Göründüyü kimi, mədəniyyətin mənəvi ünsürlərinə ilkinlik baxımından həmişə xüsusi dəyər verilmişdir. Çünki maddi mədəniyyətdə onu formalaşdıran mənəvi başlanğıc var, çünki burada insanın ideyasının, biliyinin, [87, s.488] məqsədinin ifadəsi olduğu üçün onu mədəniyyət adlandırırlar. Mənəvi mədəniyyət məhsulları da çox vaxt maddi forma kəsb edir. Başqa sözlə, mədəniyyət ünsürü cismanidirsə – o maddi mədəniyyət, əgər o ideyalar, obrazlar, nəzəriyyələr və b. formada mövcud olursa – o halda o mənəvi mədəniyyət hesab edilir.

Ziya Göyalpa görə, bir cəmiyyətin bütün fərdlərini bir-birinə bağlayan, yəni aralarında anlaşma yaradan vəsilə kültür (mədəniyyət) müəssisələridir. Bunların toplamı isə o cəmiyyətin mədəniyyətini təşkil edir. Bir cəmiyyətin üst təbəqəsini başqa cəmiyyətlərin üst təbəqələrinə bağlayan mədəni müəssisələrdir. Bunlar mədəniyyəti meydana gətirir. Mədəniyyətin həqiqi ünsürləri

dəqiq elmlər və texnologiyaların inkişaf etdirilməsidir [36].

Mehmet Kaplan və Mümtaz Turhan kmi mütəxəssislər bu fikirdədirlər ki, kültür yeni kəşf edilən bir xəzinədir. Xəzinə sərvət, zənginlik, birlik demək-dir... kültür deyəndə qarşımıza bir yığın hadisə çıxar. Bir cəmiyyətdə təbii hadisələr xaricində insan əlindən və dilindən çıxan nə varsa hər şey kültür anlamına daxil ola bilər [108, s.9-13].

Mədəniyyət insanların dünyanın mənimsəməyə yö-nəlmiş yaradıcı fəaliyyətidir, bu prosesdə maddi və mənəvi dəyərlər yaradılır və istehlak olunur, insanın mədəni fəaliyyət subyekti kimi formalaşması prosesi baş verir [119]. Cəmiyyətdə insanlar tərəfindən yaradılan maddi sərvətlər mədəniyyətin mövcudluğunun yalnız xarici görünüşüdür. Onun əsl məzmunu isə insanın özünün inkişafındadır. Maddi mədəniyyət insanın praktiki cəhətdən təbiəti mənimsəmək səviyyəsinin göstəricisidir. Mənəvi mədəniyyətə isə elm və onun nailiyyətlərinin istehsala və məişətə tətbiq edilməsi dərəcəsi, təhsilin səviyyəsi və keyfiyyəti, maarifin vəziyyəti, tibbi xidmət, incəsənət, əxlaq normaları, insanların davranışı, onların tələbat və maraqlarının inkişaf səviyyəsi daxildir. Mədəniyyətin sabit tərəfi mədəni ənənələrdir. Mədəni ənənələrin diapazonu nə qədər zəngin və genişdirsə, bütövlükdə bəşəriyyətin mə-nəvi həyatı da o qədər zəngindir [87, s.497].

Mədəniyyət cəmiyyətdə çox mühüm funksiyaları yerinə yetirir. Onlardan aşağıdakılar xüsusi qeyd olunmalıdır:

1) Yaradıcı funksiya, bu o deməkdir ki, mədəniyyət insanların yaradıcı fəaliyyəti prosesində aşkara çıxır və onların təbiət üzərində hökmranlığının və öz aralarındakı münasibətlərinin göstəricisidir.

2) Ünsiyyət funksiyası onu göstərir ki, müəyyən ümumi əhəmiyyətli ünsiyyət vasitələri, təcrübəni və bilikləri ötürən vasitələr olmasaydı, insanların vahid cəmiyyətdə yaşamaları qeyri-mümkün olardı.

3) İdraki-evristik funksiya bundan təzahür edir ki, mədəniyyət dünyanın ümumi mənzərəsini verməklə məhdudlaşmır, o, həm də idrakın daha yaxşı effektiv formalarını axtarıb tapmağa kömək edir.

4) Nəhayət, mədəniyyət qiymətverici funksiya yerinə yetirir. Yəni onun köməyi ilə dünyanın dərki estetik, siyasi və əxlaqi normalarla əlaqəli şəkildə götürülür [119].

Beləliklə, mədəniyyət ictimai varlıq olan insan fəaliyyətinin subyektiv – şəxsi tərəfinin inkişafında, cəmiyyətin sosial təşkilinin üsulları və normaların yerinə yetirilməsində xüsusi əhəmiyyət kəsb edir. Mədəniyyət həm də bütövlükdə həyat fəaliyyəti proseslərinin tənzimlənməsində, bəşəriyyətin malik olduğu təcrübə və biliklərin, insan fəaliyyətinin digər maddiləşmiş nəticələrinin yayılmasında böyük rol oynayır. Göstərilməlidir ki,

bədii, elmi, texniki, sosial yaradıcılıq tarixi prosesə güclü təsir göstərən, onu zənginləşdirən amillər kimi çıxış edir. Bu müddəa mədəniyyətə və insan fəaliyyətinin digər maddiləşmiş nəticələrinə, habelə hələ sosial gerçəklikdə öz praktiki təcəssümünü tapmayan, gələcəkdə həllini gözləyən yeni ideyalara aiddir [119].

Mədəniyyətin inkişafı mürəkkəb və ziddiyyətli proses olub, təkcə ümumsosioloji qanunlar üzrə deyil, həm də spesifik qanunlar üzrə baş verir. Mədəniyyətin inkişafı varisliyə, köhnə mədəni irsin dialektik inkarına əsaslanır. Lakin bu proses müəyyən nisbi müstəqilliyə və spesifik qanunlara malikdir. Bəşər tarixində mədəni tərəqqinin mahiyyətini açmaq üçün bu qanunauyğunluqları öyrənmək lazımdır. Hər bir dövrdə mədəniyyətin inkişafı daxili və xarici səbəblər, amillərlə şərtlənir. Odur ki, konkret tarixi mərhələdə götürülən mədəniyyət həmin dövrdəki iqtisadi, texniki, siyasi, sosial və mədəni-mənəvi amillərin güclü təsiri altında formalaşır və inkişaf edir.

Mədəniyyətin həm tərəqqisi, həm də tənəzzülü mövcud tarixi şəraitdəki obyektiv və subyektiv dəyişikliklərlə müəyyən olunur. Lakin, onların mədəniyyətə təsiri bilavasitə deyil, nəticə etibarilə, bir sırf əlaqələndirici vasitələrdən keçərək baş verir. Məsələ bundadır ki, mədəniyyəti məhz insan yaradır. Bu prosesdə o, həm də subyekt kimi öz yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir. Bu yaradıcılıq prosesi insanın öz daxili motivləri

üzrə baş verir. Lakin bu proses bütövlükdə ictimai münasibətlər şəraitində həyata keçirilir və ictimai tələbatı ödəməyə yönəlir [119].

Odur ki, həmin amillər maddi münasibətlərin mədəniyyətə təsir mexanizmini ifadə edir. Həm də göstərilməlidir ki, mədəniyyətin müxtəlif tərəflərinin ictimai həyat hadisələri ilə əlaqəsi eyni deyildir. Belə ki, əgər mədəniyyətin təbiət, texniki, iqtisadi elmlər kimi ünsürləri iqtisadi həyatla bağlıdırsa, onun fəlsəfə, əxlaq, incəsənət kimi ünsürlərinə münasibətdə bu əlaqə birbaşa olmayıb dolayı xarakter daşıyır. Buna görə də mədəniyyətin inkişafı prosesi qeyri-bərabər və ziddiyyətli şəkildə baş verir. Məsələn, müəyyən dövrlərdə bu və ya digər ölkədə ola bilər ki, texnika yüksək dərəcədə inkişaf etsin, ancaq əxlaq və bədii mədəniyyət isə tənəzzül keçirsin. Digər tərəfdən isə iqtisadi cəhətdən geridə qalmış ölkələrdə bəzən incəsənətin çiçəklənməsi özünü göstərə bilir. Lakin bütövlükdə götürdükdə mədəniyyət də ictimai həyatın inkişafına uyğun olaraq inkişaf edir. Mədəniyyətin inkişafı iki formada baş verir. Bir tərəfdən tərbiyə prosesində insanların bacarıq və qabiliyyətləri, vərdişləri inkişaf edir, əvvəlki nəsildən keçən dəyərlər mənimsənilir və yeni dəyərlər yaradılır. Digər tərəfdən isə maddiləşmiş dəyərlər nəsildən-nəslə keçirilir [119].

Qeyd olunmalıdır ki, cəmiyyətin inkişafı gedişində insanların maddi həyat şəraiti ilə onların mədəniyyəti arasındakı əlaqələrin xarakteri dəyişərək daha mürəkkəb

şəkil alır. Cəmiyyətin iqtisadi həyatı və ictimai strukturları mədəniyyətin əsas göstəricilərinə və ümumi istiqamətinə güclü təsir edir. Bu təsir öz xarakterinə görə pozitiv və ya neqativ ola bilir. Əgər iqtisadiyyat istehsal fəaliyyəti üçün obyektiv məzmunlu bilikləri tələb edirsə, bu təsir müsbət olur. Bunun əksi olduğu halda isə iqtisadiyyatın mədəniyyətə təsiri mənfi xarakter daşıyır. Mədəni həyatda müxtəlif miflərin, ideoloji illüziyaların genişlənməsinə şərait yaradır [119].

Mədəniyyətin təşəkkülü və inkişafı ilə bağlı bir sıra nəzəriyyələr mövcuddur ki, bunların hər birinin də digər baxış tərəfdarları tərəfindən qəbul edilən və edilməyən cəhətləri vardır. Məsələn, "Təkamül nəzəriyyəsi"ndə [105, s.16] mədəniyyətin, vəhşət dövrlərindən zamanımıza qədər davamlı inkişafda olan insan kültürünün məhsulu olduğu, irəliləmənin də bəsitdən mürəkkəbə doğru düz bir xətt üzrə, bir-biri ilə tutarlı mərhələlər aşılmaq surətilə meydana gəldiyi iddia edilmişdir. Buna görə də inkişafla ayaqlaşa bilmədikləri üçün bu gün də iki min il öncəki səviyyədə qalan ibtidai qövmlərin kültüründə ilk mərhələlərin canlı izlərini görmək mümkündür. Yəni onların fəaliyyətində, adət-ənənələrində, inanc və sənətlərində qədim mədəniyyətin əsas cizgiləri hələ mövcud olmaqdadır. Təkamül nəzəriyyəsi insan ruhunun hər yerdə bir və eyni olduğu düşüncəsinə əsaslanır. Dolayısı ilə müxtəlif topluluqlar bərabər şərtlər altında eyni şeyləri vücuda gətirməyə,

bir-birinə paralel şəkildə düşünməyə və eyni mahiyyətdə kəşflər və icadlar etmək iqtidarındadırlar. Bu səbəbdən bəzən "paralelçi"lər də deyilən təkamül nəzəriyyəsi tərəfdarlarına görə hər qövmdə ayrı-ayrılıqda meydana çıxan mədəniyyətlər paralel şəkildə, özlüyündə inkişaf edir.

Təkamül nəzəriyyəsinə tənqidi yanaşan baxışlara görə isə, bir çox sahələrdə kültürəl və sosial inkişaf bir xətt halında və eyni yöndə inkişaf göstərməkdədir; zaman-zaman dəyişmələr, aravermələr diqqəti çəkəcək qədər açıqdır. Nəzəriyyənin ən zəif tərəfi isə insanlıq tarixində tək bir kültür növünün qəbul edilməsidir. Halbuki eyni kültür dünyanın hər yerində mövcud deyildir, bir çox kültürlər vardır. Aralarındakı fərqlər bilavasitə texniki alətlərdə, din, sənət, sosial dayanışma kimi sahələrdə görünür. Buna görə də "Evolution"çuların mürəkkəb kültür fakt və hadisələrini bəsitləşdirmələri doğru qəbul edilməmişdir [105, s.18].

"Yüksək kültür" nəzəriyyəsində [108, s.22] topluluqlardakı kültür və tarix ortaqlılığı əsasa alınmaqla və aralarında siyasi bağlantı ilə dil birliyi olan yerli kültürlərin, eyni zamanda "mədəniyyət" qavramını ifadə edən "Yüksək kültür"lər ortya qoyduqları irəli sürülməkdədir. Məsələn, misirlilər, çinlilər, assurlar, babillər, finikiyalılar, xaldeylər qrupu bu surətlə "kültür və tarix ortaqlığı"na söykənən tipdə mədəniyyətlər qurmuş topluluqlardır. Nəzəriyyənin başlıca təmsil-

çilərindən olan tanınmış rus panslavyanisti N.Y.Danilevski bu mədəniyyətin parçalarının bir-birinə və bütünə, bütünün də parçalarına bağlı bir "orqanizm" təşkil etdiyini, orqanizm (canlı vəziyyət) qədər sıx şəkildə bütünlük göstərdiyini söyləmiş, mədəniyyət ünsürlərinin də tamamilə oxşar orqanizm kimi doğub, böyüyüb, kamilləşib, nəhayət, öldüklərini iddia etmişdir.

Yeri gəlmişkən qeyd edək ki, Əhməd bəy Ağaoğlu da mədəniyyət çevrəsini canlı orqanizmlərlə müqayisə edərkən, onun bütövlüyünü o bitkilərə bənzədir ki, yetişmələri və inkişafı üçün bəlli şərtlərin olmasına möhtacdırlar. Başqa çevrələrdə, başqa şərtlər içində həmən solub gedərlər [93]. Onun gəldiyi qənaətə görə "Bir mədəniyyət zümrəsi bölünməz bir bütündür. Parçalana bilməz. Qalibiyyət və üstünlüyü qazanan onun bütünlüyüdür" [101, s.11]. Ümumiyyətlə, Azərbaycan kulturoloji fikrini çoxsaylı əsərləri ilə zənginləşdirən Əhməd Ağaoğlu yaradıcılığında mədəniyyət ən geniş aspektlərdən şərh edilir. Belə ki, o, mədəniyyəti daha geniş, bütün tərifləri içinə alan və bu kəlməyə ən geniş mənanı verən "həyat tərzi" kimi qəbul edərək "Üç mədəniyyət" əsərində yazır: "Mədəniyyət demək – həyat tərzi deməkdir". Bir şərtlə ki, burada həyat qavramının özü ən geniş və hərtərəfli bir məna daşımalı, həyatın bütün sahə və tərəflərini, maddi və mənəvi hadisələrini özündə ehtiva etməlidir. Belə olan halda mədəniyyət düşüncə və axtarış tərzindən başlayaraq, geyim şəklinə

qədər həyatın bütün təzahürlərini, hadisələrini əhatə etmiş olur [91, s.17; 101 s.3].

"Yüksək kültür" nəzəriyyəsində, müəyyən topluluqlar arasındakı tarixi ortaqlığı və kültür birliyi (və ya bənzərliyi) halının mədəniyyətlərin xarakterini əks etdirməsi qənaəti mühüm yer tutur. Bu səbəbdən, məsələn, qədim yunan mədəniyyətinin estetik, hind mədəniyyətinin dini, qərb mədəniyyətinin mexaniki-texniki keyfiyyət daşıdığı iddia edilmişdir. Buna görə də, mədəniyyətlə sosial sistem adətən ayrılmaz bir cütlük kimi düşünülməkdə, başqa sözlə, hər mədəniyyət bir sosio-kültürəl bütün sayılmaqdadır [105]. Yeri gəlmişkən, qeyd edək ki, M.Ə.Rəsulzadənin "Türk kültür birliyi" adlı məqaləsində də bu yanaşmaya dair maraqlı qənaətlər yer almışdır [107].

Mədəniyyətin mahiyyəti məsələsində əldə edilən yuxarıdakı nəticələrə ən yaxşı şəkildə P.A.Sorokin tərəfindən aydınlıq gətirilmişdir. "Ana kültür qəlibi" nəzəriyyəsini irəli sürmüş P.A.Sorokin "Yüksək kültür" və ya "Qapalı mədəniyyət" nəzəriyyəsini şiddətlə tənqid etmişdir. Olduqca çətin anlaşılması və bəzi etirazlarla qarşılanması ilə yanaşı Sorokin kültür anlayışının və mədəniyyət hadisəsinin təhlilində tarixi-sosial gerçəklərə dair maraqlı nəticələrə gəlmişdir [105, s.23-24].

Mədəniyyətlər və ya mədəniyyət meydana gətirən kültür dəyərləri nəyə görə, necə və nə kimi şərtlər altında və hansı topluluqlarda doğmaqdadır? Bəzi kül-

türlər maddi-mənəvi sahələrdə çeşidli kültür vasitə və davranışları ortaya qoya bildikləri halda, bir sıra sosial qruplar belə bir varlıq göstərməkdə çətinlik çəkirlər. Nədən? Kültür tarixçiləri üçün həlli müşkül başlıca məsələlərdən biri bu olmuşdur. Sorğunu cavablandırmağa çalışanlar arasında Diffusionçularda gördüyümüz kimi, məsələni coğrafi-iqtisadi şərtlərə bağlayanlar olduğu kimi, metafizikaya müraciət edənlər və ya həqiqətən şəxsiyyət psixologiyasını hərəkət nöqtəsi hesab edənlər də vardır [105, s.25].

Tarixən mədəniyyətin insan varlığının heç nə ilə müqayisə olunmayan invariant təməli olduğunu tək-tək dahilərin deyil, əksər dünya dövlətlərinin dərk etməsi üçün zaman-zaman yaradılmış bütün maddi və mənəvi sərvətlərin məcmusu, məhz mədəniyyətin ən ali nümunələri məhv edilib, dağıdılıb, yandırılıb. Hər dəfə də yenidən yaratmaq əzminə rəğmən yenidən məhv etmək kimi paradoksal mövqelər savaşıb [3, s.10-11]. Ona görə də bu gün mədəni dünya bu qənaətdədir ki, hər hansı bir mədəniyyət və ya sivilizasiyanın digərindən üstünlüyündən bəhs edilməsi qeyri-ciddi, qeyri-elmi mövqedir. Hər bir mədəniyyət öz-özlüyündə dəyərlidir, sadəcə, bu, fərqli, başqa mədəniyyətdir [3, s.120]. Bu mənada müasir kulturoloji araşdırmalar ötən dövrlərdəki tədqiqatlardan fərqli olaraq, mədəni birlik, dəyişmə və müxtəliflik barədə son dərəcə yeni baxışlar irəli sürür. Kulturologiya müxtəlif mədəni sərvətlərə, kulturoloji

mətnlərə və mədəni fəaliyyətin tədqiqi metodlarına xüsusi diqqət yetirir [86, s.23]. Heç də təsadüfi deyildir ki, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş Konfransı (3-21 oktyabr 2005-ci il tarixində Paris şəhərində keçirilən 33-cü sessiyasında) mədəni müxtəlifliyin bəşəriyyətin fərqləndirici xüsusiyyəti olduğunu təsdiqləyərək; mədəni müxtəlifliyin bəşəriyyətin ümumi irsini formalaşdırdığını və hamının rifahı üçün onun qədrini bilməli və qoruyub saxlamalı olduğumuzu dərk edərək; mədəniyyətin zaman və məkan dəyişdikcə müxtəlif formalar aldığını və bu müxtəlifliyin bəşəriyyəti təşkil edən xalqların və cəmiyyətlərin mədəni özünüifadə tərzlərinin və özünəməxsusluqlarının unikallığında və müxtəlifliyində öz əksini tapdığını nəzərə alaraq; qeyri-maddi və maddi sərvətlərin mənbəyi kimi ənənəvi elmlərin, xüsusilə də yerli xalqların bilik sistemlərinin və onların davamlı inkişafa müsbət töhfəsinin vacibliyini, həmçinin onların lazımi qaydada qorunmasının və təşviqinin zəruri olduğunu bilərək; dil müxtəlifliyinin mədəni müxtəlifliyin fundamental elementi olduğunu xatırladaraq və mədəni özünüifadənin qorunması və təşviq edilməsində təhsilin fundamental rolunu təsdiqləyərək, 2005-ci il oktyabrın 20-də "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" Konvensiyanı qəbul etmişdir (25).

Keçmişə münasibətdə düzgün mövqe tutmaq üçün "sivilizasiyanın mənəvi irsi" anlayışına daxil olanların qeyd-şərtsiz dəyərinin əsaslarını müəyyən etmək lazımdır. Burada əsas məsələ sivilizasiyanın topladığı sərvətlərə münasibətdə şüurlu mövqe tutmaqdır. İrs barədə yalnız o yerdə danışmaq olar ki, orada həmin irsi başa düşsünlər, tarixi yaradanlara rəğbət və hörmət bəsləsinlər. Varlıq barədə təsəvvür yaradan və təkcə bunun hesabına müxtəlif dövrlərdə yaşamış insanları əlaqələndirən aktın xarakteri vacibdir. Bu, konkret həyati nümunələr əsasında qaynaqların, abidələrin, dünya incəsənət incilərinin emosional təsirində özünü göstərir. Mədəni irsə münasibətdə şüurlu varislik cəmiyyətin mənəvi zənginləşməsinin rəhnidir. Mədəni varislik ziddiyyətli prosesdir. Varislik prosesində miras kimi mənimsənilmiş dəyərlər nəinki dirçəldilir, həm də inkişaf etdirilir, təkmilləşdirilir, yeni nəsillərin mədəni simasına uyğunlaşdırılır. Mədəniyyəti insan fəaliyyətindən ayırmaq olmaz. İnsan mədəniyyəti yaratmaqla həm də özünü yaradır; mədəniyyət insanı yaratmaqla həm də özünü yaradır [63, s.27].

Dünyanın, o cümlədən Azərbaycanın görkəmli fikir sahiblərinin ümumi qənaəti budur ki, bəşər mədəniyyətinin yaranması və inkişafında bütün xalqların öz payı vardır. Məsələn, mühacir Azərbaycan ziyalılarının kulturoloji qənaətlərinə diqqət yetirən M.B.Məhəmmədzadə yazır ki, bəşər mədəniyyəti milli mədəniyyətlərin

məcmusundan ibarətdir [91, s.16; 75, s.61]. Milli diriliyi bütünlüklə mədəniyyətə bağlayan M.Ə.Rəsulzadəyə görə isə: "Mədəniyyəti-bəşəriyyə millətlərin zəhmətlərindən hasil olan bir yekundur. Hər millət öz iqtidar və öz istiqlalı sayəsində, yəni öz diriliyi ilə özünə xüsusi, xüsusi olduğu qədər də qiymətli bəzi şeylər əlavə edir ki, bir millətin ölməsi və yaxud ölgün fikirlərlə yaşaması yalnız özünün bədbəxtliyini deyil, bəşəriyyətin də böyük bir nöqsanını təşkil edir" [91, s.16-17; 85, s.462].

Xalqımızın mədəni irsinə bu kontekstdən yanaşdıqda, xüsusilə belə bir məqama diqqət yetirilməlidir ki, Azərbaycan bəşər mədəniyyətinin və dünya sivilizasiyasının ilkin məskənlərindən biridir. Azərbaycan xalqı öz kökləri ilə bəşəri düşüncə və yaradıcı həyat fəaliyyətinin minillik dərinliklərinə, ilkin sivilizasiya epoxasından qabaqkı arxaik dövrə gedən zəngin maddi və mənəvi mədəniyyət yaratmışdır [71, s.336]. Bu ərazidə hələ iki milyon il bundan əvvəl insanın yaşaması uçun əlverişli şərait olmuşdur. Azərbaycan xalqı da bu yerdə bərqərar olmuş, özünün təsərrüfat həyatını, maddi-mənəvi mədəniyyətini yaradaraq dünyanın ən qədim və mədəni xalqlarından biri kimi tanınmışdır.

Hər bir xalq üçün öz ölkəsinin tarixi, keçdiyi inkişaf yolu, mədəniyyəti maraqlıdır. Çünki keçmiş nəsillərin nailiyyətlərini bilmədən yenilərini yaratmaq çətindir. Əsrlər boyu nəsillərin öz təcrübələrini bir-birinə

ötürmələri nəticəsində müxtəlif sahələrdə müvəffəqiyyətlər qazanılmışdır. Bu vəziyyət insan cəmiyyətinin bütün dövrlərində qanunauyğun şəkildə davam etmişdir. Maddi mədəniyyət abidələrinin qalıqları əsasında o dövrün müxtəlif sahələri haqqında fikir söyləmək mümkündür. Hər bir daş alət, saxsı, dəmir, tunc əşya qalıqları ətrafında alimlərin apardıqları elmi araşdırma və mübahisələri məsələlərə aydınlıq gətirməyə qadirdir [74, s.136]. Bu vaxta kimi aparılmış araşdırmalar sübut edir ki, Azərbaycan xalqının sosial mədəniyyəti çoxəsrlik tarixə malikdir. Onda, hələ qədim dövrlərdən demokratik mədəniyyətin elementləri, təbiət və cəmiyyətin dəyişdirilməsinə, insanın özünü təkmilləşdirməsinə istiqamətlənmə təzahür olunur. Tərəqqipərvər təfəkkür və Azərbaycan mədəniyyətinin tərəqqipərvər tendensiyaları zərdüştlük, məzdəkilik, hürufilik, Azərbaycan intibahı və maarifində müxtəlif forma və səviyyələrdə əks olunurdu [71, s.337].

Bu gün mədəni dünya tərəfindən milli mədəniyyətlərə xüsusi diqqət yetirilməsi heç də təsadüfi deyildir. Çünki müasir dövrün ən mühüm problemlərindən biri milli şüur və milli özünüdərketmədir. Milli olan canlıdır, həyatidir, ideyaların və həyatın sintezidir. Özü də "həll edilmə" elementi ilə olan sintezdir. Bu isə milli mövcudluğa yüksək gərginlik və böyük enerji potensialı verir [3, s.397]. Bu baxımdan folklor, dil, ədəbiyyat, sənət və mədəniyyət sahəsində fundamental elmin stra-

teji məqsədi Azərbaycan xalqının mənəvi irsini dünya mədəniyyətinin inkişafı kontekstində təqdim etmək, Azərbaycan cəmiyyətinin yaranmasının etnik və milli proseslərini müəyyən etməkdir [59, s.35-36]. Lakin tarixi-milli mənsubluq və mənşə məsələsinin qoyuluşunda və həllində mübahisəli, əyintili məqamlar özünü təkcə lokal milli hüdudlarda göstərmir. Qərb-Şərq ünvanlı və sintez təbiətli tarixi dəyərlərlə bağlı etnik problemə münasibətdə etnik diskriminasiyaya hələ də ən müxtəlif miqyaslarda yol verilir. Xüsusən, "türk" etnonimi və türk kültürü ilə bağlı axtarış, ehtimal və hipotezlərdə sağa və sola neqativ meyllər həm yerli, həm də əcnəbi medievistikada bir-biri ilə qəribə həmahənglik təşkil edir [59, s.48].

Təbii ki, belə bir qərəzli münasibətin bir sıra tarixi, siyasi və ideoloji səbəbləri vardır. Məsələn, son iki yüzillik Azərbaycan tarixinə diqqət yetirsək, o zaman bir sıra mətləblərə aydınlıq gələr. Çar Rusiyası ilə İran arasında gedən müharibənin nəticəsi olaraq bağlanmış Türkmənçay müqaviləsinin (1828) şərtlərinə görə Araz çayı boyunca iki hissəyə bölünən Azərbaycan iki müxtəlif mədəniyyətin daşıyıcısı olan Rusiya və İran dövlətlərinin müstəmləkəsinə çevrildi. Bununla da xalqımız iki yüz il ərzində ümumtürk mədəni əlaqələrindən ayrı yaşamağa məcbur oldu. Bu, o demək idi ki, dil, adət-ənənə, sosial həyat və yaşam tərzində dəyişikliklər ortaya çıxırdı. Rusiya imperiyası öz donunu dəyişərək

Qırmızı imperiyaya çevrildikdən sonra Azərbaycanın şimalı ilə cənubu arasında əlaqələr tamamilə kəsildi. Sovet Azərbaycanında xalqın mədəniyyətinə, milli adət-ənənələrə ümumsovet qanunları ilə yanaşı yeni əxlaq, mədəniyyət, Sovet İttifaqı xalqlarına məxsus ümumsovet əxlaq kodeksi əlavə olundu. Yeni insan – sovet insanı yetişdirilməyə başlanıldı. Ayrı-ayrı millətlərin tarixi, məişət tərzi, mədəniyyəti, sənətə münasibəti və milli təfəkkürün inkişafında ayrı-seçkilik siyasəti yeridildi. Milli mədəniyyətlərin tədqiq edilməsi sahəsində məhdudiyyətlər tətbiq edildi. Bu əngəllər özünü türk dili, folkloru, ədəbiyyatı sahəsində xüsusilə büruzə verdi.

Azərbaycanda kulturoloji irsin tədqiqi problemlərindən bəhs edərkən deməliyik ki, ümumiyyətlə SSRİ dövründə kulturologiya ayrılıqda bir elm sahəsi kimi ya heç öyrənilmir, ya da ona əhəmiyyət verilmirdi. Yalnız müstəqillik qazandıqdan sonra bu sahəyə maraq artmağa başladı. Xalqın milli-mənəvi dəyərlərinin cəmi olan kültürün əsas aparıcı sahələrində obyektiv tədqiqatlara start verildi. Milli-mədəni özünəməxsusluğun ifadəsi olan kültür (milli mədəniyyət) özündə əsasən aşağıdakıları ehtiva edir: dil, din, adət və ənənə, sənət, dünyagörüşü, tarix və s.

Dil – mədəniyyətin inkişafının əsas amillərindən və şərtlərindən biridir. Çünki dil olmadan digər şərtlərin yaranmasından, inkişafından söhbət belə gedə bilməz. Dil millətlərin söz dünyasıdır. Dil millətlərin düşüncəsi-

ni ifadə edir, dünyaya baxışını formalaşdırır, mədəniyyətin, adət-ənənələrin yaranmasına və inkişaf etdirilməsinə xidmət göstərir. Dil bir millətin ağlının, düşüncəsinin, yaradıcılığının, məntiqinin aynasıdır. Bir sözlə, dil mədəniyyət xəzinəsidir.

Din – mədəniyyətin inkişafında, formalaşıb möhkəmlənməsində önəmli yer tutur. Qədim dövrlərdən üzü bəri əsrlərlə dini mədəniyyətlər özlərindən əvvəlki mədəniyyətləri üstələmişlər. Dinin millətlər üzərindəki hakimiyyəti imperiyalardan milli hakimiyyətlərədək davam etmişdir. Bundan sonra dinin funksiyası azalmağa başlamışdır. Dinin milli mədəniyyətə təsiri və mədəniyyətin digər sahələrinin yaranması və yenilənməsində rolu danılmazdır. İslam dininin gətirdiyi adət-ənənələr, dini bayramlar və mərasimlər bu gün də davam etməkdədir.

Adət və ənənələr – hər bir millətin vətəndaşlıq pasportudur. Adət-ənənələr millətlərin yazılı və ya şifahi qanunlarıdır. Qanunların demək olar əksəriyyəti adət-ənənələr əsasında yazılıb. Qanunlar insanın cəmiyyətdə hərəkətini tənzimləyir. İnsanlar isə öz aralarındakı münasibətləri əsrlər boyu adət-ənənələrə uyğun qurmuşlar. Müasir dövrdə hələ də adət-ənənə ilə idarə olunan ölkələr mövcuddur. Əslində, insanı qanunlar çərçivəsinə salmaq mümkün deyil. Çünki qanunlar haqları və cəzaları təyin edir, həyatda isə cəmiyyət arasında bir çox sosial əlaqələr var. Bunlara aşağıdakıları misal gətirmək

olar: salamlaşmaq, üzr istəmək, sayğı göstərmək, söhbətləşmək, mübahisə etmək, küsüb-barışmaq və s. Bu davranış qaydaları ancaq adət-ənənələrə söykənir.

Sənət – millətlər həm də öz sənətləri, yaradıcılıq məhsulları ilə, duyğu və zövqləri ilə bir-birlərindən fərqlənir. Bunlar millətin gözəlliyi görmə və duyub yaratmaq imkanlarına bağlıdır. İnsanlar yaşamağa, sosial və mənəvi ehtiyaclarını ödəməyə çalışırlar. Hər bir insan bunları edərkən müəyyən axtarışlarda olur, özü üçün yaxşı nə varsa onu əldə etməyə səy göstərir. Bunun nəticəsində də ən yaxşısını, ən gözəlini seçib ortaya çıxarır. Buna isə yaradıcılıq deyilir. Hər millətin yaradıcılığı ayrı bir özəllik təşkil edir. Söz, səs, məkan, rəng, işıq, zövq və s. anlayışlar mövcuddur. Mədəniyyətin bu sahəsinə ədəbiyyat, rəsm, memarlıq, heykəltaraşlıq, teatr, ifaçılıq və s. aiddir.

Dünyagörüşü – bir millətin digər millətlərdən fərqli olan həyat fəlsəfəsidir. Hər bir millətin fərdləri arasında ortaq mədəniyyət olduğu üçün onlar bilik, qabiliyyət, zehni yaradıcılıq baxımından da müəyyən oxşarlıqlara malikdirlər. Sosial və mənəvi yaradıcılıq nəticəsində fərdlərin ümumiləşdirilmiş hərəkət və davranışları o millətin dünyagörüşünü meydana gətirir. Bunun üçün hər bir millətdə dəyər və dəyər qaydaları fərqlidir. Qəhrəmanlıq, eşq, namus, təmizlik, əxlaq, əyləncə, toy, yas və s. kimi həyat hadisələri və mənəvi anlayışlar hər millətdə dəyişik qaydalara malikdir.

Tarix – milli mədəniyyəti meydana gətirən ən mühüm şərtlərdən biridir. Tarix millətin dünya yarandığı gündən indiyədək yaşamı deməkdir. Tarix dünənin və bu günümüzün insanını bir-birinə bağlayaraq gələcəyə aparır. Millətlər, onların mədəniyyətləri də məhz tarixi proseslər nəticəsində formalaşmışdır. Tarix bir millətin haradan gəlib haraya getdiyini göstərən bir fenomen kimi millətin həyatında mühüm yer tutur.

Ümumiyyətlə, cəmiyyətdə din, dil, incəsənət, tarix və bütövlükdə sosial elmlərin öyrənilməsi kulturologiyanın da tədqiqat predmetinə daxildir. YUNESKO-nun qəbul etdiyi tərifə görə "mədəniyyət insan cəmiyyətinin özünün tarixi inkişafına sahib olduğu əqli şüurudur" (25; 117). Yuxarıda qeyd olunanlardan belə bir qənaətə gəlmək olar ki, xalqları, millətləri meydana gətirən fərdlər arasındakı əlaqələr və təbiətə hakim olmaq imkanları tarix boyu mədəniyyətin inkişafı ilə bağlıdır və hər bir millət öz maddi-mənəvi dəyərlərinə xas mədəniyyətə malikdir. Bu dəyərlərin, o cümlədən folklorun və dilin tarixi-kulturoloji aspektdən tədqiqi həm milli mədəniyyət tarixinin öyrənilməsi, həm də kulturoloji fikrin bu əsaslarda inkişafının təminatı baxımından əhəmiyyətlidir.

MİLLİ-MƏDƏNİ VARLIĞIN MÜHAFİZƏSİNDƏ DİL AMİLİ

Dilin kulturoloji mahiyyəti

Elmi ədəbiyyatda dilin özünəməxsus cəhətləri ümumi şəkildə belə səciyyələndirilir ki, dil ictimai hadisədir, onun yaranmasında və formalaşmasında bioloji amillər mühüm rol oynasa da, dominantlığı ictimai faktorlar təşkil etmişdir. Cəmiyyətin məhsulu olan dil sinfi, bazis və ya üstqurum hadisəsi deyil, tarixi kateqoriyadır, kültürün mühüm daşıyıcısı və formasıdır. Dil bioloji, irsi, irqi, psixoloji hadisə olmayıb, ünsiyyət vasitəsidir və yalnız insana məxsusdur. Təfəkkürlə vəhdətdə olan dil, fikrin ifadəsi kimi nitq vasitəsilə özünü reallaşdırır. Dil cəmiyyətlə birlikdə inkişaf edir, dilin xidmət etdiyi cəmiyyət öldükdə dil də ölür. Dil, kültürün bütün ünsürləri ilə birlikdə və vəhdətdə götürüldükdə mədəniyyət fenomenidir.

Bir sözlə, müxtəlif sahə mütəxəssislərinin dilə münasibətində ümumi və fərqli cəhətlər vardır. Məsələn, sosioloqlara görə, dil insan həyatının elə bir sahəsidir ki, bu fenomensiz nəinki insanın fəaliyyətini, hətta bir ictimai, sosioloji varlıq kimi insanın özünün varlığını, mövcudluğunu təsəvvür etmək mümkün deyil. Çünki belə olmuş olsaydı, onda dilsiz insan ictimai varlıq kimi

mövcudiyyətini itirib, ictimai funksiyasından məhrum olub bioloji varlığa çevrilərdi [93].

Digər tərəfdən də dil tarixi kateqoriya olduğundan, yalnız bəşər tarixinin çərçivəsində inkişaf edir; bu çərçivədən kənarda nəinki dilin inkişafından, hətta onun mövcudluğundan belə söhbət gedə bilməz. Dil inkişafda olan dinamik sabitlikdir, lakin bu sabitliyi sükunət vəziyyəti kimi deyil, ünsiyyətə xidmət edən, daima işlənən dilin inkişafı kimi başa düşmək lazımdır. Dili həm fəaliyyət, həm də bu fəaliyyətin məhsulu hesab edən V.Humboldtun fikrincə, dilin daimi keyfiyyəti olan dəyişkənlik, tarixi inkişaf, dinamizm onun mahiyyətini təşkil edir. "Dil sabit olanla dəyişkən olanın, statik olanla dinamik olanın vəhdətindən ibarətdir" (84, s.127-128). İctimai hadisə olan dilin vəziyyəti xalqın ümumi mədəni səviyyəsindən, təfəkkür tərzindən asılıdır. Bu mənada dil prosesləri bir sıra dillər üçün ümumidir. Çünki bütün xalqlar üçün cəmiyyətin, təfəkkürün və mədəniyyətin inkişaf qanunauyğunluqları xeyli dərəcədə ümumidir [93].

Dil yaddaşın, xatirələrin, duyğuların və düşüncələrin, bütün maddi və mənəvi dəyərlərin, dünyagörüşü və yaradıcılığın ümumi bir xəzinəsidir. Dil insan cəmiyyətinin ən önəmli sosial varlığıdır. Mədəniyyətin əsas şərtlərindən biri və birincisidir. Bir millətin mədəniyyəti ayrı-ayrı fərdlərin duyğu və düşüncələrini dil vasitəsi ilə bölüşməsi nəticəsində meydana gələ bilir. Bir xalqın ta-

rixi, folkloru, musiqisi, ədəbiyyatı, elmi və fəlsəfəsinin təşəkkülü və inkişafında, ümumiyyətlə isə bir millət kimi formalaşmasında dil amili əhəmiyyətli rol oynamışdır. Bir çox dəyərlər, məhz əsrlərin süzgəcindən süzülə-süzülə kəlmələrdə, cümlələrdə, deyimlərdə möhkəmlənərək, dil xəzinəsində qorunaraq günümüzə qədər çatdırılmaqla gələcək nəsillərə ötürülür. Deməli, mədəniyyətin bütün sahələrinin yaranmasında dil əsas və vacib şərtdir. Dil sosial varlıq olaraq milləti formalaşdırır, onun mədəniyyətini yönləndirir. Dillə söylənilənləri yazı, digər sənət əsərləri vasitəsi ilə qoruyub saxlamaq, nəsildən-nəslə ötürmək daha önəmlidir. Çünki yazı sayəsində duyğu və düşüncələr həm zaman, həm də məkan etibarı ilə daha geniş yayılır. Nümunə olaraq Orxan-Yenisey yazılı abidələrini göstərə bilərik. Min iki yüz il bundan əvvəl Göytürklərin varlığı, hekayətləri, duyğu və düşüncələri haqqında məlumat ala bilirik. Yüz illər boyunca formalaşan yazılı ədəbiyyatımız sayəsində dilimiz də inkişaf edərək mədəniyyətimizin yüksəldilməsinə öz töhfəsini verməkdədir. Şifahi xalq ədəbiyyatımızın zənginliyi yazılı ədəbiyyatımızın, mədəniyyətimizin inkişafında mühüm yer tutur. Şifahi ədəbiyyatımız beşikdən başlayaraq həyatımızın bütün sahələrində öz izini, təsirini göstərir.

Ümumiyyətlə, bir millətin ruhi oyanışı öncə onun bədii-mədəni yaradıcılıq məhsullarında öz əksini tapır. Bu baxımdan ədəbiyyatın rolu çox böyükdür. Millətin

idealları, ağrıları, sevinci estetik biçimdə ədəbiyyatda özünü göstərir və milli dildə ədəbiyyata, özəlliklə yazılı ədəbiyyata girməsi ilə böyük əhəmiyyət kəsb edir. Ədəbiyyatı olmayan toplumlar millət ola bilməz. Millətin gerçək tarixi müəyyən mənada həm də onun bədii yaradıcılığında əks olunur. Çünki siyasi quruluşlar dəyişib, hətta yox ola bilir. Necə ki, tarixdə onlarca türk dövləti qurulub yox olub. Başqa millətlərdə də belədir. Yəni nəsillərarası hissi və düşüncə münasibətləri əsasən ədəbiyyat vasitəsilə nəsildən-nəslə ötürülür. Biz keçən əsrlərin ədəbiyyatını, Axundovu, Cavidi, Cabbarlını, Ordubadini, Üzeyir bəyi, Səməd Vurğunu oxuduğumuzda onların ağıllarından keçən düşüncələrlə tarixi əlaqə qura bilirik. Bu üzdən də əsrlər, hətta minilliklər arası düşüncə bağlantısı ancaq ədəbiyyat yolu ilə bərqərar olur. Amma onu da demək lazımdır ki, ədəbiyyat yalnız şeir və roman deyil. Milli dildə yazılaraq tarixliləşən hər şey ədəbiyyatdır. Fəlsəfədən tutmuş, siyasi elmlər, bədii ədəbiyyat, folklor, etnoqrafiya, şeir, mif və s. [34].

Azərbaycan şifahi ədəbiyyatı eşq, həsrət, ayrılıq, ölüm, qürbət, zarafat, qəhrəmanlıq, əxlaq və s. kimi mədəniyyət sahələrini özündə əks etdirmişdir. Ədəbiyyatımızın zənginliyinin təməl daşı isə dilimizdir. İstər şifahi, istərsə də yazılı ədəbiyyatımızın yaradıcıları dil mədəniyyətindən yararlanmışlar. Xalqımızın məhək daşı olan "Kitabi-Dədə Qorqud" dastanları, böyük şairlərimiz Füzuli, Nəsimi, Səməd Vurğun, Bəxtiyar

Vahabzadə, Şəhriyar, Məmməd Araz və başqalarının əsərləri milli mədəniyyətimizin inkişafına örnək ola biləcək nümunələrdir. Dil millətlər arasında mədəni əlaqələrin qurulmasında da mühüm vasitədir. Dilimiz tarix boyu inkişaf edib və bu gün də inkişaf etməkdədir. Millətlər bir-birləri ilə müəyyən əlaqələr yaratmaqla bir-birlərindən müəyyən sözlər, kəlmələr, ifadələr əxz edirlər. Dilə qəbul edilmiş yeni sözlər mədəni inkişafla birbaşa bağlıdır. İslam dininin qəbul edilməsi, Azərbaycanın şimalının Rusiyaya birləşdirilməsi və yaxud müstəqilliyin qazanılması sayəsində dilimizə çoxlu yeni sözlər daxil olmuşdur. Hər bir alınan yeni söz yeni bir anlam daşıyır və aid olduğu millətin mədəniyyətinin izlərini özündə müəyyən qədər saxlaya bilir. Hazırda rabitə texnologiyalarının, həmçinin nəqliyyat vasitələrinin sürətli inkişafı millətlərarası mədəni əlaqələrin artmasına mühüm təsir göstərməkdədir. Nəticədə deyə bilərik ki, mədəniyyətimizin nəsildən-nəslə ötürülməsi, digər xalqlara təsiri, yaşaması və inkişafı dil sayəsində mümkün ola bilir. Dilimiz həm millətimizin, həm də mədəniyyətimizin formalaşıb inkişaf etməsində ən böyük varlıqdır.

AZƏRBAYCAN DİLİNİN DİGƏR DİLLƏR ARASINDAKI YERİ

Tarixi təcrübə belə bir fikri təsdiqləyir ki, milləti meydana gətirən ünsürlər içərisində dil və kültür birliyi ən önəmli yer tutur. Bir millətin kültürü, onun milli tarixindən qopub gələn uluların mirası və maddi varlığının, inanc və əxlaq ucalığının, dil və sənət zənginliyinin, adət-ənənələrinin yaratdığı ortaq dəyərlər toplusudur. Bir millətin var ola bilməsi, dünya millətlərinə varlığını qəbul etdirə bilməsi üçün həmin millət mədəni dəyərlərini elmi şəkildə araşdırmaq, tanıtmaq, yaradıcı şəkildə yanaşaraq inkişaf etdirmək məcburiyyətindədir [93].

Milli varlığın, milli birliyin, milli kültürün ən davamlı daşıyıcısı dildir. Dil deyərkən, ilk növbədə nəinki tərkib hissəsi olduğu kültür və mədəniyyət, həm də məhz məxsus olduğu millət göz önünə gəlir. Milliyyətin təyinində ən mühüm amil olması səbəbindəndir ki, dillə millət məfhumları çox vaxt eyni anlamda qavranılır. Bu prinsip, demək olar ki, bütün sosioloq, kulturoloq və digər fikir adamları tərəfindən mənimsənilmişdir. Dil birliyi təmin edilməyən bir cəmiyyətdə milli kimlik və milli şəxsiyyət axtarışı da mənasızdır. Bir toplumun kültürünün inkişafı baxımından dilin əhəmiyyətini danmaq və ya kiçiltmək, lazımi qiyməti əsirgəmək həqiqəti inkar etməkdən başqa bir şey deyildir. Dolayısı ilə bir millətin dilində anarxiya yaratmaq, qarışıqlıq salmaq – o millətə

qarşı işlənən cinayət deməkdir [93].

Dünya elmi fikrinin qənaətləri də təsdiqləyir ki, dil daim bir millətin təməlini təşkil edir. Bu nöqtədə dil kültür və millət məfhumları ilə birləşməkdədir. Yəni dil, kültür və millət bir bütündür ki, bir-biri ilə tamamilə qaynayıb-qarışmış, birləşmişdir. Bu tarixi, sosial və kulturoloji gerçəklik dilin dəyərini ortaya qoymaqdadır. Bu da bir reallıqdır ki, dil tarixən müxtəlif şərt və amillərin təsiri altında meydana gəlmişdir. Yəni dil cəmiyyətin mahiyyət və strukturundan doğmuş, cəmiyyətə xas olan başlıca bir kültür ünsürüdür. Hər hansı bir toplumun dilini soysuzlaşdırmaq, degenerasiya etmək – həmin toplumu bütün varlığı ilə ortadan qaldırmaq deməkdir [93].

Görkəmli rus pedaqoqu Uşinskiyə görə, "Xalqın bütün milli-mənəvi irsi dil vasitəsilə gələcək nəslə ötürülür. Bu transformasiyanın ən davamlı amili olan dil nəinki xalqın həyatiliyini özündə ifadə edir, o, eyni zamanda məhz həyatın özüdür. Ana dili məhv olarkən, xalq artıq yox olur. Çünki "uşaq ana dilini öyrənərkən yalnız şərti səsləri öyrənmir. O, eyni zamanda ana dilinin doğma döşündən mənəvi həyat və qüvvət içir" [93, s.113).

Türk dil birliyini müdafiə və təbliğ etmiş ziyalılarımız Azərbaycan dilinin tarixinin də yalnız türk dilinin tarixi ilə birgə öyrənilməsinin elmi əhəmiyyətini düzgün saymışlar [103]. Bu tezisə laqeyd yanaşanlar olmuşsa da, Yaşar Qarayev kimi alimlərimiz onların cavabını layiqincə vermişlər: "Hər kəs öz şəxsi şəcərəsini

“əsilsiz” və “zatsız”, “babasından bixəbər” elan eləyə bilər, lakin xalqı, milləti “babasından xəbərsiz” elan etməyə heç kəsin mənəvi hüququ yoxdur” [58, s.455].

Bu mənada Azərbaycan xalqının tarixi də məhz kompleks şəkildə – xalqın mədəniyyətinin, milli-mənəvi dəyərlərinin, elminin, ədəbiyyatının və nəhayət, dilinin tarixilə əlaqəli şəkildə öyrənilməlidir [93].

Gətirilən nümunələrdən də gördüyümüz kimi, mədəniyyətin çox mühüm tərkib hissəsini dil təşkil edir. Dil və mədəniyyət məsələsi zaman-zaman həm dilçilikdə, həm də fəlsəfi elmlərdə (etika, estetika, məntiq, mədəniyyətşünaslıq və s.) tədqiq olunsa da, fundamental şəkildə araşdırılmamışdır. Azərbaycanın coğrafi mövqeyi, burada qədim şəhər mədəniyyətinin mövcudluğu, hələ miladdan əvvəl Azərbaycanda Manna, Midiya dövlətlərinin yaranması, Azərbaycan torpaqları uğrunda Assuriya və Urartu dövlətləri arasında uzun surən müharibələr və s. Azərbaycanda miladdan əvvəl genetik və tipoloji cəhətdən müxtəlif dillərdə danışan tayfa və xalqların yaşaması haqqında fikir söyləməyə əsas verir. Həmin tarixi hadisələr araşdırıldıqda məlum olur ki, bu ərazidə şəhər mədəniyyətinin binası qoyulduğu zamandan Azərbaycanda çoxdillilik mövcud olmuşdur. Azərbaycan ərazisində qədimdən yaşayan müxtəlif mənşəli etnoslar (türklər, farslar, iber-qafqazlar və s.) öz dillərini, adət-ənənələrini indiyə qədər mühafizə etmələrinə baxmayaraq ölkədə aparıcı etnokulturoloji mövqe baxımından

orta əsrlərdən etibarən Azərbaycan türkləri üstünlüyə malik olmuşdur. Bu haqda bir çox azərbaycanlı müəlliflərin, o cümlədən, M.Ə.Rəsulzadənin "Azərbaycan Kültür Gələnəkləri" əsərində geniş bəhs edilməkdədir [106]. Məsələ burasındadır ki, bəzi türk etnosları Azərbaycana təxminən min beş yüz illik bir dövr ərzində tədricən gələrək buradakı yerli türk etnoslarının əhatəsində məskunlaşmışlar. Buna misal olaraq, şimal regionlarında hun-qıpcaq tayfalarının şivə və dialektlərini göstərə bilərik. Və buraya həmin regionlarda bu günə qədər mühafizə olunan bir sıra qədim hun-qırcaq antropoloji, etnoqrafik, etnopsixoloji göstəricilərini də əlavə etmək olar [74, s.154].

Ana dili ilə milli düşüncənin, ruhun, təbiətin və tərbiyənin, çörəyin, mahnının və ictimai taleyin arasında müştərək bir ağrı və əsəb siniri vardır. Bu sinir qırılanda xəstə diş kimi, dilin də əsəbi zədə alır, o, zərbəyə, ağrıya həssaslığı itirərək, yavaş-yavaş, xəlvətcə ölür [58, s.459]. Bu mənada millətçilik bir millətə mənsub olmanın şüuru və duyğusudur. Bu mənsubiyyət duyğusu və düşüncəsi özünü öncə sənət növlərində göstərər. Bu baxımdan da hər şeydən öncə milli dil çox önəm daşımağa başlar. Milliyyətçilikdə milli dil milli ruhun güzgüsü olaraq görünməyə başlayır. Dildəki yaradıcılıq milli şüurun dərinləşməsinə, genişlənməsinə səbəb olur. Millətçilik də insanı düşündürən tarixi psixologiyadır. Bütün tarixi psixologiyanın yatağı və özünü göstərdiyi

yer millətin dili, folkloru və kültürüdür. Hər milli kültür, əslində, o millətin tarixi psixologiyasının maddiləşmiş biçimidir [34]. Ona görə də eyni kültür daşıyıcısı və mənşəcə bir-birlərinə yaxın olan dillər bir ailə təşkil edir. Belə ki, dünya dilləri müxtəlif çeşidli dil ailələrinə ayrılıb. Bir dil ailəsi tarixin dərinliklərində yaranmış bir ana dildən yaranıb. Həmin millətlərin mədəniyyətlərinin bir çox sahələrində bənzərliyi bu dillərin bir-birlərinə yaxınlığına əsas verir. Dilçi alimlər aşağıdakı əsas dil ailələrini müəyyənləşdirmişlər. Hind-Avropa, Sami, Bantu, Çin-Tibet, Ural-Altay.

Ural-Altay dil qrupunda birləşən türk dilləri də tarixin keşməkeşlərindən keçərək günümüzə gəlib çatıb. Oğuz, Qıpçaq, Cığatay qolları olmaqla türk dilləri də öz-özlüyündə üç qola ayrılır. Azərbaycan dili, həmçinin Türkiyə türkcəsi oğuz qoluna aiddir. Azərbaycan dili XIV-XV əsrlərdən ümumi türkcədən ayrılaraq formalaşmağa başlamışdır. Azərbaycan dilində yazılı əsərə ilk dəfə Həsənoğlunun yaradıcılığında rast gəlirik. Sonrakı dövrlərdə dilimiz həm yazılı, həm də şifahi ədəbiyyatımız sayəsində inkişaf etdirilmişdir. Dilimizin inkişafında XIX-XX əsr yazıçı və şairlərimizin, dilçilərimizin, sənətkarlarımızın, dövlət xadimlərimizin də böyük zəhmətləri danılmazdır. Dil məsələsində dünya mütəfəkkirləri ilə eyni mövqedən çıxış edən Azərbaycan ziyalıları da bu elmi qənaətlərə tərəfdar çıxmışlar ki, dil hər bir milli mədəniyyətin canı, cövhəridir. Dil milli mədəniy-

yətin ən mühüm və davamlı daşıyıcısıdır. Dil milliyyətin təyinində başlıca amildir. Ana dili xalqın ruhudur, mənəvi dünyasıdır, psixologiyasıdır. Dilin mədəniyyətlə, xalqın davranış və yaşam tərzi ilə bağlılığını tədqiq edən dilçilik məktəblərinin demək olar ki, bütün nümayəndələri bu qənaətdədirlər ki, dil xalq ruhunun xarici təzahürüdür, mənəvi sərvətidir, elə bir güzgüdür ki, xalqın tarixi, dünyabaxışları, adət və ənənələri öz əksini həmin güzgüdə tapır [93, 192-193].

Dil və mədəniyyətin əlaqəsinə gəldikdə isə, alimlər əsasən, buna həm dilin xalqın ümumi mədəni səviyyəsindən asılılığı, həm də ayrı-ayrı dillərin struktur xüsusiyyətlərinin həmin dildə danışan xalqın mədəniyyətinin konkret formalarından asılılığı problemləri prizmasından yanaşmışlar [73]. Bu, birinci növbədə onunla izah edilir ki, ictimai hadisə olan dilin vəziyyəti xalqın ümumi mədəni səviyyəsindən, bu mədəni səviyyənin məhsulu olan təfəkkür tərzindən, təfəkkür formalarından asılıdır. Bununla bağlı dil prosesləri isə bir sıra dillər üçün ümumidir. Bütün xalqlar üçün cəmiyyətin, təfəkkürün və mədəniyyətin inkişaf qanunauyğunluqları xeyli dərəcədə ümumidir.

FOLKLORUN TOPLANMASI MƏSƏLƏLƏRİ

Folklor və etnoqrafik irs

Azərbaycan türklərinin uzun əsrlərdən bəri yaratdığı maddi və mənəvi irsi, o cümlədən yaddaşlarda yaşadıb zaman-zaman müxtəlif variantlara saldığı, yaşadıqca cilalanıb gözəlləşən və yüksək mənəvi-əxlaqi dəyərlərə malik zəngin şifahi sərvəti vardır. "Bu sərvət əski çağlardan yaranmağa başlamış, müxtəlif ictimai-siyasi formasiyalara yoldaş olmuş, ayrı-ayrı dünyagörüş və təriqətlərlə təmasda olub bu günümüzə gəlib çatmışdır" [81, s.14]. Ümumxalq yaradıcılığının məhsulu olan tarixi-mədəni irs, etnoqrafik və folklor nümunələri, dünyanın və etnosun yaranışı, təbiət hadisələrinin baş verməsi ilə bağlı təsəvvürləri əks etdirməklə ortaq türk düşüncəsinin əsasını təşkil edir. Folklor və etnoqrafik nümunələrin yayılma arealının müəyyənləşdirilməsi milli-mədəni tariximizin tədqiqi üçün mühüm əhəmiyyət daşımaqdadır. Məlum olduğu kimi etnoqrafik və mifoloji düşüncə tərzi, yüksək bəşəri ideyalar, mütərəqqi fikirlər bütün millətlərin, xalqların yazılı və şifahi ədəbiyyatında öz yerini almışdır. Amma tarixi yaddaşlarda yaşadan hissi obrazlar mükəmməl inkişaf yolu keçmiş etnoslar və xalqlar üçün xarakterikdir. Tarixin yüksələn xətlə inkişaf edən pilləsində milli düşüncə, dil, davranış və s.

xüsusiyyətlərlə xarakterizə olunan dəyərlər formalaşmış, sistemli şəkildə folklor və etnoqrafik nümunələrdə əks olunmuşdur. Bu dəyərlər isə öz növbəsində zamanın sınağıdan keçmiş, inkişaf etmişdir (42, s. 7).

Qədim və zəngin mədəniyyət tarixinə malik Azərbaycan türklərinin mədəni irsi yüksək mənəvi əxlaqi dəyərləri, etik və estetik düşüncənin ən aparıcı meyl və istiqamətlərini özündə əks etdirən yaradıcılıq sahəsidir. Türk xalqlarının tarixi cəngavərlik əxlaqı, vətənsevərliyi və torpaq məhəbbəti, ana və el sevgisi, həzin lirik duyğuları ilkin epik lövhələrdə əks olunmuşdur. İnkişafın ən erkən çağlarından başlayaraq sivil mədəniyyətə doğru tarixi yüksəlişi bu xalqın ən kiçik bədii nümunələrindən – alqışdan, inancdan, atalar sözü və məsəldən tutmuş, iri həcmli ən böyük əsərlərinə – epos, nağıl və dastanlarına qədər öz yüksək, bədii əksini tapmışdır. Uzun yüzillikləri əhatə edən bu sənət təbii ki, birdən-birə meydana gəlməmiş, zaman-zaman yaranaraq qədim türkün yaddaşına yoldaşlıq etmiş və bu günümüzə gəlib çatmışdır. Təbii ki, bu zəngin mənəvi sərvətin yaranması özü də əcdadlarımızın nitq mədəniyyətinə yiyələnməsindən sonrakı mərhələdə yaranıb pərvazlanmış, dövrün və zamanın tələbinə uyğun olaraq yeni-yeni görüş, düşüncə və əxlaq qaydaları ilə zənginləşmişdir. Heç şübhəsiz ki, türk mənşəli etnosların tarixən yaşadığı ərazi də onun tarixi fizioloji və antropoloji inkişafı, eyni

zamanda bu etnosların söz yaradıcılığının yeni təkamülü ilə əlamətdar olmuşdur [81, s.19].

Dünyanın bir çox xalqları kimi, Azərbaycan türkləri də özlərinin tarixi inkişaf mərhələlərində zəngin etnoqrafik və folklor irsi, o cümlədən ağız ədəbiyyatı yaratmışlar. Bu ədəbiyyat əcdadlarımızın erkən düşüncəsində formalaşıb sonrakı nəsillərə verilmiş, zaman-zaman işlənmələrə, cilalanmalara, tamamilə unudulub yenidən törəmə prosesinə məruz qalmışdır. Bu ədəbiyyat əcdadlarımızın dünya, həyat haqqında ilk bədii düşüncələridir. O, mənəvi-əxlaqi, etik-estetik dəyərlər məcmusudur. Uzun yüzilliklər ərzində bu dəyərlər türkün nəsillərini tərbiyə etmiş, onu cahanşümul nailiyyətlərə və qələbələrə yüksəltmiş, irəliyə aparmış, barbar mədəniyyəti xarabalıqları üzərindən cəsarətlə adlayıb sivil mədəniyyətə doğru inkişafını təmin etmişdir.

Bu mənada tarixi keçmişimizi, mənəvi dəyərlərimizi özündə yaşadan şifahi xalq yaradıcılığı ədəbiyyatımızın həmişə tədqiqə ehtiyacı olan sahələrindən biridir. Mənəvi mədəniyyətin təməl daşlarından olan şifahi xalq ədəbiyyatı yarandığı dövrdən asılı olmayaraq, müəyyən zaman və məkan daxilində baş verən hadisələrin ifadəsidir. Keçmişi və bu günü əhatə edən xalq yaradıcılığı milli mənsubiyyətin əsas göstəricisi və qaynaqlarından biridir. Uzun kamillik yolu keçmiş şifahi xalq ədəbiyyatının mənəvi irsimizin öyrənilməsində rolu əvəzsizdir. Hər bir deyim, inam və mif tariximizdə yaşanan hadisə-

nin maddi ifadəsidir. Etnoqrafik materialları və “folklor örnəklərini sistemli, ardıcıl şəkildə öyrənməklə xalqımızın tarixini, onun düşüncə tərzini, mənəvi aləmini bərpa etmək mümkündür” (42, s.7). Bu məqsədlə material toplamaları zamanı mütəxəssis müşahidələri də bunu deməyə əsas verir ki, söyləyicilərin danışdığı nağıllarda, yaxud əfsanə, ovsun və bayatılarda ifadə olunan fikir bütövlüyü min illərlə davam edən sosial və etnik-mədəni proseslərin yadigarıdır.

Görkəmli folklorşünas alim Azad Nəbiyev yazır ki, dünya xalqlarının müxtəlif dövrlərdə el ədəbiyyatı, xalq icadı, ağız ədəbiyyatı, el sözü, xalq yaradıcılığı, şifahi ədəbiyyat, xalq hikməti və s. adlandırdığı bu bədii yaradıcılığın fenomenal təbiəti əslində hələ açıqlanmamışdır. Təxminən son yüz ildə dünya elmi tərəfindən folklor adı altında öyrənilən söz sənəti təbii ki, bir çox özəllikləri ilə əlamətdardır [81, s.22].

Mütəxəssislərin qənaətinə görə, folklor şifahi şəkildə yaranan, onu yaradan xalqın mənəvi-əxlaqi bütövlüyünü və qabaqcıl dünyagörüşünü özündə əks etdirən söz sənətidir. Bu söz sənəti xalq təfəkkürünün erkən çağlarından başlayaraq inkişafın müxtəlif dövrlərini və mərhələlərini, milli məişət həyatını və xalqın milli psixologiyasını özündə əks etdirir. Xalqın şifahi yaradıcılığında ibtidai insanın erkən əmək, məişət həyatından tutmuş onun təbiətə ilkin bədii münasibəti – simvolik, fetişist, magik və totemistik görüşləri, animist və mifoloji

təsəvvürləri əks olunmuşdur. Bu şifahi söz sənətində xalqın ilkin inamları, etiqadı, ayin və mərasimləri bədii həqiqətlərə çevrilib yaşamış və bir çoxu bu günümüzə qədər gəlib bizə çatmışdır. Ağız ədəbiyyatı xalqın psixoloji dünyası, etik-estetik dünyagörüşü ilə sıx bağlı olmuş, qabaqcıl ideallar, hümanist görüşlər zəminində yaranıb formalaşmışdır.

Bədii təfəkkür hüdudları genişləndikcə xalqın düşüncəsində xeyir və şər, yaxşılıq və pislik, cəsarət və qəhrəmanlıq, sevgi, qəzəb kimi duyğular formalaşmışdır. Daim intibahda olan xalq təfəkküründə, ahəngli, ritmli deyimlərdən daha kamil, qəlibli, ölçülü forma və şəkillər törəmişdir. Bədii təfəkkür inkişaf etdikcə insanın intəhasız hisslər və duyğular dünyasını əks etdirən yeni-yeni bədii nümunələr yaranmışdır. Ta qədimdən başlayaraq ayrı-ayrı xalqların yaratdığı ağız ədəbiyyatı bu xalqların tarixini, mədəniyyətini, məişətini, həyatını özündə bəzən bütöv halda yaşatmışdır. Tarix səhnəsində elə məqamlar var ki, xalq özü sıradan çıxmış, ancaq onun ağız ədəbiyyatı yaşamış və onu yaradan xalqın adını tarixə əbədi həkk etmişdir. Xalqların yaratdığı ağız ədəbiyyatı müxtəlif adlar altında yaşamış və sonrakı nəsillərə ötürülmüşdür [81, s.23].

Elmi ədəbiyyatda belə bir fikir üstünlük təşkil edir ki, xalqın epik və etnik yaddaşı onun folklorudur. Epos – sözün həqiqi mənasında ana və beşik etnosun özüdür, milli “mən”in və genin uyuduğu əbədi “yurd yeri”dir,

baba ruhunun, ata soyunun və ana dilinin yaşadığı ilahi, sakral bədii yuva və ərazidir, yalnız azəri, yalnız türk ünvanlı hikmətin və irfanın, istəyin və arzunun, təsəvvür və təfəkkürün, təkrarsız mənəvi aləmin bitib-tükənmədiyi xəzinədir. Hələ bu da azmış kimi, "Folklor Şərq müdriklərinə öz sərrastlığı və dəqiqliyi ilə seçilən elə bir hikmət bəxş etmişdir ki, eşidənlər bir yandan mat qalır, digər tərəfdən də onlara pərəstiş edirlər" [109, s.18; 11].

Folkloru bilmədən millətin psixologiyasını, müstəqil, milli, fərdi mentalitetin sabit, əbədi daşıyıcısı kimi onun etnik "mən"ini, ümumbəşəri və qlobal yaddaşda məhz bu "mən"lə təmsil olunan bədii arxetipi, fəlsəfi-estetik kodu və geni arayıb-axtarmaq, tapıb, ayırıb incələmək qeyri-mümkündür. Yaşar Qarayevin dəqiq işlətdiyi obraz və ifadələrlə desək, vəhdətə aparan yol, ünvan və məskən kimi eşqin "can evi"nə (Füzuli) hikmətdən, sözdən təməl və daş qoyan, əzəli, əbədi, vahid mənəvi məkanı hissin, şüurun stixiyasında, əsatirdə və bayatıda, nağılda və dastanda yaşadan, xalqın bütövlüyünü, soyunu, əslini, zatını inamda, düşüncədə, mənəviyyatda yox olmağa, dağılmağa, tar-mar olmağa qoymayan – folklordur [11].

XIX əsrin axırlarından etibarən "Foklor" anlayışı altında tədqiqat obyekti və onun haqqındakı elm birləşdirilirdi. "Folklor" termini XX əsrin birinci onilliyində rus folklorşünaslığında qəti şəkildə işlənməyə başladı və sovet dövründə onun elmdə bərqərar olması prosesi başa çatdı [7, 180]. Etimoloji baxımdan ingilis sözü olan "folklore" anlayışı da maraq doğurur. Belə ki, folk – xalq

deməkdir, lore isə bilik mənasındadır. Mənası xalq biliyi və hikməti olub "xalq müdrikliyi, söz və ya həqiqət" mənasında başa düşülməlidir. Müxtəlif elmlərin qovşağında öyrənilməsinə ehtiyac olan bu "kamal dünyasının" araşdırılmaya cəlb edilməsinin tarixi isə o qədər uzun deyildir. Özünün əcdad mədəniyyətini, ulu tarixini öyrənməyə cəhd edən xalqlar araşdırmalarında ilk öncə özlərinin şifahi söz sənətinə müraciət etmişlər [81, s.24].

Bu termin (Folk-lore) ilk dəfə Uilyam Con Tomsun (William John Thoms, 1803-1885) 1846-cı ildə İngiltərədə nəşr olunmuş "Athenaeum" adlı aylıq ədəbi jurnala daxil edilmiş məqaləsində işlədilmiş və elə həmin vaxtdan demək olar ki, dünyanın ədəbi xəritəsində özünəməxsus deyimi ilə diqqəti cəlb edir [43, s.167].

Lakin şifahi xalq ədəbiyyatının, yaxud folklorun mənşəyi qədim zamanlarda yaranan sözün tarixi qədər böyük və uzun bir yolun başlanğıcına gedib çıxır. Folklor haqqında ayrı-ayrı dövrlərdə müxtəlif nəzəri fikirlər və mülahizələr irəli sürülmüş, ona müxtəlif baxışlar mövcud olmuşdur. Bəzən xalq anlamının düzgün dərk edilməməsi, onun zümrələrə və qruplara bölünməsi müəyyən yanlışlıqlara rəvac vermişdir. Bəziləri bu sənətin cəmiyyətin müxtəlif zümrələri tərəfindən yaranması, bir zümrənin yaradıcı, digərinin yaşadıcı olması fikrini irəli sürmüşlər. Lakin yaranışı müxtəlif zümrələrə bağlı hesab edilməsindən asılı olmayaraq, xalqın bədii yaradıcılığı daim davam etmiş, milli məişətin müxtəlif sahələ-

rində baş verən ziddiyyət, yüksəliş, tərəqqi və intibahlar, yaxud sarsılma və süqutlar xalq yaradıcılığında bu və ya digər şəkildə öz bədii əksini tapmışdır. Ona görə də folklor termini bu gün daha geniş anlamda başa düşülməlidir.

Folklorşünasların fikrincə, folklor təkcə xalq hikməti kimi yox, xalqın qabaqcıl, aparıcı dünyagörüşünü əks etdirən söz sənəti kimi dərk edilməlidir. Onun bəzən dar ölçülərdə və anlamlarda qəbul edilməsi bu söz sənətinin "bəyaz", aşağı zümrənin, çoban-çoluğun düzüb qoşduğu söz sənəti kimi yanlış mövqedən başa düşülməsinə səbəb olmuşdur. Bu isə xalqların erkən qaynaqlardan uzaqlaşmasına, ulu əcdadların yaratdığı mənəvi dəyərlərdən ayrı düşməsinə, öz keçmişini yadırğamasına gətirib çıxarmışdır. Bütün başqa xalqlar kimi, Azərbaycan türklərinin adət-ənənəsi, ayin və etiqadları, erkən etik və estetik düşüncəsi onun ağız ədəbiyyatında bütöv şəkildə öz əksini tapmışdır. Bu gün türkün tarixini, estetik düşüncəsini və milli psixologiyasını onun ağız ədəbiyyatından kənarda öyrənmək mümkün deyildir. Ona görə də zaman keçdikcə, xalqların sivil mədəniyyətə doğru inkişafı sürətləndikcə özünü öyrənməyə, keçmişinə və milli mənliyinə qayıtmağa ehtiyac artır. Öz tarixini və mənəvi dəyərlərini öyrənmədən dünya mənəvi dəyərlərinə yiyələnməyin qeyri-mümkün olduğunu artıq tarix sübut etmişdir. Ona görə də bu gün ümumdünya mədəniyyətinin zənginliklərinə bələd olmaq üçün ilk

öncə öz ağız ədəbiyyatımızı bütün incəliyi, özünəməxsusluğu və milli xüsusiyyətləri ilə öyrənmək gərəkdir [81, s.25].

Bu gün əldə olan mədəni irs materialları da sübut edir ki, xalqın yaratdığı şifahi yaradıcılıq nümunələri geniş və çoxcəhətlidir. Bu bədii yaradıcılıqda xalq həyatının, mənəviyyatının müxtəlif cəhətləri bədii şəkildə əks olunmuşdur. Hələ erkən çağlardan başlayaraq ayrı-ayrı ayin, etiqad və mərasimləri dolğun təhkiyəyə və poetik tərkibə malik nəğmələr rövnəqləndirmişdir. Ağızda yaranan, kollektivin köməyi ilə cilalanan variantlarda yayılan nəğmə, nağıl, dastanlarımızla yanaşı, bədii təfəkkürün erkən mərhələləri ilə bağlı törəyən inanc, fal, alqış, öyüd, təsəlli, məsəl və b. nümunələr də çox əski çağlardan mövcud olmuşdur. Yuxarıda deyildiyi kimi, bədii təfəkkürün bütün bu hikmət dünyası – ağız ədəbiyyatı, xalq yaradıcılığı və yaxud folklor adlandırılmışdır [81, s.33-34].

Hər bir tarixi dövrdə, müəyyən zaman və məkan daxilində baş verən həyat tərzi, dünyagörüşü, cəmiyyətdəki dəyişikliklər, informasiya bolluğu, texniki tərəqqi şifahi xalq yaradıcılığına təsir edən amillərdəndir. Nədənsə uzun illərdən bəri əcdadlarımızın qazandığı mənəvi irs yeni nəsillərdə özünü bir qədər zəif büruzə verir. Hətta başqalarına məxsus olan adət-ənənələri içərimizə gətirmək meyilləri də vardır. Ancaq bu yad ünsürlər heç vaxt öz davamlılığını qoruyub saxlaya bilməmiş-

dir. Məhz bu keyfiyyətləri əsas götürməklə deyə bilərik ki, uzun təkamül yolu keçmiş şifahi xalq yaradıcılığı ona yad olan təsirləri qəbul etməmişdir. Söz və sözün sehri, böyüklüyü qarşısında ehtiramını ifadə edən klassiklərimiz "söz"ə tərif demiş, qüdrətli sözü nəzmə çəkməklə bir daha onu "böyütmüşlər". Bu, o sözlərdir ki, xalq min illərdir onun dualarının, alqışlarının, laylalarının, bayatılarının şirin həzinliyinə bürünüb. O "söz" ki, bizi əfsanə sehrinə, nağıl dünyasına aparıb, məclislərimizi rövnəqləndirib. Ulu Tanrı insan oğluna da onu dərk etməyi, kamilliyə qovuşmağı sözlə çatdırıb. Demək, sadə sözün mürəkkəb həqiqəti, yaxud mürəkkəb dərkedilməzliyin sadə formulu vardır [42, s.7-8].

Xalqın yaratdığı şifahi yaradıcılıq nümunələri geniş və çoxcəhətlidir. Bu bədii yaradıcılıqda xalq həyatının, mənəviyyatının müxtəlif cəhətləri bədii şəkildə əks olunmuşdur. Ağızda yaranan, kollektivin köməyi ilə cilalanan, variantlarda yayılan nəğmə, nağıl, dastanlarımızla yanaşı, bədii təfəkkürün erkən mərhələləri ilə bağlı törəyən inanc, fal, alqış, öyüd, təsəlli, məsəl və b. nümunələr də çox əski çağlardan mövcud olmuşdur. Bədii təfəkkürün bütün bu hikmət dünyası – ağız ədəbiyyatı, xalq yaradıcılığı və yaxud folklor adlandırılmış, yazıya qədərki bu ədəbiyyatın yaranmasından, onun növ, janr və forma xüsusiyyətlərindən, nəzəri qayda və qanunlarından bəhs edən elm sahəsinə folklorşünaslıq deyilmişdir.

Deməli, folklorşünaslıq yazıya qədərki ədəbiyyatın yaranmasından, onun növ, janr və forma xüsusiyyətlərindən, nəzəri qayda və qanunlarından bəhs edən elm sahəsidir. Tarix, fəlsəfə, etnoqrafiya, antropologiya kimi digər elmlərlə müqayisədə folklorşünaslıq nisbətən cavan elm sahəsidir və onun meydana gəlməsi XIX əsrin ortalarına təsadüf edir. Avropada müxtəlif folklorşünaslıq məktəblərinin yaranması folklorşünaslığın beynəlxalq miqyasda kütləvi elm səviyyəsinə yüksəlməsinə səbəb oldu.

Hər bir xalq milli folklorunu araşdırmaqla özünün milli mədəniyyət tarixini, soy- kökünü, başqa xalqların mədəniyyəti içərisində özünəməxsusluğunu müəyyənləşdirməyi qarşıya məqsəd qoymuşdur. Bu mənada türk xalqlarının folklor irsinin öyrənilməsində də Azərbaycan folklorşünaslıq məktəbinin zəngin ənənələri vardır. Milli ağız ədəbiyyatının yaranması, janrlaşma tarixi prosesi nə qədər qədimlərə gedib çıxsa da, onu öyrənən elmin meydana gəlməsi əsasən iyirminci əsrin əvvəllərinə təsadüf edir. Azad Nəbiyevin təbirincə desək: "Əslində Azərbaycan folklorşünaslığı geçikmiş folklorşünaslıq idi. Avropada almanlar, ingilislər, fransızlar, finlər və b. öz şifahi ədəbiyyatlarını – əsatir və nağıllarını, mərasim və əmək nəğmələrini geniş şəkildə toplayıb öyrəndiyi bir vaxtda bizimi ağız ədəbiyyatımız hələ yazıya alınıb toplanmamışdı" [81, s.57-58]. Folklorşünas alimə görə, bunun başlıca səbəbi milli dövlətçilik

ənənələri ilə bağlı idi. Səfəvi dövlətinin süqutundan sonra Azərbaycanın tarixi parçalanması bu xalqın mədəni-tarixi inkişafını təkcə ləngitmədi, yaranmış çoxəsrlik mədəniyyət nümunə və abidələrinin dağılmasına, şifahi və yazılı ədəbiyyatın ayrı-ayrı mətnlərinin məhv edilməsinə, talan olunub Avropa muzeylərinə aparılmasına səbəb oldu. Azərbaycanın xanlıqlara bölünməsi böyük mədəniyyəti nəinki qoruyub saxlamadı, ona bir regionçuluq əhvalı verdi ki, uzun müddət milli mədəniyyətin inkişafı həmin psixoloji təsirdən yaxa qurtara bilmədi. Onların izləri bugünkü birgə yaşayış ənənələrində hələ qaldığı kimi, şifahi yaradıcılıqda, onun təsnif edilib qruplaşdırılmasında da özünü göstərməkdədir. Təsadüfi deyil ki, çox geniş ərazidə yaranıb yayılan Azərbaycan türklərinin ağız ədəbiyyatı bu gün bəzən Qarabağ folkloru, Cənubi Azərbaycan folkloru kimi qruplarda təsnif edilir. Böyük xalqın böyük söz sərvəti bəzən xırdalanır, parçalanır, region əxlaqına və çərçivəsinə tabe edilir [81, s.58].

Əksər tədqiqatçılar da bu fikirdədirlər ki, folklorumuzun tədqiqi sahəsindəki pərakəndəlik də ilk növbədə uzun illərdən bəri milli folklolrşünaslıqda kök salan sosializm realizmi metodologiyası ilə bağlıdır. Müstəqilliyimizin elanından 22 il keçməsinə baxmayaraq biz hələ yad metodologiyalardan yaxa qurtarıb öz ağız ədəbiyyatımızı milli-mənəvi dəyərlər, onların tipologiyası, regionlaşma spesifikası baxımından vahid milli metodoloji

istiqamətlərdə öyrənə bilmirik. Azərbaycan folkloruna rus tədqiqatları üçün ənənəvi metodoloji üsulların tətbiqi heç də həmişə düzgün nəticələrə gətirib çıxarmır.

Bu mənada Azərbaycan folklorşünaslarının gəldikləri yekdil elmi qənaət budur ki, Azərbaycan folklorunu vahid bir xalqın müxtəlif dialektlərdə yayılmış ağız ədəbiyyatı kimi öyrənmək lazımdır. Bura islamın, fars ədəbiyyatının, rus çarizminin, Sovetlər Birliyinin ideologiyasının təsirini aid edə bilərik. Hələ vaxtilə Y.V.Çəmənzəminli folklor nümunələrinin araşdırılması haqqında yazırdı: "Məsələnin çətinliyi xalq ədəbiyyatındakı təsirləri araşdırmaq, ondakı qaranlıq nöqtələri izah etməkdən ibarətdir. Zahirən aydın görünsə də, şərhə ehtiyacı olan nöqtələr çoxdur" [29].

Azərbaycan türklərinin uzun əsrlərin keşməkeşlərindən keçərək günümüzədək gəlib çatan vahid ağız ədəbiyyatı vardır və o, Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Naxçıvanda özünə məxsus xüsusiyyətlərə malik bir şəkildə yaşamaqdadır. Azərbaycan ədəbiyyatının mühüm sahələrindən biri olan şifahi xalq yaradıcılığı xalqımızın tarixi yaddaşının canlı salnaməsidir. Tarixi keçmişimizi, mənəvi dəyərlərimizi özündə yaşadan şifahi xalq yaradıcılığı ədəbiyyatımızın həmişə tədqiqə ehtiyacı olan sahələrindən biri olmuşdur. Ədəbiyyatımızın bu sahəsi yarandığı dövrdən asılı olmayaraq, müəyyən zaman və məkan daxilində baş verən ictimai-siyasi hadisələrin ifadəsi, mənəvi mədəniyyətimizin təməl daş-

larından biri olmuşdur. Keçmişi və bu günü əhatə edən folklor nümunələri milli mənsubiyyətin əsas göstəricisi və qaynaqlarından biridir. Hər bir deyim, inam və mif tariximizdə yaşanan hadisənin maddi ifadəsidir. Folklorumuzu sistemli, ardıcıl şəkildə araşdırıb təhlil etməklə xalqımızın tarixinin müəyyən məqamlarını, mənəvi aləmini, o cümlədən onun düşüncə tərzini öyrənmiş oluruq.

Bu mənada folklor nümunələrinin yazıya alınması, toplanması və nəşri vəziyyəti də bu gün qənaətbəxş deyildir. Azərbaycan türklərinin ağız ədəbiyyatı – milli əfsanəsi, mifi, nağıl-dastanı kütləvi şəkildə, məsələn, XIX əsrdə Almaniyada olduğu kimi toplanmamışdır. Şimali Azərbaycanın rus çarizmi tərəfindən işğalı Cənubi Azərbaycanın fars dövləti olan İranın tabeliyində qalması, sonra isə həmin ərazidə tarixən mövcud ədəbi mərkəzlərin fəaliyyətinin dayandırılması, fars dilinin dövlət dili elan edilməsi, Azərbaycan ağız ədəbiyyatının toplanma və nəşr işinin birtərəfli aparılması folklorumuzun tam şəkildə toplanmasına, tədqiqinə əngəl törədirdi.

Ağız ədəbiyyatı Güney bölgəsində yalnız tək-tək ziyalıların, məcmuə və jurnalların nəşri sayəsində müəyyən toplama və öyrənilmə mərhələsini keçmişdir. Şimali Azərbaycan ərazisində isə ağız ədəbiyyatımızın öyrənilməsi sosializm realizm metodologiyasına uyğunlaşdırılaraq toplanmışdır. Lakin buna baxmayaraq bu sahədə mühüm işlər görülmüşdür. Azərbaycanın zəngin folklor nümunələri təbii ki, ta qədim dövrlərdən üzü bəri yazılı

ədəbiyyatımızın yaranması və inkişafı üçün mötəbər bir zəmin olmuşdur.

Azərbaycan folklorunun toplanması və nəşri işinə əsasən XX əsrin əvvəllərindən etibarən başlanılmışdır. Əvvəlki dövrlərdə isə Azərbaycan ziyalılarının, xüsusən yazıçıların və pedaqoji fəaliyyətlə məşğul olan, dərsliklər yazan müəlliflərin çiyinlərinə düşmüş və necə deyərlər, fərdi təşəbbüs səciyyəsi daşımışdır. Bu boşluğu qismən də olsa SMOMPK adlı məcmuə doldurmuşdu və burada müəllif qismində iştirak etmiş F.B.Köcərli, S.M.Qənizadə, T.Bayraməlibəyov, M.H.Vəzirov, A.Vəlibəyov, S.M.Əfəndiyev, H.K.Sanılı kimi ziyalılar bu sahədə SMOMPK-dan əxz etdikləri təcrübəni sonrakı illərdə də davam etdirirdilər. Getdikcə Azərbaycan dilli mətbuatda toplanmış folklor materiallarının və folklora dair məqalələrin dərci məsələsi daha çox aktuallaşırdı. Bu mərhələdə N.B.Vəzirovun, Ə.B.Haqverdiyevin, Y.V.Çəmənzəminlinin, A.Şaiqin, N.Nərimanovun yaradıcılığında və dərsliklərdə folklorun dərin izlər buraxdığı aşkar görünür. Hətta N.B.Vəzirov kimi sənətkarlar atalar sözləri və məsəlləri əsərlərinin başlığına çevirir, "Molla Nəsrəddin" jurnalı adını folklor qəhrəmanının adından götürür, "Füyuzat" jurnalında folklora dair nəzəri səpkili məqalələr və materiallar dərc edilirdi.

Azad Nəbiyev yazır ki, rus naşirlərinin "tatar" adlandırdığı Azərbaycan türklərinin ağız ədəbiyyatının qismən kamil nümunələri XIX əsrin yetmişinci illərin-

dən sonra nəşrə başlayan SMOMPK məcmuəsində daha geniş şəkildə əks olundu. Bu materialları ilk dövrlərdə A.Zaxarov, A.Kalaşev, A.Afanasyev, Y.N.Polonski, İ.P.Vladimirov, Y.N.Yefimov kimi rus ziyalıları nəşr etdirirdi. Ümumiyyətlə isə "XIX əsrin otuzuncu illərindən sonra yetmiş il ərzində Tiflis ədəbi mühiti, xüsusilə burada nəşr olunan qəzet və jurnallarda milli folklorumuzun toplanması və nəşri kimi böyük işin çox uğurlu başlanğıcını dərin minnətdarlıqla xatırlatmaq, bu işə başlayanların və onu həyata keçirənlərin əməyini isə təqdir etmək gərəkdir" [81, s.60-61].

Folklorşünas Vaqif Vəliyev bu barədə yazırdı: "XIX əsrin sonu, XX əsrin ilk illərindən başlayaraq Azərbaycan folklorunun ayrı-ayrı janrları kitabça halında nəşr olunmağa başlayır. Onlardan "Atalar sözü" (Qəmərli Məhəmməd Vəli, İrəvan, Edilson mətbəəxanəsi, 1899), "Gözəlləmə" (Aşıq Sumbat, Bakı, Orucov qardaşları mətbəəsi, 1911), "Nəğmə və şikəstə" (Bünyadzadə Cəfər, 1913, 1914, 1916, 1917-ci illərdə təkrar çap edilmişdir), "Arvad ağzı, bayatı, haxışta, sevgi, layla, qaynana-gəlin sözləri" (Abbaszadə Mirzə Abbas, Bakı, "Kaspi" mətbəəsi, 1914), "Milli nəğmələr" (Mirzəzadə Ağa Həsən, Bakı, "İran", 1919), "Nağıllar məcmuəsi" (İsmayılov Kərimbəy, Orucov qardaşları mətbəəsi, 1911), "Şagirdlərə bəxşiş" – nağıllar məcmuəsi (Axundov Nəsrullah, Bakı, 1915) və başqa kitabları göstərmək olar" [97, s.60].

Beləliklə, əvvəlcə bolşevik mətbuatın (məsələn, “Kommunist”, “Yeni yol”, “Azərbaycan kolxozçusu” və başqa qəzetlər), yaradıcı təşkilatların (“Azərbaycan Ədəbiyyat Cəmiyyəti”, Proletar Yazıçıları İttifaqı), eləcə də təhsil ocaqlarının (Dövlət Universiteti, Konservatoriya) nəzdində xalq yaradıcılığı qurumları və ya qrupları yaradılmağa başladı və başlanğıc üçün bu mühüm səmərə verdi. Bu yöndəki qaynar fəaliyyəti o dövrdən dərc edilən “Ədəbiyyat qəzeti”, “Kommunist”, “Yeni yol” və “Azərbaycan kolxozçusu” qəzetlərinin, eləcə də “Dan ulduzu”, “Maarif işçisi”, “İnqilab və mədəniyyət”, “Azərbaycanı öyrənmə yolu” məcmuələrinin səhifələrində geniş yer almış folklor örnəklərinin mənzərəsindən açıq şəkildə görmək mümkündür. Dövri mətbuat sırasında xüsusilə, “Ədəbiyyat qəzeti” demək olar ki, hər nömrəsində xalq ədəbiyyatı örnəklərinə geniş yer ayırır, bir çox hallarda isə ayrıca olaraq “Xalq ədəbiyyatı” səhifəsi verirdi. “Kommunist” qəzeti kimi siyasi yönümlü bir mətbuat orqanının 1923-cü ildən başlayaraq, “Xalq ədəbiyyatı həyatdan doğar” rubrikası altında xüsusi folklor səhifəsi nəşr etməsi dövlət səviyyəsində bu məsələyə nə qədər böyük əhəmiyyət verildiyinin əyani göstəricisi idi. Maraqlı cəhətlərdən biri budur ki, qəzetin redaksiyası folklorun toplanması işində eynən SMOMPK-un hələ XIX əsrdə keçirdiyi üsulu tətbiq etmiş, bu səmərəli təcrübədən istifadə edərək 1925-ci ildə “Yeni yol” qəzeti respublikanın bütün rayonlarındakı təhsil və mədəniy-

yət müəssisələrinə şifahi xalq ədəbiyyatı nümunələrinin toplanılması üçün uyğun proqram və təlimat göndərmişdi. Həmin təlimat əsasında Azərbaycanın əksər bölgələrində folklor nümunələrinin toplanılması işi həyata keçirilirdi. Bu materiallar redaksiyanın ünvanına göndərilir, onlardan seçmə örnəklər ardıcıl şəkildə qəzetdə çap olunurdu [31, s.9-12].

Bu iş başqa mətbu orqanların da həyatında mühüm yer tuturdu. Dövrün ən nüfuzlu ədəbi şəxsiyyətlərindən olan Maksim Qorkinin "Azərbaycan kolxozçusu" qəzetinin şifahi xalq ədəbiyyatı materiallarını çap etmək sahəsindəki uğurlarını təqdir məqsədi ilə redaksiyaya ünvanladığı məşhur məktub da həmin dövrdə və sonralar uzun bir zaman ərzində Azərbaycan ədəbi-ictimai fikrinin, o cümlədən də folklorşünaslığının diqqət mərkəzində saxladığı tarixi sənədə çevrilmişdi [97, s.23].

Folklorumuzun toplanması və nəşri işində bu dövrdə yaradılmış Azərbaycan Ədəbiyyat Cəmiyyəti də mühüm işlər görür. İlk folklor kitabı Ədəbiyyat Cəmiyyətinin xətti ilə həyata keçirilir və 1925-ci ildə Ədəbiyyat Cəmiyyətinin xəttilə "Azərbaycan xalq ədəbiyyatından: bayatılar" kitabı dərc edilir. Kitabı Abdulla Şaiq, Şəfiqə Əfəndizadə və Hatif nəşrə hazırlamışlar. Lakin təəssüf ki, toplayıcı barədə kitabda məlumat verilməmişdir. Kitabda müxtəlif mövzularda olan iki yüzə yaxın el bayatısı toplanmışdır. Kitabın titul səhifəsinə "Sayı 1" qeydinin verilməsi bu nəşrin silsilə şəklində düşünüldüyünü

göstərir [18, s.60]. 1926-cı ildə "Atalar sözləri" kitabının yenə də "Azərbaycan Ədəbiyyat Cəmiyyəti" tərəfindən buraxılması bu gümanı təsdiqləyir [4, s.146].

"Azərbaycan xalq ədəbiyyatından: bayatılar" kitabının əsas tarixi-mədəni dəyəri bayatılar toplusunun "Azərbaycan folklor kitabı" tarixində ilk dəfə olaraq ayrıca kitab halında işıq üzü görməsi idi. Toplunun ədəbi-elmi ictimaiyyət tərəfindən həssaslıqla qarşılanması bu dövrdə xalq ədəbiyyatına böyük marağın getdikcə artmaqda olmasından xəbər verirdi. Dövrün qabaqcıl ziyalılarından və nüfuzlu ədəbi tənqidçilərindən olan Əli Nazim 1926-cı ildə "Maarif və mədəniyyət" jurnalının yeddinci nömrəsindəki "Azərbaycan xalq ədəbiyyatından: bayatılar" adlı məqaləsində sözü gedən nəşrin elmi və mədəni-tarixi əhəmiyyətindən bəhs edərək yazırdı: "Ədəbiyyat Cəmiyyətinin bu işi bu yolda ilk təşəbbüs olmaq şərtilə təbrik və təqdirə şayandır". Maraqlı cəhətlərdən biri budur ki, Əli Nazim burada folklorun toplanması prinsipindən bəhs edir, folklor materiallarını toplayarkən hansı toplama qaydalarına əməl etməyin şərtlərini və hansı cəhətlərə diqqət yetirməyin vacibliyini irəli sürür: "Toplanılan bayatıların məhəlli şivəsi saxlanılmalı idi. Kitabda məhəlli şivənin gözlənildiyi iddia edilirsə də, bu quru bir söz olaraq qalır. Halbuki bunun üçün bayatıların haradan toplanıldığını, kimlərdən və nə vasitə ilə əldə edildiyini, kimin ağzından eşidildiyini göstərmək lazımdır" [12, s.155]. Görkəmli ədəbiyyat-

şünasın bu müşahidə və narahatlığı tamamilə doğru və elmi idi. Belə ki, folklor örnəyinin pasportlaşdırılması məsələsi iyirmi-otuzuncu illər, hətta sonrakı dövr nəşrlərinin əksəriyyəti üçün səciyyəvi bir qüsur kimi nəzərə çarpır.

Azərbaycan Ədəbiyyatı Cəmiyyətinin qısa bir müddət ərzində ictimaiyyətə təqdim etdiyi "Azərbaycan xalq ədəbiyyatından: bayatılar" və "Atalar sözləri" topluları həm bütövlükdə "Azərbaycan folklor kitabı", həm də nəzərdə tutulan şifahi ədəbiyyat janrlarının toplanması və nəşri istiqamətində iyirminci illərdən başlanan miqyaslı folklorşünaslıq fəaliyyətinin uğurlu və mühüm təməli oldu. Məlum oldu ki, folklor işi ilə ayrı-ayrı fərdlərin, ədəbi-ictimai qurum və ya xırda qrupların fəaliyyəti səviyyəsində məşğul olmaqla sistemli işlər görmək və ciddi nəticələr əldə etmək mümkün deyildir. Xalqın maddi və mənəvi mədəniyyətinin, o cümlədən də folklor və etnoqrafiyasının daha dərindən öyrənilməsi üçün rəsmi dövlət səviyyəsində təsis edilmiş müəyyən bir elmi-təşkilati qurumun yaradılması zərurət idi. Bu məqsədlə o illərdə Bakıda yaşayıb fəaliyyət göstərən tanınmış alim və mədəniyyət xadimlərinin yazılı müraciətinə cavab olaraq 1923-cü ilin noyabr ayının 2-də "Azərbaycanı "Tədqiq və Tətəbbö Cəmiyyəti" adlı elmi-təşkilati qurumun yaradılması barədə rəsmi qərar verildi və bu olduqca mühüm əhəmiyyət kəsb etdi [44, s.177].

Qurum 1929-cu ilə qədər bu ad altında fəaliyyət göstərdi. 1929-cu ildən Azərbaycan Elmi Tədqiqat İnstitutu adlanan həmin təşkilat 1933-cü ildə daha böyük bir akademik qurumun – SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının tərkibinə daxil edilərək "Az.OZFAN" adı daşımışdır. Az.OZFAN 1936-cı ildən SSRİ EA-nın Azərbaycan Filialı adlanmış, 1945-ci ildən isə bu gün də fəaliyyətini davam etdirən geniş profilli Azərbaycan SSR Elmlər Akademiyası (son adı: AMEA – Azərbaycan Milli Elmlər Akademiyası) təsis edilmişdir [44, s.46-48]. Belə ki, sadalanan çeşidli adlar altında fəaliyyət göstərən bu qurum əslində mahiyyət etibarı ilə Azərbaycanda Elmlər Akademiyasının ilk təməl daşını qoymuş mühüm bir elmi təşkilat idi. Əhatə dairəsi geniş miqyasa malik olan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin SMOMPK məcmuəsi kimi xüsusi diqqət yetirdiyi əsas istiqamətlər içərisində şifahi xalq ədəbiyyatı materiallarının toplanılması, nəşri və tədqiqi başlıca yer tuturdu. Cəmiyyətin bu yöndəki fəaliyyəti "Tarix və etnoqrafiya" şöbəsi nəzdindəki "Folklor komissiyası" tərəfindən istiqamətlənir və həyata keçirilirdi [82, s.114-120].

XX əsrin 20-ci illərinin ortalarına qədər bu məsələyə xüsusi diqqət ayrılmamışdır və yaxud folklor materiallarının toplanması fərdi təşəbbüslər və maraqlar sferasında qalmış, kim necə bacarmış, necə bilmişsə o qaydada da folkloru toplamışdır. XX əsrin 20-ci illərində

Azərbaycan folklorşünaslığında bu mühüm məsələyə xüsusi əhəmiyyət verənlərdən biri də, elmi-nəzəri fəaliyyəti ilə fərqlənən, adı çəkilən "Folklor komissiyası"na rəhbərlik edən istedadlı ədəbiyyatşünas-tənqidçi Hənəfi Zeynallı yazırdı: "Azərbaycan el (ağız) ədəbiyyatı geniş, zəngin və dərin bir surətdə öyrənilməlidir. Bu ana qədər belə əhəmiyyətsiz qalmış ən dəyərli bir sahəni gözdən qaçırmaq günahı da Azərbaycan ziyalılarındandır. Azərbaycan "el" ədəbiyyatının toplanması məsələsinə gəldikdə, burada bir çox üzüntülər meydana çıxır. Bunların da, qəbahəti yalnız ziyalılarımızın özündədir" [99, s.29].

Hənəfi Zeynallı ayrı-ayrı bölgələrə elmi ezamiyyətlərin təşkil olunması, eləcə də ezamiyyətlərin nəticələrinin müzakirəsi işinə xüsusi diqqət yetirir, bu sahədəki fəaliyyətin elmi əsaslarda qurulmasına var qüvvə ilə çalışırdı. Onun dövri mətbuat və ədəbi orqanlarda nəşr etdirdiyi "Ağız ədəbiyyatı"("Maarif və mədəniyyət" jur., 1926, № 8), "Azərbaycanda "El ədəbiyyatı" ("Maarif işçisi", 1926, № 11), "El yaradıcılığı "Azərbaycan atalar sözü" kitabı", Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyəti nəşriyyatı, 1926, s. 11-24) kimi dərin məzmunlu məqalələrində folklorun toplanıb yazıya alınmasının üsul və vasitələri üzərində ayrıca dayanırdı. Görkəmli folklorşünas "Maarif işçisi" jurnalının 1926-cı ildə çıxan on birinci sayında folklor işi sahəsindəki mövcud vəziyyəti və perspektiv istiqa-

mətləri təhlil edir, toplama prinsipinə, üsuluna xüsusi diqqət yetirirdi.

1914-cü ildə "Dirilik" jurnalında (1 dekabr 1914-cü il, № 6) çap edilmiş "Milli dirilik" başlıqlı məqaləsində dilimizə xor baxanlar tənqid olunurdu: "İştə cavanlarımız üçün mövcud maraq eyni zamanda da olduqca faydalı bir məşğələ, hər kəs bulunduğu yerdəki lüğətləri, zürub-əmsalı və sair xalq ədəbiyyatına aid olan parçaları eynilən toplayacaq olarsa, görərsiniz ki, həmən arzu olunan türk lüğəti vücuda gəldi" [85, s.478].

Hənəfi Zeynallı da eyni mövqedən çıxış edərək yazırdı ki, Azərbaycan türkü və bayatılarının və ya dastanlarının deyil, hətta tapmacaların, yanıltmacların da belə taylarını başqa türk ellərində görəcəyik. Burada insanı ağrıdan bir şey vardır: gərək Anadoluda, gərəksə başqa türk elləri arasında kitab-kitab yüzlər və minlərlə belə ağız ədəbiyyatı toplanıb təsbit edildiyi halda, Azərbaycan ziyalıları ən əvvəl Azərbaycan şəhərlərində, kəndlərində, dağlarında və aranlarında yaşayan müəllimlər belə şeyləri toplamaq və müəyyən bir yerə göndərmək fikrinə düşməyirlər. Bu materialları toplayanların içərisində ən çox fəaliyyət göstərənlər bizdə daha çox gənc və iqtidarlı, enerjili olan tələbə və müəllimlər olacaqdır. Belə materialları toplamaqla məşğul olan müəllimlərimiz əlləri altında olan balaların yardımı ilə az bir zaman içərisində o qədər çox materiallar toplaya bilərlər ki, cild-cild əsərlər meydana çıxar ([99, s.30].

“Milli dirilik” məqaləsində folklor və etnoqrafik materialların toplanmasına xüsusi önəm verilən və milli diriliyin çox mühüm amil kimi qiymətləndirildiyi məqalədə deyilirdi: “Milli dilin diriliyi üçün lüğətləri yığmaqdan başqa xalq ədəbiyyatını toplamaq, camaat arasında hekayələri, əfsanələri cəm edib, elmi bir surətdə təhlil və təsnif etmək də lazımdır. Bunlar ədəbiyyatı xalqa yaxınlaşdırmaq üçün lazımlı şeylərdir. Çünki müəyyən bir ədibin öz biliyini daxil edib də şəxsi hisslərlə deyil, xalq kütləsi tərəfindən ümumi bir vicdan və hiss nəticəsi olan bu əsərlərdə xalq və millətin ruhi-əslisi həmən təzahür etməkdə və o millətin nə kimi bir ruh və hissə malik olduğu və nə kimi xüsuslarının möhtacislah və tərbiyə olduğu rəna bir surətdə görünməkdədir” [85, s.479].

Yuxarıdakı tövsiyələri diqqətdə saxlayan folklor toplayıcıları, o cümlədən Hənəfi Zeynallı folkloru toplama işinə daha ciddi bir məsələ kimi baxırdılar. Hənəfi Zeynallı ayrı-ayrı toplayıcıların ümumi yanlışlıqlarına toxunaraq qeyd edirdi ki, bu şəxslər gərək xalq təbəqəsi içərisinə girərək həmin materialları olduğu kimi alıb yazmayırlar. Yəni hər yerin özünəməxsus bir şivəsi, bir leksikonu olduğu halda, o məhəllənin leksikonunu, ifadə şəklini, bədii görüşlərini, cümlə quruluşlarını, səslərdəki dəyişmələri tamamilə göstərmək üçün hər bir kəsdən eşidilən bu materialları söyləyən adamın söylənişini eyni ilə zəbt etməyirlər. Material topladıqları yeri etnoqra-

fiya və coğrafiya cəhətdən təsvir etməyirlər. Zəbt edilən materialın nə yerlərdə saxlanıldığı elm adamları üçün və etnoqrafiya üçün qayət əhəmiyyətlidir. Çünki hər bir məhəllənin özünəməxsus ayrı-ayrı ədəbiyyat şəkli və məzmunu görünür və hətta bir yerdən digər bir yerə keçən qısa sözlər, mənzum və mənsur parçalar və yaxud uzun dastan və hekayələr mütləq o yerin yaşayışına uyğun bir tərzə gəlir [99, s.30]. Folklorşünas alimin fikrincə, belə bir üsulla tədqiqata girişsə, aran yerlərində daha çox ibrətamiz olan atalar sözlərinə meydan verəcək, xalqı təbiətcə daha çox şaqraq olan yerlərdə yanıltmac, tapmaca, bayatı kimi fikir oynadan parçalar yayılmış olduğu görünəcəkdir. Buna görə də hər bir məhəllədən toplanmış materialın hansı kənddən, hansı qəzadan, o məhəllənin nə təbiətə malik olduğundan, kimlərdən, gəncdən və qocadan, çox material verənlərin nə kimi yaşadığından (tərcümeyi-halından) geniş bir məlumat gələcək Azərbaycan xalq ədəbiyyatı və etnoqrafiyası tədqiqi üçün ən gözəl bir material olacaqdır. Material toplayan yoldaşlar bir bayatını iki yerdə eşitdikdə, bir dastanı iki və ya üç adamdan az bir fərq ilə də olsa yazmayırlar. Bu yoldaşlar belə məzmun, dil və təsvir ayrılıqlarını göstərməklə insaniyyət cəhətdən böyük vəzifələr yaratmış olurlar" [99, s.31].

XX əsrin əvvəllərində folklor və etnoqrafik materialların toplanmasına bu qədər diqqət yetirilməsi təsadüfi deyildi. Milli hisslərin getdikcə artdığı, milliyyət-

çilik duyğusunun getdikcə alovlandığı bir dövrdə ziyalılar xalqa doğru yönəlmiş elmi-mədəni tədqiqatlara xüsusi önəm verirdilər.

Belə bir yanaşmada çoxvariantlılıq prinsipinə münasibət də öz əksini tapır ki, burada folklor mətninin bir çox başqa variantları ilə birlikdə yazıya alınması zərurəti olduqca vacib toplama problemlərindən hesab edilir.

O dövrün böyük şəxsiyyətlərinin folklor toplayıcılığı sahəsində bu gün də aktuallığını qoruyub saxlayan elmi mülahizə və toplama prinsipləri təəssüf ki, nə həmin dövrdə, nə də sonrakı onilliklərdə lazımı səviyyədə diqqətə alınmamışdır. Bu səbəbdən də, uzun bir zaman ərzində folklor materiallarının dili ədəbi dilə yaxın bir ölçüyə tabe etdirilmişdir ki, bu cəhət sovet dönəmindəki və müstəqillik dövründəki folklor nəşrlərinin qüsurlarından biridir.

Ümumilikdə isə, son yüzillikdə Azərbaycan folklorşünaslığı sahəsində xeyli işlər görülmüşdür ki, bu mənada Rəşidbəy Əfəndiyev, Abdulla Şaiq, Firudinbəy Köçərli, Hənəfi Zeynallı, Yusif Vəzir Çəmənzəminli, Vəli Xuluflu, Salman Mümtaz, Hümmət Əlizadə, Məmmədhüseyn Təhmasib, Əhliman Axundov, Əliyar Qarabağlı, Mirəli Seyidov, Paşa Əfəndiyev, Mürsəl Həkimov, Qəzənfər Paşayev, Bəhlul Abdulla, Məhərrəm Qasımlı kimi yazıçı, şair, pedaqoq, tədqiqatçı alimlərin araşdırmaları özünəməxsus orijinallığı və dəyərləri ilə seçilir.

Qeyd edək ki, Azərbaycan mühacirət folklorşünaslığı XX yüzilin son illərinə qədər, demək olar ki, tədqiqatlardan kənarda qalmış, onun yaradıcıları – Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Əhməd Cəfəroğlu, Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məhəmmədzadə, Ceyhun bəy Hacıbəyli, Hüseyn Baykara, Nağı Keykurun (Şeyxzamanlı), Almas İldırım, Səlim Rəfiq, Əbdülvahab Yurdsevər, Kərim Odər, Kərim Yaycılı, Nəbi Turablı, Yunus Lənkəranlı və başqalarının nəinki araşdırmalarını öyrənmək, hətta çox vaxt adlarını belə dilə gətirmək yasaq olunmuş, yalnız nadir hallarda onlardan bəhs edilmişsə də, həmin şəxsiyyətlər ya təhqir olunmuş, ya da yanlış təbliğə məruz qalmışlar. Yalnız Azərbaycan yenidən müstəqilliyini bərpa etdikdən sonra bu fəaliyyətin yeni baxışlar kontekstində öyrənilməsinə başlanmışdır [41, s.39].

Azərbaycan folklorşünaslığının tarixi də belə bir faktı təsdiqləyir ki, hər bir xalqın folkloru əslində o xalqın özü deməkdir. Çünki bütün başqa mədəniyyət vahidlərindən fərqli olaraq folklor xalqın tarixini, etnik dünyasını, dialekt xüsusiyyətlərini, etik və estetik idealını, ictimai-fəlsəfi dünyagörüşünü özündə kompleks şəklində əks etdirir. Hətta insan haqqında elm olan antropologiya hər hansı bir insan tipinin səciyyəsini öyrənərkən, yaxud insan təkamülü tarixini araşdırarkən o, etnosun folklor materialı ilk növbədə diqqət önünə çəkilir. Lakin 70 illik sovet dövründə bir çox tədqiqatçılar ayrı-

ayrı etnik mənsubiyyətə malik millətlərin gələcəkdə vahid sovet xalqı kimi formalaşacağı, ümumsovet mədəniyyətinin yaranacağı barədə illüziyalar irəli sürmüşlər.

Azad Nəbiyevin qənaətinə görə, bu siyasət tərəfdarları xalqları zorən öz soy- kökündən qoparıb, ona öz tarixi keçmişini unutdurub, xalqları tamamilə yeni tipli bir "mədəniyyət" sxemində birləşdirməyin mümkün olduğunu güman edirdilər. Ona görə də Sovetlər Birliyi daxilində olan başqa türk xalqları kimi, Azərbaycan xalqı da belə bir "mədəniləşdirmə" siyasətinin qurbanı olmuş, iki yüz ilə yaxın müddətdə öz həqiqi tarixindən, əski mədəniyyətindən, milli soy- kökündən açıq və ya dolayısı yolla uzaqlaşdırılma siyasətinə məruz qalmışdır [81, s.36].

Tarixin dərinliklərindən günümüzə qədər zəngin mədəniyyət yaratmış Azərbaycan türklərinin ağız ədəbiyyatını öyrənmək üçün bu xalqın tarixini dərindən bilmək gərəkdir. Azərbaycan xalqının tarixi onun mif, əfsanə və rəvayətlərindən tutmuş çox uzaq keçmişlərindən soraq verən qəhrəmanlıq eposunda, adət, ənənə və mərasimlərində, xalq bayramlarında, kiçik paremik vahidlərində – atalar sözlərindən tutmuş erkən alqış, qarğış və təsəllilərində yaşayır. Demək, xalqımızın ağız ədəbiyyatını öyrənmək üçün onun tarixinin ən qədim qatlarına bələd olmaq, onun müxtəlif dövrlərdəki cəngavərlik tarixini yenidən vərəqləmək gərəkdir.

Eyni zamanda tarixi yazılmayan, yaxud tarixi dünyaya təhrif edilmiş şəkildə çatdırılan bu xalqın həqiqi tarixini bərpa etmək üçün onun folkloru və etnoqrafiyası da dəyərli mənbədir. Folklorla tarixin, folklorla etnoqrafiyanın qarşılıqlı əlaqəsindən bəhrələnməklə Azərbaycan xalqının dürüst tarixini yaratmaq mümkündür. Ona görə də xalqın folklorunu bilmək üçün eyni zamanda onun etnik dünyasını da öyrənmək lazımdır. Etnoqrafiyanın öyrənilməsi xalq həyatının təkcə etnogenetik inkişafını izləməyə deyil, eyni zamanda bu xalqın adət, ənənə, əxlaq normalarına bələd olmağa, onun mətbəx mədəniyyətini, geyim formalarını, toy, yas, adqoyma, qonaq qarşılama və s. adətlərinə bələd olmaq deməkdir.

Etnoqrafiya ilə folklorun bağlılığına dair görkəmli alimlərin çox dəyərli fikirləri vardır. Məsələn, akademik Teymur Bünyadov yazır: "Əgər etnoqrafiyanı dünyagörmüş çinara bənzətsək, folklor onun şah budağıdır. Çox vaxt etnoqrafiya və folklor bir-birini tamamlayır, biri digərinin inkişafına əsaslı zəmin yaradır. Bu doğmalıq, bu qoşalıq bəzən elə şəkil alır ki, onlardan hansının etnoqrafiyaya, hansının xalq yaradıcılığına aid olduğunu belə müəyyənləşdirmək çətin olur. Bu ayrılmazlıq, ortaqlıq, oxşarlıq və doğmalığın nəticəsidir ki, bir çox məsələlər eyni dərəcədə hər iki elm sahəsinin tədqiqat obyektidir [9, s.7].

Azad Nəbiyevin qənaətinə görə isə "folklorla sıx bağlı olan etnoqrafiyanı bilmədən hər hansı bir xalqın

ümumi mədəni səviyyəsini, mənəvi xilqətini müəyyənləşdirmək mümkün deyildir" [81, s.37].

Etnoqrafiya yunan sözü olub, "etnos" – xalq, "qrafis" – öyrənmək, təsvir etmək mənasını daşıyır. Etnoqrafiya etnologiya kimi də ədəbiyyatda geniş işlənir. "Etnos" – xalq, "loqos" – elm. Deməli, etnologiya xalq haqqında elm deməkdir. Bu terminlərin hər ikisi eyni məzmun kəsb etsə də, etnologiya bu elmin mahiyyətini daha dəqiq və dürüst mənalandırır. Deməli, etnoqrafiya – etnologiya xalqı öyrənən, təsvir və tərənnüm edən elmdir. Bu mənada etnoqrafiya – etnologiya xalqa daha yaxın olan, onun arzu və istəklərini araşdıran elmdir.

Deməli, etnoqrafiya elminin əsas vəzifəsi xalqı öyrənməklə tarix yazmaq, onu daha da zənginləşdirmək, əhatəli etməkdir. Etnoqrafiya elmi arxeologiya elmi kimi, tarix elminin mühüm tərkib hissəsidir, onun bütövlüyünün, tamlığının təsdiqidir. Ona yardımçı olur, üfüq dairəsini genişləndirir. Etnoqrafik araşdırmalarda arxeoloji materiallar və tədqiqatlar əvəzsiz əhəmiyyətə malikdir. Bu elmlərin birliyi çoxəsrlik tariximizin bir sıra qaranlıq səhifələrinə işıq saçır. Minillikləri milyon illərə qovuşduran tarix yazır, tarix yaradır. Əgər belə demək mümkünsə arxeologiya tarix elminin ixtiraçısı, etnoqrafiya onun bərpaçısı rolunu oynayır. Arxeologiya yerin qatlarındakı mədəni təbəqələrdə müxtəlif dövrlərə aid zəngin və qiymətli materiallar aşkar edir, onun xronologiyasını verir. Etnoqrafiya isə bu maddi-mədəniyyət qa-

lıqlarının bərpasına yardımçı olur, lazımı köməklik göstərir. Heç şübhəsiz, bu birlik, müştərəklik dərin məna və məzmunu ilə seçilən tarixin yaranmasına öz töhfəsini verir [7, s.6].

Kulturoloji əsərlərin yazılmasında etnoqrafiya və arxeologiya elmi kimi tarix elminin aparıcı rolu da danılmazdır. Ona görə də, tarix elminin nailiyyətlərindən, müxtəlif xarakterli qaynaqlardan, səyyahların, tacirlərin, alimlərin, şairlərin əsərlərindən istifadə edilməsi zəruridir. Azərbaycan xalqının mənşəyinin və təkamülə çatmasının öyrənilməsində antropologiya elminin rolu son dərəcə böyükdür.

Etnoqrafiya elmi hər hansı bir materialı təkcə qeydə almaq, təsvir etmək kimi deyil, eyni zamanda onun necə əmələ gəldiyinin bərpasına çalışır, əhəmiyyətini göstərir, sadədən mürəkkəbə doğru inkişaf mərhələlərini izləyir. Müqayisəli materiallarla tədqiq edir. Tarixi ardıcıllığı üstün tutur. Etnoqrafiya xalqın əmək fəaliyyətinin zəngin irsinin, dünyagörüşünün araşdırılmasında əvəzsiz rol oynayır.

Azərbaycan xalqının etnoqrafiyası onun tarixi qədər zəngin və qədimdir. Bu çoxsahəli zəngin irsi hərtərəfli araşdırmadan, onun tarixini də yüksək elmi səviyyədə tədqiq etmək qeyri-mümkündür. Deməli, etnoqrafiya elmi hazırda qurub-yaradan Azərbaycan xalqının qədim və müasir tarixinin öyrənilməsinə təsirli kömək göstərir, onu yeni dəlil-sübutlarla zənginləşdirir [7, s.7].

Bu mənada tarix, etnoqrafiya, arxeologiya və folklorşünaslığın bir sıra problematik məsələlərdə eyni məqsədə xidmət etməsinə dair alimlərin elmi yanaşmaları, Azərbaycan kimi tarixi və coğrafi şəraiti, zəngin mədəni irsi olan bir ölkə xalqı üçün xüsusilə dəyərlidir. Çünki Avropa ilə Asiyanın ayrıcında yerləşən Azərbaycan əlverişli təbii-coğrafi şəraitə, mülayim iqlimə, münbit torpağa, zəngin yeraltı və yerüstü sərvətə malikdir. Dünyada mövcud on bir iqlim qurşağının doqquzunun Azərbaycanda olması bu torpağın bərəkətini artırıb, şöhrətini ucaldıb. Bu ərazi həqiqi olaraq bəşər sivilizasiyasının ilkin ocaqlarından biri kimi məşhurdur. Hələ iki milyon il bundan əvvəl burada ibtidai insanların məskən salması, güzəran keçirməsi, yaşayıb-yaratması, təkamül, tərəqqiyə çatması üçün hər cür şərait mövcud olmuşdur.

Qafqazın qoynunda yaşayan Azərbaycan xalqı bu qədim və müqəddəs ərazidə bərqərar olmuş, özünün yüksək təsərrüfat həyatını, sənətkarlığı, sənəti, maddi və mənəvi mədəniyyətini yaradaraq dünyanın ən qədim və mədəni xalqlarından biri kimi tanınmışdır. Etnoqrafik baxımdan dünyanın ən zəngin, çoxcəhətli və maraqlı guşələrindən biri olan Azərbaycanda insanlar minilliklər boyu Qafqaz və qədim Şərq xalqları ilə iqtisadi və mədəni əlaqədə olmuşdur. Yaranan bu qarşılıqlı təmasdan çox şey əxz etmiş və faydalanmış xalqımız eyni zamanda həmin xalqların tükənməz təsərrüfat həyatına, maddi

və mənəvi mədəniyyətinə çox şeylər bəxş etmiş, onu daha da zənginləşdirmişdir [7, s.6]. Eyni zamanda əlverişli təbii-coğrafi və iqtisadi-strateji məkanda yerləşmiş Azərbaycanda maddi mədəniyyətin təşəkkül tapması, inkişafı və yayılması üçün hər cür imkan və mövcud şərait olmuşdur. Xalqımız bu zənginliklərdən bəhrələnərək minilliklər boyu özünün çoxşaxəli və dərin məzmunlu maddi mədəniyyət sahələrini yaratmış və inkişaf etdirmişdir [8, s.4].

Bəşər sivilizasiyasının ilkin ocaqlarından sayılan Azərbaycanda ulu əcdadlarımız çox qədim dövrdən sığınacaq tapıb, məskən salıb, yuva qurub, ocaq çatıb, dövran sürüb, zaman-zaman yaşayıb, kamala yetib, təkamülə, tərəqqiyə çatıblar. Xalqımız ana vətəninin əsil sahibi, əvəzsiz varisi, qoruyub-saxlayanı, qurub yaradını olub, dünyanın ən qədim və mədəni etnoslarının biri kimi tanınıb, sayılıb, seçilib.

Heç təsadüfi deyildir ki, ümummilli liderimiz Heydər Əliyev də həmişə öz çıxışlarında bu məqamı xüsusilə vurğulamışdır: “Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasından tapılmış azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi mədəniyyət nümunələri, kurqan tapıntıları sübut edir ki, hətta miladdan

əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur" [16, s.23].

Azərbaycan ərazisinin son dərəcə əlverişli iqlim şəraiti, zəngin flora və faunası, yerli əhalinin qədimliyi, təsərrüfat məişəti, çoxsahəli sənətkarlığı, maddi və mənəvi dünyası onun etnoqrafik baxımdan daha çeşidli və məzmunlu olmasına əsaslı zəmin yaratmışdır. Etnoqraflar xalqın çoxsahəli fəaliyyətini geniş araşdırarkən onu təkcə qeydə almağa, təsvir etməyə deyil, eyni dərəcədə təhlilinə, bərpasına çalışır, xronoloji ardıcıllıq prinsipinə uyğun olaraq sadədən mürəkkəbə doğru inkişafını izləyir, ona zamanın tələbi baxımından yanaşırlar. Etnoqrafiya elmi hər hansı bir hadisənin, məsələnin və ya kiçik bir əşyanın necə yarandığını, hansı inkişaf mərhələlərindən keçdiyini, nə kimi deformasiyaya uğradığını, aradan çıxması səbəbini və ya inkişaf etməsi yollarını tarixi ardıcıllıqla izləyir və araşdırır. Xalqımızın çoxsahəli, zəngin irsini yetərincə və hərtərəfli öyrənmədən onun keçdiyi inkişaf mərhələlərini, mübarizəli tarixini, maddi və mənəvi dünyasını lazımi səviyyədə tədqiq etmək qeyri-mümkündür. Etnoqrafiya elmi hazırda qurub-yaradan xalqımızın qədim və müasir tarixinin, mədəniyyətinin əhatəli şəkildə öyrənilməsinə təsirli kömək göstərir, onu yeni dəlil-sübutlarla daha da zənginləşdirir, gələcək nəsillər üçün qoruyub saxlayır, mənəvi varisliyin tarixi ardıcıllığını təmin edir [8].

Etnoqrafiya folklorşünaslığın bir sıra cəhətləri ilə ortaq bağlarda birləşdiyi kimi digər elmlərlə də əlaqəli şəkildə inkişaf etməkdədir. Bu mənada etnoqrafik və folklor materiallarını öyrənmək üçün mühüm elm sahələrindən biri dialektologiyadır. Folklor nümunələri dialektdə yaranır ki, onları yazıya alarkən dialekt xüsusiyyətinin gözlənilməsi zəruridir. Folklorun dialekt xüsusiyyəti bədii vahidin yaranma dövrü barədə müəyyən materialı özündə qoruyub saxlayır. Dialektik materiallardan çıxış edib bədii mətnin yaranma dövrünü, onunla bağlı bir sıra tarixi həqiqətləri dürüstləşdirmək mümkündür. Dialekt xüsusiyyətinin araşdırılması dialektologiyanın predmetidir, folklor dilin və dil tariximizin öyrənilməsinin açarıdır [81, s.38].

Folkloru və etnoqrafik materialları öyrənmək üçün eyni zamanda xalq etikasını, hər bir xalqın əxlaq normalarını, etik qaydalarını öyrənmək lazımdır. Çünki əslində folklorda xalqın ədəb-ərkan aləmi daha bütöv şəkildə əks olunur. Şifahi yaradıcılığın iri həcmli janrlarından tutmuş, atalar sözü və məsəllərə, öyüd-nəsihətlərə, lətifələrə və s. qədər etik normalar, davranış qaydaları əks olunur. Əslində, folklorda xalqın etik mədəniyyəti tam halda yaşayır. Ona görə də milli etikanı bilmədən folklor mədəniyyətini öyrənmək mümkün deyildir.

Folklor ümumilikdə həyat gözəlliklərini, xeyir və şərin mübarizəsini, məslək və əqidə saflığını əks etdirir. İnsanlara xeyirxahlıq, yaxşılıq duyğuları aşılayır. Gözəl-

liklərin real və ya mifik, əfsanəvi və ya ilahi mahiyyəti adamlara zövq verir, insan zövqünü gözəlliyə, ülviliyə aludəçilik istiqamətində formalaşdırır. Folklor dünyanın olum-ölüm, gəlim-gedim həqiqətini təsdiqləyir, dünyanı gözəlləşdirmək və bu gözəlliklərdən faydalanmaq əxlaqını yaradır, hamını bu əxlaqı qəbul etməyə səsləyir. Folklor zülmü və zalımı rəhmə, insanı mənəvi bütövlüyə, kamilliyə çağırır. Ona görə də predmeti gözəllik olan estetikanı, onun elmi mahiyyətini bilmədən folklorun estetik dəyərini müəyyənləşdirmək olmaz. Estetikanı öyrənməklə şifahi yaradıcılığın gözəllik, ülvilik kimi zahirən gözə görünməyən tərəfi açılır [81, s.38-39].

Folklorda sadə bir xalq fəlsəfəsi var. Ziddiyyətləri və təzadları, təsadüfləri və qanunauyğunluqları özündə əks etdirən ağız ədəbiyyatını öyrənmək üçün fəlsəfəni bilmək gərəkdir. Bütün başqa xalqlarda olduğu kimi, Azərbaycan xalqının ictimai fikir tarixi də folklordan başlayır. Təəssüf ki, aparılan tədqiqatlarda və tarixi əsərlərdə ictimai fikrin bu bütöv, kamil və ilkin mərhələsi əslində indiyə qədər diqqətdən kənarda qalmaqdadır. Dünyanın, insanın yaranması ictimai münasibətlərin formalaşması və ümumilikdə dünyanın dərk olunması barədəki miflərdə, əfsanələrdə, əski türk dastanları və oğuznamələrdə əks olunan dünyagörüşü Azərbaycan ictimai fikrinin erkən qaynaqlarıdır. Azərbaycan ictimai-fəlsəfi fikrinin bu mərhələsi minilliklərlə şərtlənən bir dövrü əhatə edir. Azərbaycan ağız ədəbiyyatını öyrən-

mək üçün həmin qaynaqlardan başlayan milli fəlsəfəni və Azərbaycan ictimai fikir tarixini bilmək gərəkdir.

Azərbaycan türklərinin ağız ədəbiyyatının önəmli tarixinə bələd olmaq üçün insanın ümumi inkişafını öyrənən antropologiya elminə də bələd olmaq gərəkdir. Çünki türkün antropoloji strukturu dünya adamının ən arxaik antropoloji strukturlarındandır. Onun ilk izləri Zaqafqaziya ərazisində təkamül keçmiş Azıxantropda öz əksini tapmışsa, bu gün dünya elmi Avropa insan tipinin ilk beşiyinin də Qafqaz antropogez zonası olduğunu açıqlamaqdadır. Antropoloji tədqiqatlara rəvac verən, bu gün Azərbaycan türklərinə məxsus arxeoloji araşdırmalar da ağız ədəbiyyatının öyrənilməsində milli arxeologiyanı ön plana çıxarmışdır. Arxeologiya folklor yaradıcılığına məxsus bir sıra həqiqətlərin açıqlanmasında həmçinin mühüm qaynaqlardan biri hesab edilir.

Azərbaycan folklorunun dərin qatlarını açıqlamaq üçün teologiya və ilahiyyat elmlərinə də bələd olmaq lazımdır. Uzun müddət ağız ədəbiyyatı din və təriqətlərdən təcrid olunmuş şəkildə araşdırılmışdır. İstər zərdüştilik, istərsə də islam qaynaqları ilə xalq ədəbiyyatı arasında uçurumlar yaradılmış, onun bu istiqamətdə araşdırılmasına bəzən qadağalar qoyulmuşdur. Lakin ağız ədəbiyyatını bu nəzəri görüşlərdən kənarda götürmək onu yalnız məhdud qəlibə salmaq və cılızlaşdırmaqdan başqa bir şey deyildir. Teologiya və ilahiyyatla sıx bağlı olan şifahi yaradıcılıq bu gün yeni bir istiqamət kimi ciddi araşdırmalara möhtacdır.

Ağız ədəbiyyatının bu günə qədər az toplanmış sehr, ovsun, ürəyədamma, göstərmə, gözəgörünmə, qarabasma, ruh və başqa janrlarını araşdırmaq üçün elmlərin sinkretizmindən doğan müşahidələrə ehtiyac duyulur. Psixologiya, parapsixologiya, etnopsixologiya və təbabətin yeni-yeni sahələrinin folklorşünaslıqla sintetikliyi əsasındakı müşahidələr xalq yaradıcılığında hələ sirr olaraq qalmaqda olan bir çox müəmmaların elmi mahiyyətini açmağa imkan verərdi [81, s.39-40].

Görkəmli etnoqraf və folklorşünas alimlərin gəldikləri qənaətlər də təsdiqləyir ki, milli-mədəni irsin öyrənilməsində bir sıra elmlərin qarşılıqlı əlaqəsinə ehtiyac vardır. Təsadüfi deyil ki, avropalılar folkloru ilk vaxtlar etnoqrafiya, psixologiya, bir sıra hallarda sosiologiya və xalq tamaşaları, ayin və etiqadları məcmusunda götürürdülər. Belə hallarda folklor yuxarıda adları çəkilən sahələrin elementlərini özündə əks etdirən bir yaradıcılıq sahəsi hesab edilirdi. Lakin hər bir yaradıcılıq sahəsi onun özünəməxsus xüsusi predmeti ilə müəyyənləşdirilə bilərdi və təbii ki, folklorun predmeti dürüstləşdirildikdən sonra o, psixologiya, etnoqrafiya, antropologiyadan ayrılıb müstəqil tədqiqat obyekti kimi öyrənilməyə başlandı. Son vaxtlara qədər bir sıra janrlar, məsələn, oyun, meydan tamaşaları və s. etnoqrafiya hesab edildiyindən onlardakı folklor elementləri nəzərə alınmır və oyunlar kimi dramatik növün bir sıra janrları folklorşünaslığın diqqət mərkəzindən kənarda qalırdı

[81, s.107]. Bütün hallarda folklorun və etnoqrafik irsin bütöv bir kulturoloji vahid halında öyrənilməsinin yalnız digər ictimai, sosial və humanitar elmlərlə vəhdətdə mümkün olması tezisi elmi sayıla bilər.

Azərbaycan folkloru və etnoqrafik irsi bütöv bir kulturoloji vahid halında götürülsə də, təbii ki, bu vahidliyin içərisində ümumi və ortaq cəhətlərlə yanaşı, yerli şəraitdən irəli gələn müəyyən fərqli çalarlar da vardır. Bu mənada Naxçıvan folklorunun, o cümlədən də dialektinin özünəməxsus xüsusiyyətləri vardır ki, bu da bu bölgənin indiyədək öyrənilməmiş materiallarının öyrənilməsi işini aktuallaşdırır. Sevindirici haldır ki, son illərdə bu sahədə bir sıra elmi-tədqiqat işləri aparılmış, tədbirlər həyata keçirilmişdir.

Mütəxəssislərin həmin folklor toplamaları zamanı apardıqları araşdırmalar söyləyicilərin danışdığı nağıllarda, əfsanə, ovsun və bayatılarda ifadə olunan fikir bütövlüyünün min illərlə davam edən sosial və etnik-mədəni proseslərin yadigarı olduğunu deməyə tam əsas verir. Ümumxalq yaradıcılığının məhsulu olan bu nümunələrdə dünyanın və türk etnosunun yaranışı, təbiət hadisələrinin baş verməsi ilə bağlı təsəvvürlər ortaq türk düşüncəsinin əsasını təşkil edən xüsusiyyətləri əks etdirir. Bu baxımdan folklor nümunələrinin və onların variantlarının yayılma arealının müəyyənləşdirilməsi də mühüm əhəmiyyətə malikdir. Məlum olduğu kimi, mifoloji düşüncə tərzi, yüksək bəşəri ideyalar, mütərəqqi fikirlər

bütün millətlərin, xalqların yazılı və şifahi ədəbiyyatında öz yerini almışdır. Amma hər bir etnosun, xalqın yaratdığı hissi obrazlar onun tarixini, mənəvi dünyasını əks etdirmiş, onun yaşadığı coğrafiya ilə sıx bağlı olmuşdur. Tarixin yüksələn xətlə inkişaf edən pilləsində milli düşüncə, dil, davranış və s. xüsusiyyətlərlə xarakterizə olunan dəyərlər formalaşmış, sistemli şəkildə folklor nümunələrində əks olunmuşdur. Bu dəyərlər isə öz növbəsində zamanın sınağından keçmiş, inkişaf etmişdir [51, s.10-11].

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun folklorşünaslıq şöbəsinin son illərdə gördüyü işlər də təqdirəlayiqdir. Məsələn, şöbənin əməkdaşı Məhsəti İsmayılın "Xalq yaddaşının izləri" adlı folklor toplusunu [42] hazırlamaqda məqsədi unudulmaqda olan xalq yaradıcılığı nümunələrini qoruyub saxlamaqdır. Topluda Azərbaycan folklorunun müxtəlif janrları və yer-yurd adları öz əksini tapmışdır. Gənc tədqiqatçının el-el, oba-oba gəzib topladığı bu materiallar Azərbaycanın ən ucqar guşələrindən biri olan Şahbuz rayonunun əhalisi arasında qorunub saxlanan şifahi xalq yaradıcılığı nümunələrinin yalnız müəyyən bir qismini əhatə edir. Toplunu vərəqlədikcə yurdumuzda məskən salan qədim tayfaların silahlarının cingiltisini, onların yağılara qarşı barışmaz hayqırtısını, mübarizə əzmini, yenilməz igidlər böyüdən, şəhidlər verən analarımızın səsini eşidir, ruhunu

duyuruq. Min illər, yüz illər bundan əvvəl formalaşan miflər, əfsanələr, nağıllar, ağılar və bayatılar xalq zəkasının süzgəcindən keçərək bu günümüzlə səsləşən, xalqımızı mübarizəyə səsləyən poetik nümunələr kimi öz dəyərini qoruyub saxlamış, mənəviyyatımızın tükənməz mənbəyinə çevrilmişdir [42, s. 3-4].

İsa Həbibbəyli və Vəli Baxşəliyevin nəşrə yazdıqları ön sözdə deyilir ki, toplunun üstün cəhəti xalq dilinin saxlanmısı və toplanmış materialların olduqca az redaktə edilməsidir. Belə hesab edirik ki, toplunun bu şəkildə nəşri onun ilk mənbə kimi dəyərini daha da artırır. Çünki hədsiz redaktələr folklor materiallarının ilkin formasını, bəzən isə məzmununu da dəyişir ki, bu da xalqımızın qədim təfəkkür tərzi ilə bağlı olan müəyyən məqamlarını izləməyə imkan vermir. Müəyyən zaman və məkan daxilində baş verən hadisələrin hissi ifadəsi olan folklorumuz yalnız ədəbiyyatımızın öyrənilməsi üçün deyil, xalqımızın sosial-iqtisadi və siyasi həyatının müxtəlif sahələrini, mifologiyasını, dünya haqqında təsəvvürlərini araşdırmaq üçün də mühüm əhəmiyyətə malikdir. Elə folklor nümunələrimiz vardır ki, tariximizin heç bir arxeoloji və yazılı mənbədə əks olunmayan səhifələrini özündə maddiləşdirərək qoruyub saxlamışdır. Şahbuz rayonundan toplanan folklor materialları da belə dəyərli cəhətləri ilə fərqlənir. Azərbaycanın şimalı ilə cənubunu birləşdirən ən mühüm hərbi və ticarət yolu üzərində, strateji cəhətdən əlverişli mövqedə yerləşən

Şahbuz rayonu Azərbaycanda baş verən sosial-siyasi hadisələrdə mühüm rol oynamışdır [42, s.5].

Güneyli-quzeyli Azərbaycan folklorunun nəhəng coğrafiyasında öz mədəni-məhəlli sistem əlamətləri və sosial-mədəni mühit atributlarına görə Naxçıvan folklor mühiti öz avtonomluğu ilə seçilir. Naxçıvan folklor mühitinin mövcudluğu bütün hallarda üzərində durduğu ərazi-inzibati vahidinin fiziki-təbii varlığına dayansa da, avtonom folklor mühitinin varlığı həmin ərazi-inzibati mühitdə reallaşan folklor sisteminin kültür özünəməxsusluğunun olub-olmaması, məhəlli əlamət və atributlarının sistem səviyyəsinə qalxa bilib-bilməməsi ilə şərtlənir. Bu mənada "Naxçıvan folkloru antologiyası"nın I cildi Azərbaycan folklor xronotopunun nəhəng coğrafiyasında Naxçıvan folklor mühitinin varlığını janr sisteminin bütövlüyü, ümumazərbaycan folklor düşüncəsinin Naxçıvan kodunun sistem kamilliyi, mühitin folklor obrazının bitkinliyi və mükəmməlliyi, coğrafi kültür simvolikasının məhəlli atributlar sisteminin tamlığı səviyyələrində birmənalı olaraq təsdiq və təsbit edir. Məhz bu məqamı nəzərdə tutaraq Yaşar Qarayev yazırdı ki, xəritəmiz yalnız folklorumuzda dəyişməyib, bütün qalıb. Kərkük, Təbriz, Göyçə, Qarabağ, Dərbənd, həmçinin Borçalı bu xəritədə öz əksini tapmışdır. Belə bir bütöv mənəvi məkanı özündə ehtiva edən məhz folklorumuzdur ki, biz bunu təkcə Novruz mərasimlər sisteminin nümunəsində də görə bilirik. Bu özünü həm zaman

anlamında, həm bayram atributlarında və rəmzlərində, həm də mərasim personajlarında büruzə verir.

Son dövrlərdə folklorşünaslar toplanmış materialların tədqiqi zamanı analitik və müqayisəli təhlil, tipoloji təsnifat üsullarından peşəkarlıqla istifadə edirlər. Naxçıvanda yaşayan qədim türklərin mifoloji dünyagörüşü, etik-əxlaqi dəyərləri, bəşəri düşüncələrinin bu üsulla araşdırılması, təbii ki, müsbət nəticə vermişdir. Məsələn, Məhsəti İsmayılın digər bir tədqiqatında – "Naxçıvan əfsanələri"nin toplanmasında bu üsulun tətbiqi zamanı Azərbaycan folklorşünaslarından Məmmədhüseyn Təhmasib, İsrafil Abbaslı, Azad Nəbiyev, Əhliman Axundov, Mirəli Seyidov, Vaqif Vəliyev, Təhmasib Fərzəliyev, İsa Həbibbəyli, Məhərrəm Cəfərli, Paşa Əfəndiyev, Bəhlul Abdullayev, Sədnik Paşayev və digər tədqiqatçıların təcrübəsindən istifadə edilmişdir [42, s.11].

Milli-mənəvi dəyərlərimizin canlı yaşadıcısı xalqımız, daşıyıcısı folklorumuzdur. Toy mərasimlərində, Novruz şənliklərində, həyatımızda, məişətimizdə nə varsa – onun nüvəsində folklorumuz dayanır. Milli ədəbərkan, əxlaq normaları, inanclar, sınamalar, yasaqlar hər birimiz üçün ulularımızın müəyyənləşdirdiyi qaydaqanunlardır. Əsrlər boyu xalqımızın həyat tərzi, adət-ənənəsi, ictimai dünyagörüşü və dini inancları sözə çevrilib, yaddaşlara hopub, sonra da yaddaşlardan damla-damla süzülərək yaşamağa başlayıb. Qanadlanaraq ağızdan-ağıza, dildən-dilə dolaşan söz müxtəlif formalara

düşüb. Əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə uzun bir yol keçib. Cilalanaraq hikmət xəzinəsinə çevrilib, xalqın ruhunda özünə taxt qurub, yaşayıb. Və elə xalqın ruhunda özünə məskən seçdiyinə görə "xalq hikməti", "xalq ədəbiyyatı", "ağız ədəbiyyatı", "el ədəbiyyatı" adlandırılıb. Ağızdan-ağıza, dildən-dilə dolaşa-dolaşa sinələrdə özünə məskən salan şifahi xalq ədəbiyyatı keçmişin sirli-sehrli, üstünü toz basmış xatirələrinə ayna tutmaqla, keçmişimizə, dünənimizə boylanıb baxmağımızda ən yaxın köməkçi, yoldaş bəzən də sirdaş olub bizə.

Azərbaycanda hər regionun, hər rayonun və hətta hər kəndin özünəməxsus folkloru, xalq yaradıcılığı olduğu kimi, Naxçıvan folklorunun da Azərbaycan folklorunda bəlli yeri var. Naxçıvan folkloru öz üslubi xüsusiyyətləri, məna çalarları və əhalinin həyat tərzinə müdaxiləsi ilə seçilir. Bölgənin əhalisi folkloru həyatının bir hissəsi, bir parçası hesab edir [26].

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun folklorşünaslıq şöbəsinin müdiri Məhərrəm Cəfərli folklorşünaslığın müasir durumu haqqında bildirir ki, "1994-cü ildə "Azərbaycan Folkloru Antologiyası"nın Naxçıvan cildi, 2007-ci ildə "Naxçıvan Folkloru" kitabları çap olunsa da, Şahbuz, Ordubad, Şərur bölgələrindən toplanmış materiallar ayrı-ayrı işıq üzü görsə də bu, o demək deyil ki, biz Naxçıvandakı bütün folklor materiallarını toplamışıq. Ancaq bizim işimiz folklor materiallarını toplamaq, sistemləşdirmək,

çap etdirməkdən, folklorla bağlı elmi məqalələr yazmaqdan, elmi-konfrans və simpoziumlarda iştirak edərək folkloru hər kəsə təbliğ etməkdən ibarətdir" [26].

Gələcəkdə çap olunacaq Naxçıvan Folkloru Antologiyasını və Naxçıvan Folklor Atlasını hazırlayarkən diqqətli və məsuliyyətli olmağın zəruriliyinə toxunan Məhərrəm Cəfərliyə görə əgər insan bir işi görərkən ona cani-dildən can yandırarsa, o işin də qiyməti, dəyəri olar. Ona görə də biz əsas diqqəti yeni materialların toplanmasına yönəltmişik. Azərbaycanda folklorşünaslıq sahəsində işlər yüksək səviyyədə aparılır. Bizim folklorşünaslar dünyanın bir çox yerlərində tanınırlar. Və onlar Azərbaycan folkloru incilərini dünyada elmi dövriyyəyə ötürmək sahəsində əsl vətəndaşlıq qeyrəti və məsuliyyəti ilə çalışırlar. Xüsusilə, müstəqillik illərində folklorumuzun toplanılması, tədqiqi milli strategiyaya daxil edilib, mühüm dövlət qayğısı ilə əhatə olunub. Milli Elmlər Akademiyasının ayrıca Folklor İnstitutu, müxtəlif tədqiqat institutlarının və universitetlərin folklorşünaslıq şöbələri və kafedraları yaradılıb. Onların hərtərəfli, məqsədyönlü fəaliyyəti daim diqqət mərkəzində saxlanılır. İşlərin milli müstəvidə, digər türk xalqları ilə qarşılıqlı şəklidə aparılması isə dövlət müstəqilliyimizin milli nailiyyətlərindən, mühüm töhfələrindəndir [26].

Fikrimizcə, görülmüş işləri, alimlərimizin folklor və etnoqrafik irsimizin öyrənilməsi və tədqiqi sahəsindəki xidmətlərini dəyərləndirməklə yanaşı deyilməlidir

ki, kultiuroloji fikir tariximizin hələ də qaranlıq qalmış tərəflərinə XXI yüzilliyin mütərəqqi elmi nailiyyətləri kontekstində yanaşmaqla tarixi keçmişimizin araşdırılması istiqamətində hələ çox işlər görülməlidir.

Bu mənada, bizim üzərində uzun illərdən bəri çalışdığımız "Naxçıvan rayon şivələrində terminoloji səciyyə daşıyan leksika" mövzusunda elmi-tədqiqat işi də hesab edirik ki, folklor və etnoqrafik irsimizin öyrənilməsinə kiçik bir töhfə olacaqdır. Biz bu tədqiqatımızda Naxçıvan bölgələrindən topladığımız folklor və etnoqrafik mahiyyətli toplama materiallarının izahlı açılışını verməyə çalışmışıq.

Elmi ədəbiyyatda "dialekt" termini (yun. dialektos – danışıq, şivə, ləhcə) – ümumxalq dilinin məhəlli qolu, xalqın, millətin bu və ya başqa ərazidə yaşayan müəyyən hissəsinin dili kimi təqdim edilir. Dilin dialektlərə bölünməsi xalqın tarixi ilə əlaqələndirilir. Göstərilir ki, dialektlər ədəbi dildən və bir-birindən özünəməxsus fonetik, leksik və qrammatik xüsusiyyətləri ilə seçilir; bir dialektdəki söz digər dialektdə ya işlənmir, ya da başqa şəkildə tələffüz edilir; bəzən eyni söz ayrı-ayrı dialektlərdə müxtəlif məna bildirir. Belə fərqlənmə sözün fonetik quruluşunda və qrammatik formalarda da müşahidə olunur. Azərbaycan dilinin dialekt və şivələri tarixi-coğrafi prinsip əsasında 4 qrupa (ş., q., şm. və c.) bölünür. Ərazi dialektlərindən başqa sosial dialektlər də var (arqo, jarqon) [13, s.432]. Biz də toplama materiallarının

araşdırılmasında bu elmi prinsipləri əldə rəhbər tutmağa səy göstərmişik.

Tədqiqat işində mövzunun aktuallığı əsaslandırılmış, dövlətimizin mədəniyyət sahəsindəki siyasətinin əsas konturları nəzərdən keçirilmiş, ölkə rəhbərliyinin milli-mədəni irsə qayğısının bariz ifadəsi olan qanun, fərman və sərəncamların mahiyyəti açıqlanmış, müstəqilliyimizin ilk dövrlərindən bəri Naxçıvanın maddi və mədəni irsinin mühafizəsi, tədqiqi və təbliği istiqamətində görülmüş işlərin, həyata keçirilmiş tədbir və layihələrin əhəmiyyətinə toxunulmuşdur. Naxçıvan dialektlərinin terminoloji leksikası barədə məlumat verilmiş, Naxçıvan şivələrində işlənən bəzi termin səciyyəli sözlərin başqa qohum dillərlə müqayisəsi verilmişdir.

Toplama materiallarında əkinçiliklə bağlı terminlər, taxılçılıqla, becərmə və suvarma ilə, bağçılıq və üzümçülüklə, bitkiçiliklə, maldarlıqla, köçəriliklə əlaqədar olan sözlər yer almışdır. Habelə insan və heyvan xəstəlikləri, bunların təzahürü və müalicəsinə aid sözlərin, toxuculuğa, vəhşi heyvan, quş və həşərat adlarının, məişət leksikasına aid sözlərin, binaların, evlərin hissələrinə, tikinti materiallarına aid kəlmələrin, astronomik adların, baramaçılığa və arıçılığa aid terminlərin və nəhayət, toy və yas mərasimlərinə aid sözlərin işlədilmə arealı göstərilmiş və onların izahlı təsviri verilmişdir.

İXTİSARLAR

Kənd adlarının ixtisarı

Au. – Aşağı Uzun oba
Buz. – Buzqov
Q. – Qaraxanbəyli
D. – Didivar
Yu. – Yuxarı Uzunoba
Güz. – Güznüt
Güla. – Gülşənabad
Əlia. – Əliabad
N. – Nehrəm
Nəza. – Nəzərabad
P. – Payız
Sova. – Sovetabad
T. – Təzəkənd
Ç. – Çeşməbasar
C. – Cəhri
Cava. – Cavidabad. Araz su elektrik stansiyasının tikintisi ilə əlaqədar olaraq Qaraçur və Bulqan kəndlərinin əhalisi üçün salınmış yeni kənd.

Başqa ixtisarlar

Büt.ş. – bütün şivələrdə

Əks.ş – əksər şivələrdə

ADQQDŞ – Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri

QRM – Qaqauzsko-russko-moldavskiy slovar

KTR – Kratkiy turetsko-russkiy slovar

T.R. – turkmensko-russkiy slovar

ŞB – Şerbakın göstərilən əsəri nəzərdə tutulmuşdur

SM – S.Muradovanın göstərilən əsəri nəzərdə tutulmuşdur

Qeyd: *ərəb rəqəmləri səhifələri göstərmək üçündür*

NAXÇIVAN DİALEKTİNİN TERMİNOLOJİ LEKSİKASI

Azərbaycan dilinin leksikası olduqca zəngindir. Bu zənginlik tarixən inkişaf etmişdir. Azərbaycanın qədim tarixə malik olması onun leksikasında da öz izlərini göstərməkdədir. Müxtəlif tarixi dövrlərdə Azərbaycan xalqı başqa dövlətlərin istilasına məruz qalmışdır. Ərəblər, farslar, monqollar, ruslar və başqaları Vətənimizi zaman-zaman istila etmişlər. Məlumdur ki, istilaçılar xalqın var-yoxunu talamaq, onu istismar etməklə kifayətlənməmiş, xalqın dilini, dinini, ənənəsini, mədəniyyətini əlindən almağa çalışmışlar. Bütün bunlara baxmayaraq qəhrəman Azərbaycan xalqı öz ana dilini, tarixi mədəniyyət abidələrini qoruyub saxlamışdır.

Tarixin gedişi zamanı dilimizə bir sıra alınma sözlər – ərəb, fars, rus və Avropa xalqlarının sözləri daxil olmuşdur. Alınma sözlər ədəbi dildə daha çox özünü göstərir. Dialekt və şivələrdə buna ya təsadüf edilmir, ya da az miqdarda rast gəlinir. Məlumdur ki, leksika, xüsusilə lüğət tərkibi dilin nisbətən tez və sürətlə dəyişən və həm də getdikcə zənginləşən qismini təşkil edir. Ona görə də xalqımızın inkişafı tarixində keçirdiyi bütün ictimai formasiyaların izlərini, onun mədəni və mənəvi həyatını, sinfi və dinə qarşı aparılan mübarizəni, dilin təsiri ilə əmələ gəlmiş mistik təfəkkürün məzmunca dəyişildiyinə baxmayaraq, forma etibarilə hələ də yaşamaqda olduğunu, məişət məsələlərinin rəngarəng cə-

hətlərini leksika bu və ya digər şəkildə özündə əks etdirir.

Leksikanın bu qatını təşkil edən sözlərə bəzi yaşlıların nitqində rast gəlmək olar. Məsələn, ağa, bəy, kətda, qılava (Büt.ş.), kalladar (C.), xədək (N.), qıradavoy (C.), cuvar (Mya.) mirab (N.) – su gözətçisi, pristav (Büt.ş.) və s. bu kimi sözlər keçmiş vəzifə, rütbə, peşə sahiblərinin adları ilə bağlıdır. Din ilə bağlı olan sözlər də müəyyən dərəcədə işlədilir. Məsələn, şıx, alla′, kalbayı, məşədi, hacı, ocax (pir mənasında) və s. Məişət leksikasının maraqlı bir hissəsini də keçmiş ölçü vahidlərinin adları təşkil edir. Rayonun əksər şivələrində yaşlılar arşın, bir ağaş, girvənkə, yarım girvənkə, noxud ağırı (qızıl çəkisi), misqal (4 qrama bərabərdir), bir çərəx, yarım put, putüç xərək, bir xəlvər (25 pud), türə (C.) – 8 kiloqrama bərabərdir, çet qəpex və s. kimi ölçü vahidləri adlarını işlədirlər.

* * *

Naxçıvan şəhəri və Babək rayonu şivəsi Muxtar Respublika ərazisində yayılan şivələrdən biridir. Bu rayon əsasən Naxçıvan düzündə yerləşir. “Naxçıvan düzü Arazboyu düzənliyin böyük bir hissəsini təşkil edir. Naxçıvan düzü qərbdən Cəhri-Duzdağ tirəsi ilə, cənub-qərbdən Arazla, cənub-şərqdən Nehrəm-Ərəzin yüksəkliyilə, şimal-şərqdən Sirab, Nəhəcir, Xaçaparax xətti boyu Sarıdağ – Nəhəcir və Qırxlar dağının ətəyi ilə əhatə olunur. Bu düz Naxçıvan çayı, onun aşağı axınındakı

qolları, bir sıra təpəliklər, yarğanlar və dərələrlə parçalanır” [24].

Naxçıvan ərazisinin yuxarıda göstərilən müxtəlif coğrafi quruluşa malik olması bu rayonda yaşayanların leksikasına öz təsirini göstərməyə bilməz. Bununla əlaqədar olaraq rayonun şivələrinin leksikasında düz, dərə, təpə, dağ və sair coğrafi obyektlərə aid olan sözlər daha çox nəzəri cəlb edir. Məsələn, dərə, təpə, düz, tirə, yal, gədih, döş və s. bu kimi ümumi coğrafi adlarla yanaşı Duzdağ, Sirabdağı, Nəhəcirdağı, Asəf-kəf dağı, Böyükdüz, Pürcuvar düzü və s. xüsusi toponimik adları vardır.

Azərbaycanın ayrılmaz bir guşəsi olan Naxçıvan qədim insanın məskən saldığı ərazilərdən biridir. Naxçıvanın tarixi bizim eradan əvvəl III minilliyə aid edilir. Burada bir çox yadelli işğalçılar hökmranlıq etmişlər. Naxçıvan İran, Hindistan kimi Şərq ölkələrindən, Orta Asiyanın və Çinin şəhərlərindən Qərbə gedən ticarət yollarının üzərində yerləşmişdi, həmin dövrdən Naxçıvanda sənətkarlıq inkişaf etmiş, ticarət iqtisadiyyatın yüksəlməsində mühüm rol oynamışdı. Burada heyvandarlıq, əkinçilik, ipəkçilik, toxuculuqla məşğul olmuşlar. Bütün bunların sayəsində Naxçıvan şivələrinin leksikası öz zənginliyi ilə başqa dialekt və şivələrdən xüsusilə fərqlənir.

Dialekt leksikasının ən maraqlı qatını terminoloji səciyyə daşıyan leksika təşkil edir. Bu cəhətdən Naxçı-

van şivələrində işlədilən termin səciyyəli sözlərin öyrənilməsi də maraqlıdır.

Dilçilik ədəbiyyatında termin çox müxtəlif, bəzən qeyri-müəyyən mənalarda işlədilir. Görkəmli Azərbaycan dilçisi professor S.Cəfərov göstərir ki, elmin müxtəlif sahələrinə aid hər hansı bir əşya və ya mücərrəd anlayış məfhumunu bildirən sözlər termin adlanır. Terminlər həmişə dəqiq bir mənaya, müstəqil və aydın bir məzmuna malik olur [28].

İnsan həyatının müxtəlif sahələrini əhatə edən termin səciyyəli sözlər mövcuddur. Elm, texnika, incəsənət terminlərini, ictimai-siyasi terminləri, sənaye və kənd təsərrüfatı terminlərini, məişətə və qohumluq əlaqələrinə aid terminləri göstərmək olar.

Rayonun iqtisadiyyatında kənd təsərrüfatı əsas yerlərdən birini tutur. Taxılçılıq, üzümçülük və heyvandarlıq kənd təsərrüfatının mühüm sahələrindən biridir. Naxçıvan şivələrinin leksikasında həmin sahələri əhatə edən sözlərin bir çoxu nəinki ədəbi dilimizdə, hətta başqa dialekt və şivələrdə də işlənmir. Məsələn, məkə (qarğıdalı), gülbəsər (xiyar), alı (gavalı), düələh (əyri xiyar), qıraqırtış (kiçik yemiş toplusu), pazı (çuğundur), qorunkə (xəşənbül) və s. bu kimi termin səciyyəsi daşıyan sözləri göstərmək olar.

Buranın iqlim şəraiti üzümçülüyün inkişaf etdirilməsinə imkan verir. Naxçıvanda uzun müddət davam edən quru və soyuq iqlimə görə qışda üzüm tənəklərinin

üstü örtülür. Ağır zəhmət bahasına başa gələn üzümçülük təsərrüfatı ilə bağlı olaraq Naxçıvan rayonu şivələrinin leksikasında müxtəlif məzmunlu, müxtəlif çalarlı sözlər yaranmışdır. Məsələn, möv (tənək), mövlüx (üzüm bağı), mövrə (üzümün kəsilmiş çubuqları), mövüz (qurudulmuş üzüm), küdara (daldırma), milax (asma üzüm). Xəlili, Nəbi üzümü, südağ (süd rəngli, üzüm adı), tulagözü və s.

Naxçıvanın kəskin kontinental iqlimə malik olması, burada yağıntının azlığı, havanın quraq, yayın, qismən də payızın yağıntısız olması, qışın soyuq keçməsi bitki örtüyünün formalaşmasına təsir göstərmişdir.

"Naxçıvan MSSR-in ərazisi flora cəhətdən xeyli zəngindir. Burada 2000-dən artıq ali bitki növünə rast gəlmək olar" [24, s.84]. Həmin bitkilərin bir çoxundan xalq təbabətində, həmçinin elmi təbabətdə dərman kimi istifadə olunur. Bu bitkilərin əksəriyyəti yerli əhali tərəfindən adlandırılmışdır. Məsələn, həmərsün (itburnu), morçalıx, bolu, qabalax, qarayonca, çilədağ, pişpişə, şətərə və s. kimi bitki adlarına nə ədəbi dilimizdə, nə də başqa dialekt və şivələrdə rast gəlinir.

Bu bölgənin sakinləri ipəkçilik və xırda sənətkarlığın ayrı-ayrı sahələri ilə uzun müddət məşğul olduqlarından leksikanın bu sahəsində də başqa dialektlərlə müqayisədə mühüm fərq nəzəri cəlb edir. Məsələn, qədələ (kiçik küpə), əngənəh (xəmir tabağı), xum, torpaqqazan (qab düzəltmək üçün torpaq çıxarılan yer) kimi sözlər

dulusçuluqla, qarışqa yuxusu, şümşürüt yuxusu, künar və s. sözlər baramaçılıqla bağlıdır.

Naxçıvanda heyvandarlıq, əsasən qoyunçuluq geniş yayılmışdır. Qoyunçuluqla bağlı olan sahələrdən biri də toxuculuqdur. Naxçıvan əhalisinin ən qədim məşğuliyyət sahələrindən biri olan toxuculuq leksikanın bu sahəsinin zənginliyində özünü göstərir. Burada müxtəlif naxışlı xalça, cecim, xurcun, corab, palaz, ip növlərinə rast gəlmək olar.

Təsərrüfatın tarixən qədim, zəhmət tələb edən, lakin iqtisadi cəhətdən əhəmiyyətli sahələrindən biri də arıçılıqdır. Naxçıvanın bitki örtüyünün zənginliyi bu sahənin inkişafına öz müsbət təsirini göstərmişdir. Rayonda arıçılıq təsərrüfatı fəaliyyət göstərir. Rayonun şivələrinin leksikasında arıçılıqla bağlı olan söz və terminlər də müəyyən dərəcədə işlənir.

Ümumiyyətlə, Naxçıvan şivələrində terminoloji səciyyə daşıyan leksika çox zəngindir. İstər iqtisadiyyatın bütün sahələrini, istərsə də, mədəniyyət və sənətkarlığı, mənəviyyatımızı əhatə edən termin səciyyəli sözlər Muxtar Respublikanın mədəni inkişaf tarixindən xəbər verir.

NAXÇIVAN ŞİVƏLƏRİNDƏ İŞLƏNƏN BƏZİ TERMİN SƏCİYYƏLİ SÖZLƏRİN BAŞQA QOHUM DİLLƏRLƏ MÜQAYİSƏSİ

Azərbaycan dili öz quruluşu etibarilə dünya dilləri içərisində mühüm yer tutan türk dilləri ailəsinə daxildir. Bu bir həqiqətdir ki, başqa dillərin təşəkkülündə olduğu kimi, Azərbaycan dilinin təşəkkülündə də bu və ya digər qohum dillər böyük rol oynamışdır. Demək olar ki, vaxtilə eyni bir mənşəyə bağlı olmuş bir sıra dillər müxtəlif inkişaf şəraitində getdikcə bir-birindən uzaqlaşmış və müstəqil dillər kimi təşəkkül tapmışdır. Eyni mənşədən təşəkkül tapan türk dillərinin inkişaf mərhələsini N.A.Baskakovun ümumtürk dillərinə verdiyi təsnifdən aydın görmək olar.

Türk xalqlarının əksəriyyəti köçəri həyat sürmüşlər. Onlar əsasən heyvandarlıqla məşğul olmuşlar. Buna görə də həmin xalqların leksikasında heyvandarlıqla bağlı olan bir sıra terminlər vardır, həm də çox maraqlıdır ki, bu terminlərin əksəriyyəti sırf türk sözləridir.

Dialekt xüsusiyyəti daşıyan və heyvandarlıqla bağlı olan bir neçə sözün türk dilləri ilə müqayisəsi yuxarıda dediklərimizə misal ola bilər.

Ayqır sözü altay, başqırd, qazax, qırğız, qara-qalpaq, qumuq, noqay, tatar, türkmən, özbək, uyğur dillərində də eynilə işlənir (ŞB, s.153).

Ayğır sözü müasir türk dilində beygir (KTR, s.60) formasında eyni mənanı verir. Lakin müasir qaqauz dilində beygir (QRM, s.78) at deməkdir. Müasir qaqauz dilində at sözünə az təsadüf edilir. "Bu sözə xalq mahnılarında və xalq yaradıcılığının müxtəlif janrlarında təsadüf edilir" [111, s.221]. M.Quboğluya görə, beygir sözü qaqauz dilinə türk dilindən keçmişdir (Onu da xüsusi qeyd etmək lazımdır ki, sovetlər dönəmində eyni kökə məxsus olan türk dilli xalqları bir-birindən aralı salmaq üçün bu cür ifadələrdən idtifadə edilərdi).

Ayğır – beygir sözləri mənşəcə eyni olmuş, sonralar fonetik hadisəyə uğrayaraq ayrı-ayrı forma almışdır.

Naxçıvan şivələrində işlənən day və dayça sözləri türk dilləri ilə müştərəkdir. Bu sözlər altay, qazax, tatar dillərində tay (bir illik at), başqırdca tay, özbəkcə toy, yakut dilində tıy (iki illik at), xakas dilində tay (iki yaşdan üç yaşadək at) şəklində işlənir.

Dana sözü başqırdca tana (bir ildən iki yaşa qədər), qaqauz dilində dana, qırğız, noqay, tatar, özbək dillərində tana (iki yaşda), qara-qalpaq, türkmən dillərində tana, türkcə dana formasında işlədilir (ŞB, s.101).

A.M.Şerbakın fikrincə, tana sözü ilk zamanlar dişilərə mənsub olmuşdur və bu türk xalqlarının əksəriyyətinin dilində özünü göstərir. Bəzi türk dillərində tana sözü semantik cəhətcə dəyişibdir. Həmin söz Naxçıvan şivələrində düə, qaqauz, noqay, türk, türkmən dillərində duva // düya – üç illik inək mənasında işlənir.

Şişək sözü başqırdca şeşak (iki yaşdan üç yaşadək qoyun), qaqauz dilində şişek (üçillik qoyun), qırğızca şişek, işek (axtalanmış ikiillik erkək), tatarca şeşak, türkcə şişek, özbəkcə şişak (bir yaşdan iki yaşadək qoyun) kimi işlədilir (ŞB, s.115).

Oğlax sözünə qaqauz dilində olak, türk, uyğur dillərində oğlak, türkməncə ovlak deyilir (ŞB, s.119).

Ulax sözü türk dillərindən ancaq türkmən və qırğız dillərində işlənir. Bu sözə türkmən dilində ulaq (TR, s.659), qırğız dilində ulo (ŞB, s.123) formasında təsadüf edilir.

Bizcə ulo sözü ulax olmuş, sonralar a, x səsləri fonetik hadisəyə uğramış a′o əvəzlənməsi getmiş, x səsi isə düşmüşdür. Bu da təsadüfi deyildir. Ulax sözü şivələrdə tərkib daxilində ula şəklində işlənir. Məsələn, "A bala o ulaa dişaa burax" (C.).

Qodux sözü qaqauzca koduk, qazaxca kodık, qırğızca kodik, türkcə kuduk, türkməncə ğodık kimi işlənir. Naxçıvan şivəsində işlənən xotux forması özbək dilində xutik, uyğur dilində isə xotak kimi ifadə edilir (ŞB, s.124).

Əzman // dızman sözü qaqauz dilində azman (QRM, s.30) şəklində eyni mənada işlədilir.

Naxçıvan şivəsində işlənən suvarma ilə bağlı olan "xəkov suyu" ifadəsi də öz işlənmə dairəsinə görə maraqlıdır. Bu ifadə türkmən dialektlərində "xəkap suv" (əkindən sonra ilk su) kimi işlənir. Xəkab fars mənşəli sözdür. Xək // xak ərəbcə (torpaq), ab ərəbcə (su) deməkdir. Xakab torpaq suyu mənasını ifadə edir. Naxçıvan şivə-

sində işlənən “xəkov suyu” ifadəsinə gəlincə, məlumdur ki, alınma sözlər dialektdə fonetik dəyişikliyə uğrayır. Beləliklə, demək olar ki, “xəkov suyu” ifadəsi fars dilindən alınmadır.

Türk dillərində toxuculuq terminləri qədim bir dövrü əhatə edir. Bu səbəbdən də leksikanın toxuculuq sahəsində qohum dillərdə bəzi terminlər üst-üstə düşür.

Məsələn, arğac (TR, s.49), darak (toxuculuq aləti) (TR, s.246), keçə (TR, s.396), kilim (TR, s.397), palas (TR, s.512), çuval (TR, s.739), eriş (TR, s.792), yumak (TR, s.801), türkmən dilində, ip (KTR, s.191), yümak (KTR, s.397), yün (KTR, s.398), türk dilində, arğac (QRM, s.52), qüjü (kücü) (QRM, s.122), darak – toxuculuq aləti (QRM, s.132), ip (QRM, s.204), yumak (QRM, s.220) və s. qaqauz ədəbi dillərinə mənsub olan sözlər Naxçıvan rayon şivələrində işləndiyi kimi eyni mənanı kəsb edir.

Köl (toxuculuqda gül adı) sözü türkmən dilinin təkə şivəsində qöl şəklində, pendin şivəsində ayna qöl (SM, s.251) naxış adı kimi işlənir.

Bitki adlarından qaqauz dilində alma (s.42), armut (s.53), quven (s.221) – gəvən, keviz (s.185) – cəviz, injir (s.203), yonja (s.219) [112], türkmən dilində alça (s.42), armıt (s.52), badam (s.65), badamjan (s.65), qazayak (s.139), qöven (s.193) – kəvən, quşqonmaz (s.216), qiyak ot (s.239), darı (s.247), injir (s.355), kişmiş (s.401), maş (s.467), narpız (s.470) – yarpız, üzərlik (s.669), çayır (s.718), esgeri üzüm (s.794), türk dilində ayva (s.47) –

heyva, biber (s.61), ceviz (s.77), çalı (s.81), çeltik (s.86), karpuz (s.212), kavun, (s.214), kuşkonmaz (s.241), sulu armut (s.331) sözləri Naxçıvan şivələri ilə müştərəkdir.

Türkmən, türk və qaqauz dillərində başqa terminlərə aid olan aşağıdakı sözlər də Naxçıvan şivələri ilə müştərək şəkildə işlənir.

Türkmən dilində: qarayelin (s.155), qöç (s.204) – köç, quymak (s.207), qurbağa (s.211), quşqun (s.216), qılıç (s.231) – toxuculuq aləti, qırğı (s.233), döl (s.282), kervenqıran (s.392) – ulduz, (s. 393), kırkayak (s.424) – həşərat, puxarı (s.538), uçuq (s.665) – dodağın uçuqlaması, çillə (s.732) – qış ayı, əpişqe (s.798) – xaqyşqa, yatak (s.821) – heyvan saxlanan yer.

Türk dilində: balkon (s.51), balta (s.51), bıldırcın (s.60), çıban (s.87), göç (s.152) – köç, keklik (s.217) kəx́liх́, ocak (s.281), sancı (s.311) – xəstəlik, tava (s.348), tilki (s.358) və s.

Qaqauz dilində: bülbül (s.100), bıçkı (s.102), boz qarğa (s.105), qayğana (s.105) – qayqanax, qöç (s.120) – köç, döşek (s. 160), yaba (s.207), yastık (s.217), yorğan (s.219) və s.

ƏKİNÇİLİYƏ AİD TERMİNLƏR

a) Bostan və tərəvəz məhsullarının adları

Qıra (Büt.ş.) – qovun tağında çiçəkdən sonra əmələ gələn bəhər. Qazax, İrəvan və Ordubad şivələrində də eyni mənada işlədilir [20, s.139].

Şirin qıra (Büt.ş.) – yetişməmişdən yeyilən qovun.

Şalax (Büt.ş.) – göy zolaqlı qovun.

Şamama (Büt.ş.).

Uzun qavın (C.).

Sarı qavın (Büt.ş.).

Köy qavın (Büt.ş.).

Şaxtaxtı qavını (Əlia., Cava., Q., Sova.) – uzun sarı rəngli qovundur. Ətri və şirinliyinə görə başqa qovunlardan seçilir. Şahtaxtı kəndində yetişdirildiyi üçün bu ad verilmişdir.

Böyükdüz qavını (Əlia., Cava., Q., Sova.) – çox da böyük olmayan sarı rəngli qovundur. Yetişəndə baş hissəsi partlayır. Ətirli və şirin olur.

İmişli yemişi (Büt.ş.) – sarı rəngli kiçik, girdə yemişdir.

Qarpız: qara qarpız: ala qarpız // mal qarpızı, xunu qarpız (uzunsov qarpız). Xunu qarpıza Göyçay rayonu şivələrində xonı qarpız [96, s.18] deyilir.

Boranı // qabax (Büt.ş.) – balqabaq.

Qara badımcan (Büt.ş.) – badımcan.

Gülbəsər (Büt.ş.) – xiyar.

Dü′ələx́ (Büt.ş.) – əyri xiyar.

Bibar (Büt.ş.) – bibər.

Şirin bibar (Büt.ş.).

Acı bibar (Büt.ş.).

Maş (Büt.ş.) – lobya, Ordubad Cəbrayıl, Qazax, Şahbuz, Salyan rayonlarında maş, Qubada moç [20, s.137] adlanır.

Attı maş (Büt.ş.) – kolu ağaca sarmaşan lobya. Göyçay şivələri leksikasında da eyni mənanı verir [21, s.18].

Çolax maş (Büt.ş.) – kolu alçaq, dik duran lobya növüdür. Yumşaq, ətirli paxlaları olur.

Məkə (Büt.ş.) – qarğıdalı, Ordubad, Şərur, Culfa şivələrində də belə işlədilir. Lənkəran rayonu leksikasında bu mənanı "məkə – boğda" sözü verir [20].

Qaragöz rehan (Büt.ş.) – reyhanın bir növü. Yarpaqları tünd qəhvəyi rəngə çalan reyhan.

Alagöz reyhan (Büt.ş.) – yarpaqlarının üstündə yaşıl, qəhvəyi rəngə çalan zolağı olur.

Qodem (Büt.ş.) – vəzəri.

İspanax (Büt.ş.) – ispanaq.

Pazı (Büt.ş.) – çuğundur. Qərb qrupu dialekt və şivələrində də pazı işlənir [22, s.232].

Bostan və tərəvəz məhsullarına aid olan bəzi sözlər ədəbi dildə müştərək işlənir. Bunlar aşağıdakılardır:

Kələm, pomidor, paxla, noxud, günəbaxan, tərxun, kəvər, keşniş, nanə və s.

b) Dənli bitkilər, taxılçılığa aid söz və terminlər

Arpa (Büt.ş.).

Şeşəli arpa (C., P., Buz.) – sünbülləri iki cərgəli, qılçıqlı küləşi sarıdır.

Yazdıx arpa (Büt.ş.) – yazda əkilən.

Payızdıx arpa (Büt.ş.) – payızda əkilən.

Naxçıvandəni (Büt.ş.) – həm payızda, həm də yazda əkilir. Yazda əkildikdə payızda əkilənə nisbətən dənləri xırda olur.

Buğda (Büt.ş.).

Cəfəri buğda (C., P., Buz.) – sünbüllüəri ağ, qılçıqlı, tüksüzdür. Dəni ağ rənglidir, tez yetişən buğdadır.

Qaraqılçıx (Büt.ş.) – sünbülləri iki cərgə düzülən, uzun qaraya çalan qılçıqları olan buğdadır.

Uruset buğdası (Büt.ş.) – sünbülləri qırmızı, tüklüdür.

Dəvədiş buğda (Büt.ş.) – bərk buğda növüdür. Sünbülləri qırmızı, tüklüdür. Qılçıqları qara olur.

Yazdıx buğda (Büt.ş.) – yazda əkilən buğda.

Payızdıx buğda (Büt.ş.) – payızda əkilən.

Yumşax buğda (Büt.ş.) – qırmızı, qılçıqlı, tüksüz sünbülləri olur. Dəni qırmızı və yumşqadır.

Bərk buğda (Büt.ş.) – sünbülləri ağ, qılçıqlı, tüksüzdür. Dəni ağ və bərk buğdadır.

Ağ buğda (Büt.ş.) – ağ, qılçıqlı, hamar sünbülə malikdir. Dəni ağ və bərk olur.

Qırmızı buğda (Büt.ş.) – sünbülləri qırmızı, qılçıqlı, tüksüzdür. Dəni qırmızıdır.

c) Başqa dənli bitkilər

Darı (Büt.ş.) – xırda sarı dənə malikdir. Kol şəkilli bitkidir, sallaq süpürgə şəklində olur.

Çəltix′ (Büt.ş.) – sünbülcükləri qılçıqlı, küləşi sarı, dəni ağdır.

Qaraqılçıx çəltix′ (Büt.ş.) – qonurumtul-qırmızı qılçıqları olan sarı rəngli sünbülcükləri vardır.

TAXILÇILIQLA ƏLAQƏDAR OLAN BAŞQA SÖZLƏR

Bafa (Büt.ş.) – biçinçinin bir əli dolana qədər biçdiyi taxıl. Qərb qrupu dialekt və şivələrində də eyni mənada işlədilir [22, 199].

Bağ (Büt.ş.) – 4-5 bafa bir yerdə bağlandıqda.

Püfə (Büt.ş.) – küləş tayasının yerində qalmış narın saman.

Kozar (Büt.ş.) – taxıl döyülərkən əzilməyən sünbül.

Çət (Büt.ş.) – taxıl qırıntısı.

Sürmə (Büt.ş.) – taxıl xəstəliyi. Sünbül yetişərkən dən əvəzinə qara toz əmələ gəlir.

Heşan (Büt.ş.) – xırmanda yerə yayılmış sünbül.

Kəpəx′ (Büt.ş.) – çəltikdən çıxan zibil.

Zılıf (Büt.ş.) – çəltiyin içərisində darıya oxşar bitki. Şəki dialektində su′luf şəklində eyni mənada işlədilir [50].

Savrıx (Büt.ş.) – taxılı küləyə ataraq təmizləmək.

Bəlim (Büt.ş.) – döyülmüş çəltikdən çıxan küləş.

Qeyd: *bəndəm, dərz, pəncə, taya, xirmən/xırman sözləri ədəbi dillə müştərəkdir.*

BECƏRMƏ VƏ SUVARMA İLƏ ƏLAQƏDAR OLAN SÖZ VƏ TERMİNLƏR

Arx (Büt.ş.) – su arxı.

Arx (Əlia., Cava., Q., Sova.) – xiyar əkmək üçün düzəldilən lək (kərdi) – on arx gülbəsərim var (Q.).

Ağız (Büt.ş.) – arxın ağzı, ləkin ağzı.

Bənd // bət (Büt.ş.) – su′n qabağını kəsəllər, ona bət deyərix′ (C.).

Şırım (Büt.ş.) – səpin zamanı sahədə yaranan cizgilərə deyilir.

Kərdi (Büt.ş.) – kiçik sahələrə ayırılmış əkin yeri.

Ləx′ (C.) – çəltik əkilən yer.

Sərəci (Büt.ş.) – lək və yaxud kərdilərin kənarına toplanan torpaq.

Xərə (C., P., Buz.) – sahə şumlanan zaman arada qalan əkilməmiş yer. Xərə şəklində Şahbuz rayonunda, xərəx′ formasında isə Qazax [20, s.409] rayonunda işlədilir.

Xişdəx′ (Büt.ş.) – üçbucaq yerə deyilir.

Xalı (Büt.ş.) – əkilməmiş sahə.

Oturax yer (C.) – rahat su içən yer.

Yamaş (C., P., Buz.) // qaçax (Naza., D., Au., Yu.) // yalax (Əks.ş.) – su durmayan yer.

Mora (Büt.ş.) – əkini suvarmaq üçün sahədə açılan arx.

Başqov mora (C., P., Buz.) – baş mora. Böyük sahədə bir-iki belə mora çəkilir.

Qola′rma mora (C., P., Buz.) – baş moralardan ayrılan bir neçə kiçik mora.

Selləmə suvarma (Büt.ş.) – suçunun nəzarət etmədiyi halda su sahəni basır. Buna selləmə deyilir.

Torpax suyu (Büt.ş.) – toxum səpiləndən sonra verilən su. Buna xəkov suyu da deyilir. Ağcabədi rayonu şivələrində toxum suyu deyilir [61].

Ləlov // dilov (Büt.ş.) – ikinci su. Ləl – qiymətli daş, dil – ürək deməkdir. Hər iki halda ikinci suyun vacibliyi bildirilir.

Dənov (Büt.ş.) – dördüncü su. Məhsul yetişən zaman verilən su.

BAĞÇILIQ VƏ ÜZÜMÇÜLÜYƏ AİD SÖZ VƏ TERMİNLƏR

Möv (Büt.ş.) – üzüm kolu, tənək. Mövəşə formasında Cənubi Azərbaycanda da işlədilir [20, s.330].

Haça (Büt.ş.) – tənəyin qaldırıldığı ağac.

Mövrə (Nəza., D., Yu., Au.) – üzümün kəsilmiş çubuqları. Mörə şəklində Qubadlı rayonu şivələrində də eyni mənanı verir [20, s.330].

Kəsməx′ (Au) – quru budama.

Şişəx′ möv (Büt.ş.) – ilk bəhər gözlənilən üzüm kolu.

Kudara (Au.) – daldırma. Üzüm kolunu artırmaq üçün tənəyin bir qolunu ayırıb yerə basdırmağa deyilir.

Yarma peyvas (Büt.ş.) – calaq növü.

Üsküx′ peyvas (Büt.ş.) – göz calağı.

Milax (Büt.ş.) – salxımı hündür yerdən asıb qışa saxlamağa deyilir.

Üzüm növləri

Ağ şanı (Büt.ş.).

Qara şanı (Büt.ş.).

Qızıl üzüm (Büt.ş.).

Hanaqırma (C., P., Buz.) // hənəqırma (Mya., Cava., Q., Sova.) payızda yetişən üzüm növüdür. Gilələri iri, göy rəngdə olur, baxanda tumları görsənir. Əsasən milaxda asılaraq qış aylarına, Novruz bayramına saxlanılır.

Xəlili (Büt.ş.) – tezyetişən dənəsiz ağ süfrə üzümüdür. Qabığı zərif olduğundan tez əzilir.

Kürdəşi (Büt.ş.) – salxımları sıx giləli olur. Giləsi ətli və şirin olur.

Nəbi üzümü (C.) – iri və uzunsov giləsi olur. Giləsi ətli və xoş tamlıdır. Bu üzüm də təzə halda yeyilir, həm də qurudulur.

Kişmişi (Büt.ş.).

Ağ kişmişi (Büt.ş.).

Kələmpiri (C.) – payızda yetişən iri giləli üzüm növüdür. Göy giləsi çətin əzilən və dadsızdır. Cəhridə bu üzüm həmçinin dadsız üzüm də adlandırılır.

Əskəri (Büt.ş.) – avqust ayında yetişir. Sarı zərif və dənəsiz giləsi ətli və olduqca tamlıdır.

Pişiyi (Büt.ş.) – salxımları sıx kiçik giləli olur. Sentyabrın axırında yetişən pişiyi üzümü həm yeyilir, həm də şərab istehsalında istifadə olunur.

Göaldərə (Büt.ş.) – göy aldərə. İri salxımları olur. Böyük göy giləsi uzunsovdur. Qabığı qalın olduğundan süfrəyə verilmir. Əsasən şərabçılıq üçün becərilir.

Ağaldərə (Büt.ş.) – quruluşca göy aldərə növünə oxşayır, ancaq giləsi ağa çalır.

Südağ (C., Nəza., D., Yu., Au.) – giləsi süd rəngindədir.

Keç′iəmcəyi (C.) // inəyəmcəyi (Əks.ş.) – uzunsov giləsi olduğu üçün belə adlandırılır. Süfrə üzümü növünə aiddir.

Gülabı (Büt.ş.) – salxımı iri və seyrəkdir. Çəhrayı gilələri xeyli iri, ətli və davamlıdır. Əsasən süfrəyə verilir.

Mələyi (Büt.ş.) – qaragilәlidir, şərab üzümüdür. Gilələri iri, ətli və suludur.

Şəfe′i′ (Büt.ş.) – salxımları və gilələri iridir. Çəhrayı gilələri uzunsov olub, ətli və tamlıdır. Əsasən süfrə üçün istifadə edilir.

Ağ üzüm (Büt.ş.).

Qara üzüm (Büt.ş.).

Alma növləri

Qırmızı alma (Büt.ş.).

Sö′ü′d alması (Büt.ş.).

Cıralma (Büt.ş.) – kiçik və turş olur.

Darabas alma (C., P., Buz., Nəza., D., Yu., Au.) – böyük, qırmızı-göy alma.

Kəpəx′ alma (Büt.ş.) – balaca, sarı rəngli yumşaq almadır.

Meyxoş alma (Büt.ş.) – turşməzə alma.

Payız alması (Büt.ş.) – payızda yetişən alma.

Turş alma (Büt.ş.).

Şirin alma (Büt.ş.).

Ağ alma (Büt.ş.).

Anton alma (Büt.ş.).

Armud növləri

Dağ armıdı (C., P., Buz.) – dağda bitən armud.

Qara armıd (C.) – Göyçay şivələrində qaratulux armıt deyilir [21, s.16].

Sarı armıd (C.) – yayın axırlarında yetişir. Kiçik sarı rəngli meyvə ətli və sulu olur. Xoş ətirə malik olan bu meyvə çox tamlıdır.

Turşu armıdı (C., P., Buz., Güla.) – meşədə bitir, kiçik meyvələri olur. Payızda yığıb duza qoyurlar.

Adamboğan armıd (C.) – yeyilməyən meşə armudu.

Çarxı armıd (C., P., Buz., Güla) // qızıl armıd (Əks.ş.) – iri qırmızı-sarı rəngli armuddur. Ətli, sulu meyvə ətirli və tamlıdır.

Palçıx armıd (C.) – dadsız armud.

Əndirgan armıd (Büt.ş.) – böyük armuddur. Göy rəngli meyvə, xoş iyə və yaxşı tama malikdir.

Uzunboğaz armıd (C., Pbuz., Güla) – Göyçay şivələrində bardaxboğaz armıd [21, s.16] adlanır.

Qoz növləri

Cəviz (Büt.ş.) – qoz.

Kətənköynəx′ cəviz (Büt.ş.) – nazik qabıqlı qoz.

Kor cəviz (C.) – içi olmayan qoz, puç.

Kağızı (Büt.ş.) – ağ, çox nazik qabıqlı qoz.

Alça növləri

Qırmızı alça (Büt.ş.).

Sarı alça (Büt.ş.).

Göycə – ilk dəfə yetişən göy rəngli şirin alça. Əsasən calaq yolu ilə artırılır.

Vələs alça (Büt.ş.) – şirin iri alça.

Payız alçası (Büt.ş.) – payızda yetişən alça.

Turş alça (Büt.ş.).

Cır alça (Büt.ş.).

Şirin alça (Büt.ş.).

Peyvəs alça (C.) – başqa alça növündən calaq edilən, həm tez yetişir, həm də şirin olur.

Yapon alça (Büt.ş.).

Mələs alça (C., P., Buz., Nəza.. D., Au., Yu.) – calaq yolu ilə yetişdirilir. Böyük, göy rəngli şirin alça növüdür.

Ərik növləri

Badam ərix′ (Büt.ş.) – badam dənəsinə oxşadığı üçün bu ad verilmişdir. Böyük ağ-çəhrayı ərikdir.

Camış ərix′ (C., P., Buz., Güla.) – böyük yumru ərikdir.

Qığ ərix′ (Büt.ş.) – kiçik ərik.

Ağ ərik′′ (Büt.ş.) – ağ rəngli iri ərik.

Naxçıvan əriyi (C.) – tez yetişən ağ-çəhrayı ərik.

Acıdənə (Büt.ş.) – tumu acı olan ərik.

Şalax ərix′ (Büt.ş.) – uzunsov iri ərikdir. Sarımtıl meyvə ətirli və tamlı olur.

Ekiz ərix″ (Cava Q.) – dənəsinin içərisində iki tumu olan ərik.

Abtalıb əriyi (C.) – Abtalıb adlı şəxsin yetişdirdiyi ərik növü. Ağ-çəhrayı böyük ərikdir.

Haxverdi əriyi (Q., Cava., Sova., Mya.) – Haqverdinin yetişdirdiyi ərik. İri, uzunsov meyvədir.

Ağqırmızı ərix′ (C.) – ağ-qırmızı rəngli yumru ərikdir.

Novrəst ərix′ (N.) – tez yetişən ərik növüdür.

Tut növləri

Bənəvşə tut (C., P., Buz., Güla.) – ağ-qırmızı tut.

Bedana tut (Büt.ş.) – dənəsiz tut.

Dana tut (Büt.ş.) – dənəli iri tut.

Peyvas tut (Büt.ş.) – tez yetişən tut. Ağ tut, qara tut, cır tut ədəbi dldə müştərək şəkildə işlənir.

Başqa meyvə növləri

Nar – turş nar, meyxoş nar, cır nar, şirin nar, güləşə nar (Büt.ş.).

Heyva (Büt.ş.).

Albuxara (Kəza., D., Au., Yu.) – gavalı. Göstərdiyimiz kənd şivələrində qara albuxara, sarı albuxara növləri də var.

Alı (Q., Cava) – gavalı.

Şəfdəli (Büt.ş.) – şaftalı.

Hülü (Əks.ş.) // hulu (C.).

Əncir (Büt.ş.) – incir//əncir.

İydə – cır iydə, xurma iydə (C.).

Badam, zoğal, püstə, gilas (ağ gilas, qara gilas, gilənar), şampan gilənarı (Büt.ş.) kimi meyvə adları ədəbi dillə müştərək şəkildə işlənir.

Üzümdə olan xəstəliklər

Qara çor (Büt.ş.) – yarpağın üstü qəhvəyi-qonur, altı isə ağ ləkələrlə örtülür. Xəstəliyə qarşı göydaş məhlulu ilə sönmüş əhəng məhlulu qarışdırılıb çilənir.

Qırmızı çor (Büt.ş.) – yarpaqlar qızarıb quruyur, sonra isə tənək zoğları qurumağa başlayır.

Gücü (Büt.ş.) – sarı sarmaşıq. Sarı-çəhrayı rəngli yarpaqsız bitkidir. Gövdəyə və yaşıl zoğlara sarmaşır və zoğun şirəsini sorur. Zədələnmiş tənəklər zəifləyir, zoğları pis inkişaf edir.

Göbələx′ xəstəliyi (Büt.ş.) – əvvəlcə tənəklər soluxmağa başlayır, yarpaqları bürüşüb yığılır. Beləliklə, bütün kol büzüşür və qısa müddətdə quruyur.

HEYVANDARLIQ

Yaşa görə inəyin növləri

a) dişilərdə:

bizov (C.) // (Əks.ş.) – bir günlükdən altı aylığa qədər yaşı olan inək balası.

Dana (Büt.ş.) – altı aylıqdan bir yaşa qədər.

Qısırəmən (Büt.ş.) – bir yaşdan iki yaşa qədər.

Dü′ə′ (Büt.ş.) – iki yaşdan üç yaşadək.

İnəx′ (Büt.ş.) – üç yaşda və yuxarı.

Bu sözlərin əsas qismi (inək, buzov, dana) ədəbi dildə müştərəkdir.

b) erkəklərdə:

Erkəx′ bizav (Büt.ş.) – bir günlükdən altı aya qədər.

Erkəx′ dana (Büt.ş.) – altı aydan bir yaşa qədər.

Erkəx′′ qısırəmən (Büt.ş.) – bir yaşdan iki yaşa qədər. Bir ildən sonra qısır qalan inək balasına süd verirsə qısırəmən deyilir.

Cöngə (Büt.ş.) – iki yaşdan sonra.

Buğa (Büt.ş.) – üç yaşdan sonra törədici erkək mal.

Öküz // kəl-kal (Büt.ş.) – üç yaşda axtalanmış mal.

Qeyd: *bunların bir qismi dialekt xüsusiyyəti (bizav, qısırəmən və s.) daşıyır.*

Rəng və başqa əlamətlərinə görə inək növləri

Alma inəx′ (C.) – tünd qırmızı rəngli.

Bəzəx′ inəx″ (C.) – dərisi zolaqlı inək.

Bozov inəx′ (C.) // boz inəx′ (Büt.ş.) – boz rəngli inək. pələbıynız (C.) // yapıx bıynız. Buynuzları yanlara əyilən inək. Qazax rayonunun Köçəskər və Muğanlı kəndlərində pələ sözü eyni mənada işlədilir [19, s.232].

Sarı inəx′ (Büt.ş.) – sarı rəngli.

Şeşbıynız inəx″ (C.) // Şeşəbıynız inəx′ (Büt.ş.) – buynuzları düz qalxan inək. Göyçay şivələrində belə inəklərə şişbuynuz deyilir [21, s.20].

Yaşa görə camış növləri

Balax (Büt.ş.) – bir günlükdən bir yaşa qədər.

Kəlçə (Büt.ş.) – iki yaşa keçmiş erkək bala.

Avara (Büt.ş.) – üç yaşa keçmiş dişilər belə adlanır.

Göyçay şivələrində avara bir yaşlı camış balasına deyilir [21, s.20]. Şəki dialektində isə avara sözü eyni mənada işlədilir [50, s.195].

Kəl (Büt.ş.) – üç yaşdan yuxarı erkək camış.

Camış (Büt.ş.) – üç yaş və yuxarı dişi camış.

MAL-QARADAN ALINAN MƏHSULLAR

Bunlara aid söz və terminlər

Ağuz (Büt.ş.) – təzə doğmuş heyvandan sağılan süd. Qərb qrupu dialekt və şivələrinin əksəriyyətində ağız şəklində, Qazax rayonunun Köçəskər kənd şivəsində isə ağızdıx formasında eyni mənada işlədilir [22, s.196].

Kələkey (Büt.ş.) – təzə doğmuş heyvandan birinci, ikinci gün sağılan südün (ağuzun) bişirilməsindən alınan ağartı. Ordubad dialektində kələkey. Kəlbəcər və Şahbuzda kələkə şəklində eyni mənanı verir [20, s.255].

Bulama (Büt.ş.) – ağuzun südlə qarışdırılıb bişirilməsindən alınan ağartı.

Qara qatıx (Büt.ş.) – yağ çıxartmaq üçün çalınıb dəridən hazırlanmış eymədə (tuluqda) saxlanılan qatıq.

Qurut (Büt.ş.) – süzülüb qurudulmuş ayran. Qərb qrupu dialekt və şivələrində qurut sözü eyni mənada işlənir [20, s.209].

Lor (Büt.ş.) – pendir suyundan hazırlanan ağartı.

Sarı yağ (Büt.ş.) – şit yağ.

Sərmə pənir (Büt.ş.) – üzünün yağı yığılmış süddən alınan pendir.

Sərmə süd (Büt.ş.) – üzü yığılmış süd.

Süzmə qatıx (Büt.ş.) – suyu süzülmüş qatıq.

Üzdü süd (Büt.ş.) – yağlı süd.

Üzdü pənir (Büt.ş.) – yağlı pendir.

Üzsüz pənir (Büt.ş.) // öküz pəniri (Q., Cava., Mya., Sova., N.) – yağsız süddən hazırlanmış pendir (yağsız pendir).

Üzsüz süd (Büt.ş.) – yağı çıxarılmış süd.

Xama (Büt.ş.) – emal maşınında süddən ayrılmış yağ; südün üzü. Eyni mənada qərb qrupu dialekt və şivələrində də işlədilir [22, s.244].

Çalası (Büt.ş.) – qatıq mayası. Çalası sözü Tovuz və Gəncə şivələrində də eyni mənanı verir [20, s.433].

Qeyd: *rayon şivələrində işlənən mal-qaradan alınan məhsullara aid söz və terminlərin bir qismi ədəbi dillə müştərəkdir. Belə sözlərə aşağıdakılar misal ola bilər: ayran, qatıq, qaymaq, kərə, pənir (pendir), şor.*

YAŞA GÖRƏ QOYUN VƏ KEÇİ NÖVLƏRİ

a) Qoyun növləri

Dişi quzu (Büt.ş.) – bir günlükdən altı aylığa qədər olan qoyun balası.

Dişi toxlu (Büt.ş.) – altı aylıqdan bir yaşa qədər.

Şişəx″ (Büt.ş.) – bir yaşdan iki yaşa qədər.

Kəzyazma (Büt.ş.) – bir bala doğandan sonra. Şəki dialektində kezazdıran formasında buğaya gəlmə vaxtını ötürən mala deyilir [50, s.195].

Üşdoğar (Büt.ş.) – üç bala verəndən sonra dişilər belə adlanır.

Erkəx′ quzu (Büt.ş.) – bir günlükdən altı aylığa qədər.

Erkəx′ toxlu (Büt.ş.) – altı aylıqdan bir yaşa qədər.

Erkəx″ (Büt.ş.) – bir yaşdan iki yaşa qədər olan axtalanmış qoyun.

Övəc (C.) // övəş (Büt.ş.) – iki yaşdan sonra axtalanmışı.

Əzman (C.) // dizman (Büt.ş.) – üç yaşdan sonra.

Qaradış (Büt.ş.) – beş yaşda erkək qoyun.

Davar (Büt.ş.) – qoyun-keçi.

Qeyd: *qoyun növlərinə aid olan sözlərin əksəriyyəti (gəzyazma, üşdoğar və s.) dialekt xüsusiyyəti daşıyır.*

Törədici erkəklər:
Şişəx′ qoş (Büt.ş.) – qoç iki yaşda.
Övəş qoş (Büt.ş.) – iki yaşdan sonra.
Üşqarışan qoş (Büt.ş.) – üç dəfə qoyuna qatılan.

b) Keçi növləri

Oğlax (Büt.ş.) – bir günlükdən altı aya qədər. Şəki [195, s.195] dialektində və Göyçay [96, s.20] şivələrində o′lax // oğlax şəklində eyni mənada işlədilir.

Qidix′ // çəpiş (Büt.ş.) – altı aylıqdan bir yaşa qədər. Qidik şəklində Goranboy rayonunda yeni doğulmuş keçi balasına deyilir [20, s.130].

Küvər (Büt.ş.) – bir yaşdan sonra dişi keçi.

Keçi (Büt.ş.) – iki yaşdan sonra.

Dibir // dübür (Büt.ş.) – bir yaşdan iki yaşa qədər erkək keçi. Ağcabədi rayonu şivələrində dişilər də belə adlanır (dişi dıbır) [61,s.49].

Sibir (Büt.ş.) – üç yaşlı erkək.

Se′i′z (Büt.ş.) – dörd yaşlı erkək.

Təkə (Büt.ş.) – iki yaşdan yuxarı olan törədici erkək keçi.

Xar (Büt.ş.) – üç yaşlı axtalanmış erkək keçi. Xar sözü eyni mənada Culfa rayon ərazisində də işlədilir

[20, s.406]. Bakı dialektində isə həmin mənanı xərtəkə sözü verir [95, s.203].

Erkəş (Büt.ş.) – sürünün qabağında gedən erkək keçi. Erkəç şəklində Qazax rayonunda, ərkəc formasında isə Salyan rayonunda həmin mənada işlədilir [20, s.211].

QOYUN VƏ KEÇİNİN RƏNGLƏRİ VƏ BAŞQA ƏLAMƏTLƏRİ

a) Rənginə görə qoyun növləri

Ağ qoyun (Büt.ş.).

Ağqarabaş qoyun (Büt.ş.) – başı qara ağ qoyun.

Ağqaraö′z qoyun (Büt.ş.) – qaragöz, ağ qoyun.

Ağqula′xallı (Büt.ş.) – ağ, qulağında xalı olan qoyun.

Ağqula′qara (Büt.ş.) – ağ, qulağı qara qoyun.

Ağ azıqara (Büt.ş.) – ağzı qara ağ qoyun.

Ağ kərə qoyun (Büt.ş.) – qulaqsız ağ qoyun.

Ağ kürə qoyun (Büt.ş.) – yarımqulaq ağ qoyun.

Ağ sis qoyun (C., P., Buz.) – ağzı sarı ağ qoyun.

Qara qoyun (Büt.ş.) – qara rəngli qoyun.

Qarala (C., P., Buz.) – qara ağ yunlu qoyun.

Qara saqqar (C., P., Buz.) – başı ağ, qara qoyun.

Qırmızı qoyun (C., P., Buz.) – qırmızı rəngli qoyun.

Qırmızıala (Büt.ş.) – üstündə ağ yunu olan qırmızı qoyun.

Qırmızı saqqar (C., P., Buz.) – başı ağ qırmızı qoyun.

Göy qoyun (Büt.ş.) – külrəngli qoyun.

Kö′′ala (Büt.ş.) – üstündə xalı olan göy qoyun.

Qeyd: *rənginə görə qoyun növlərinə aid olan sözlərin bir qismi dialekt xüsusiyyəti daşıyır. Məsələn, ağsis qoyun, qara saqqar, qırmızı saqqar.*

b) Müxtəlif əlamətinə görə qoyun növləri

Bəllə qoyun (Büt.ş.) – qulağı uzun və qulağının üstündə vəz olan qoyun.

Boynu xallı (Büt.ş.) – boynunda başqa rəngli yun olan qoyun. Qıccaqulaq kürə (Büt.ş.). Bu cür qoyunların qulaqları kərə və kürə qoyunların qulaqlarının ortağıdır.

Kərə qoyun (Büt.ş.) – qulaqsız qoyun.

Kürə qoyun (Büt.ş.) – yarım qulaq qoyun.

Kəlin qoyun (Büt.ş.) – buynuzlu qoyun.

Mırçamlı qoyun (C., P., Buz., Güla.) // qotazlı // mıncıxlı qoyun (Büt.ş.) – boğazının altında iki vəz olan qoyun. Qərb qrupu dialekt və şivələrində mürcüm, qotaz eyni mənada işlədilir [22, s.230].

Uzunqulaq kürə (Büt.ş.) – belə qoyunların qulaqları kürə qoyunun qulaqlarından bir qədər uzun olur.

Almaz qoyun (Büt.ş.) – balasını əmməyə qoymayan qoyun. Eyni mənada Bərdə rayonu şivələrində də işlədilir [20, s.34].

Qol qoyunu (Büt.ş.) – çobanlar yatanda qollarına bağladıqları qoyun. Sürü tərpənəndə, yaxud sürüyə ca-

navar, oğru girəndə çobanı dartıb ayıltmaq üçün qola bağlanan qoyun.

Qaçağan qoyun (Büt.ş.) – sağıma gəlməyən qoyun.

Dəli (C., P., Buz.) // küy qoyun (Büt.ş.) – qaçağan qoyun.

Ziyankar qoyun (Büt.ş.) // qabaxcıl (C.) – sürünün qabağında gedən qoyun.

Yava qoyun (C., P., Buz., Güla.) – özü sağıma gələn qoyun.

Pərçil qoyun (Əks.ş.) – sürü otlaqda yayılıb otlayan zaman sürünün kənarındakı qoyun belə adlanır.

Səmə qoyun (Büt.ş.) – sürüdə geriyə qalan.

Süləx′ // qarnel qoyun (Büt.ş.) – sürüdən təklənib yem üstünə qaçan qoyun.

Fizəx′ (C.) // xoşu qoyun (Büt.ş.) – yad quzunu əmizdirən.

Xuygir qoyun (Büt.ş.) – balasını gah alan, gah da almayan.

c) Yelininə görə qoyun növləri

Bərkəmcəx′ (C., P., Buz.) // daşəmcəx′ (Əks.ş.) – çətin sağılan.

Korəmcəx′ (Büt.ş.) – südü olmayan.

Piləmcəx′ (Büt.ş.) – asan sağılan.

Tayəmcəx′ (Büt.ş.) – məməsinin biri süd verməyən.

Çırtıməmcəx′ (Büt.ş.) – xırda məməli.

Eydirmə (Büt.ş.) – mal-qaranı sağmağa başlayarkən məməsini sığallayırlar ki, süd endirsin.

a) Rənginə görə keçi növləri

Ağ keçi (Büt.ş.) – rəngi ağ keçi.

Ala kola (Büt.ş.) –buynuzsuz ala keçi.

Qara keçi (Büt.ş.).

Qarayal keçi (C., P., Buz., Güla) – qulaqları göy qara keçi.

Mor keçi (Büt.ş.) – canavar rəngli. Eyni mənada Cəbrayıl rayonu şivələrində də işlədilir [20, s.329].

b) Başqa əlamətinə görə keçi növləri

Bəllə keçi (Büt.ş.) – qulağı uzun və qulağının üstündə vəz olan keçi.

Qulaxlı keçi (Büt.ş.) – qulağı uzun keçi.

Yoğunəmcəx′ (Büt.ş.) – məməsi iri keçi.

Kərə keçi (Büt.ş.) – qulaqsız keçi.

Kola (Büt.ş.) – buynuzsuz keçi.

Pələbıynız (C.) – buynuzları yanlara əyilən keçi.

Piləmcəx′ (Büt.ş.) – asan sağılan.

Sallaxyelin (Büt.ş.) – yelini böyük olan keçi.

Çırtıməmcəx′ (Büt.ş.) – məməsi kiçik keçi.

Şeşbıynız (C.) // şeşəbıynız (Büt.ş.) – buynuzları düz qalxan keçi.

AT VƏ EŞŞƏYİN NÖV VƏ ƏLAMƏTLƏRİ

a) Yaşa görə at növü

Qulan (C.) // qulun (Büt.ş.) – bir günlükdən bir yaşa qədər.

Qurix′ (Büt.ş.) – bir yaşda.

Dayça (Büt.ş.) – bir yaşdan iki yaşa qədər erkək at.

Day (Büt.ş.) – iki yaşdan sonra erkək at.

Kələ day (Büt.ş.) – üç yaşlı erkək at.

Madyan (Büt.ş.) // maydan (Q.Cava.) – dişi at.

Ayğır (Büt.ş.) – erkək at.

Yabı (Büt.ş.) – işdən düşmüş at. Bakı dialektində eyni mənada işlədilir [95, s.202].

b) Əlamətinə görə at adları

Alapaça (Büt.ş.).

Kəhər (Büt.ş.).

Kəhərqaşqa (Büt.ş.).

c) Rənginə görə at adları

Ağat (Büt.ş.).

Bozat (Büt.ş.).

Qəmərat (Büt.ş.).

Kürən at (Büt.ş.).

Göy at (Büt.ş.).
Səmənd at (Büt.ş.).

ç) At yerişləri

Dingiltmə (C.) – narahat yeriş.
Qoşa′ğı (C.) – qoşa ayağa çapmaq.
Qurtyeriş (Büt.ş.) – sürətli yeriş. Bakı dialektində də eyni mənada işlədilir [95, s.202].
Yorğa (Büt.ş.) – rahat və sürətli yeriş.
Tütyeriş (C.) – sürətli yeriş.

d) Yaşa görə eşşək növü

Qürix′ (Büt.ş.) – altı aylığa qədər.
Qodux (Büt.ş.) – altı aydan bir yaşa qədər dişi eşşək.
Xotux (Q., Cava.) – altı aydan bir yaşa qədər dişi eşşək.
Sıpa (Büt.ş.) – altı aydan bir yaşa qədər erkək eşşək.
Yarımtayı (C.) – bir yaşda. Yarım tay yük götürən.
Eşşəx′ (Büt.ş.) – bir yaşdan sonra.

MAL-QARANIN SAXLANDIĞI YERLƏR VƏ

BURADA GÖRÜLƏN İŞLƏR

Ağıl (Büt.ş.) – yay zamanı üstü açıq inək və at saxlanılan yer.

Arxaş (Büt.ş.) – üstü açıq qoyun saxlanılan yer.

Qalot (Büt.ş.) – qoyuna qüvvəli yem vermək üçün taxtadan hazırlanan xüsusi qab. (Ə gədə, o qalotlara bax indicə davar gələcəx′) (Əlia.).

Qaşar (Əlia., Sova.) – qış dövründə qoyunun saxlandığı üstüörtülü yer.

Dölcəx′ (Büt.ş.) – döl düşən yer.

Dönə (C., P., Buz.) – qoyuna duz verilən yer.

Yaylım (Büt.ş.) – qoyunun sübh çağı otarılması.

Kələx′ (Büt.ş.) – divarları daşdan olan üstü açıq mal-qara saxlanılan yer. Şahbuz şivələrində də eyni mənada işlədilir [20, s.256].

Kom (C., P., Buz., Güla.) – üstüörtülü mal-qara saxlanılan yer.

Küz (Büt.ş.) – quzu saxlanılan yer. Bakı dialektində də eyni mənanı verir [95, s.206].

Sərdən // bərə (Büt.ş.) – qoyun sağılan yer. Bərə qərb qrupu dialekt və şivələrində də eyni mənada işlədilir [22, s.200].

Suvat (Büt.ş.) – mal-qaranın su içdiyi yer.

Tavla (Büt.ş.) – qışda mal-qara saxlandığı yer, tövlə.

Hasar (C., P., Buz., Güla) – divarları daşdan olan üstüaçıq mal-qara saxlanılan yer.

KÖÇƏRİLİKLƏ ƏLAQƏDAR OLAN SÖZLƏR

Aran (Büt.ş.) – qışlaq mənasında işlənir.

Dağ (Büt.ş.) – yaylaq mənasında işlənir.

Köç (Büt.ş.) – heyvandarların yaylağa gedərkən apardıqları ev əşyaları.

Oba (Büt.ş.) – yaylaqda heyvandarların yaşadıqları yer.

Çadır (Büt.ş.) // coma (Əlia.) // alaçıx (C., P., Buz., Nəza., D., Au., Yu.) – yaylaqda heyvandarların çadırdan, keçədən düzəltdikləri yaşayış yeri.

KÖÇƏRİLİKLƏ ƏLAQƏDAR OLAN DÖVRLƏR

Qoşqatma (C.) – sentyabr-oktyabr ayları. Başqa şivələrdə də bu cür işlədilir.

Boğaz dövrü (C.) – dölün yaxınlaşması.

Döldüşdü dövrü (Büt.ş.) – mart-aprel ayları. Qazax dialektində "döl vaxtı" adlanır [94, s.330].

Dağ dövrü (Büt.ş.) – may-sentyabr ayları.

BİTKİ ADLARI

Naxçıvanın bitki örtüyü olduqca zəngindir. Təbii şəraitdə heyvandarlıq üçün zəngin yem ehtiyatı vardır. Bundan başqa rayonda becərilən yem bitkiləri də yetişdirilir ki, həmin bitkilərə aid olan sözlər (yonca, Kuban

yantarı, xaşa) ədəbi dillə müştərəkdir. Təbii şəraitdə bitən ot, çiçək, kol və ağac növlərinin əksəriyyətinin adı dialket xüsusiyyəti daşıyır. Aşağıda həmin söz və terminlər verilmişdir.

a) Ot və çiçək adları

Ayıçaşırı (Büt.ş.) – düz qalxan zoğlara malikdir. Zoğların üstündə cərgə ilə nazik yarpaqcıqlar düzülmüşdür. May ayında göyərir, əvvəlcə kiçik, iyun-iyul aylarında böyük zoğları olur. Əsasən qumlu yerdə bitir. Yemlik üçün yararsızdır.

Boyaxbaşı (Büt.ş.) – boyaq kimi istifadə edilən otdur.

Bulağotu (Büt.ş.) – sulu yerdə bitən yeyilən ot.

Bolu (Büt.ş.) – may ayında bitir, nazik boz zolaqlarının baş tərəfi üç yerə ayrılır, hər bir ucunda nizamsız şəkildə nazik yarpaqları olur. Yerli əhali tərəfindən zoğları yeyilir.

Qaynama (C.) // qatıxlama (Büt.ş.) – qaynadıb qatıqla qarışdırıb yeyilən ot.

Qabalax (Büt.ş.) – yeyilən ot.

Qanqal (Büt.ş.) – tikanlı ot.

Qaragöz yarpız (Büt.ş.) – yarpızın bir növü.

Qıyağot (Büt.ş.) – yazın əvvəllərində çıxan yaşıl otdur. Topa şəklində nazik qanadları olur. Yem üçün yararsızdır.

Qazə′ğı (Büt.ş.) – yeyilən ot.

Qırxkö′nəx′ (Büt.ş.) – ot.

Qozayoldaşı (Büt.ş.) – pambığın içərisində bitən otdur. Yarpaqları və qozası pambıq koluna bənzəyir.

Quzuqulağı (Büt.ş.) – yeyilən turşməzə ot.

Qurtqulağı (Büt.ş.) – yerdən çıxarkən uzun saplaqlara malik olan boz, üstü tüklü yarpaqları olur. Yarpaqların forması qurd qulağı kimi əvvəlcə enli, uclarda isə ensiz yarım bükülüdür. Qurt qulağına oxşadığı üçün xalq arasında bu adı almışdır.

Quşüzümü (Büt.ş.) – otdur. Qırmızı kiçik giləli meyvələri yeyilir.

Quşəppə′ (Büt.ş.) – yeyilən ot.

Eşşəx′ yoncası (Büt.ş.) – yoncaya oxşar ot.

Ələ′z (Büt.ş.) – iyun ayının əvvəllərində bitir. Nazik telməkli telləri olan otdur. Əvvəl çıxanda yığılıb qurudulur, bəzi xörəklər bişirilərkən ona əlavə edilir (ələ′zdi yarma).

Yarpız (Büt.ş.) – yeyilən ot.

Keçisaqqalı // təkəsaqqalı (Büt.ş.) – yeyilən ot.

Gücü (Büt.ş.) – qızıl sarmaşıq.

Göytikan (Büt.ş.) – yerdən zoğ şəklində çıxır, sonra isə kol şəkli alır. Qanadlarında kiçik ellips şəkilli yarpaqları sıra ilə düzülür. Surəngi çiçəkləri sovuşduqdan sonra salxım şəkilli toxumlar yetişir. Susuzluğa davamlı olduğundan quraq yerlərdə bitir.

Gülül (Büt.ş.) – taxılın içərisində bitən otdur. Rəngbərəng çiçəklərə malikdir. Uzun paxlalarının içərisində 4-5 toxumu olur.

Lala (Büt.ş.) – lalə.

Mırçalıx (C., P., Buz., Güla.) // morçalıx (Əks.ş.) – dağda qarın altından ilk dəfə çıxan yeyilən ot.

Pərpərə (Büt.ş.) – bişirildikdən sonra qatıqla qarışdırılıb yeyilən ot.

Pıtrax (Büt.ş.) – kola bənzər bitkinin qoza şəkilli tikanlı meyvəcikləri olur.

Saqqaryonca (Büt.ş.) – boz yonca.

Sarıtikan (Büt.ş.) – kol şəkilli bitkidir. Budaqları və yarpaqları sarıya çalardır. Sarı rəngli çiçəkləri sovuşduqdan sonra tikanlı kürə şəkilli toxumlar əmələ gəlir.

Sarmaşıx (Büt.ş.) – sarmaşan otdur. Göyçay keçid şivələrində süddi sarmaşıx adlanır [96, s.15].

Solmaz çiçəx′ (Büt.ş.) – sarı özünəməxsus iyi olan çiçək.

Sümbülotu (Büt.ş.) – sünbülə oxşar ot.

Süsən (Büt.ş.) – gül.

Uşqun (Büt.ş.) – yazın axırlarında bitir. Turşməzə zoğları soyulub, duzlanıb yeyilir.

Çayır (Büt.ş.) – çəmənlik otu.

Çaşır (Büt.ş.) – yeyilən ot.

Cacıx (Büt.ş.) – qar əriyəndən bir neçə gün sonra çıxır. Həmin vaxt yağda qovrulub yeyilir. Yazın axırlarında ortadan düz qalxan özəyi soyulub yeyilir. Xoş

ətirə və tama malik bitkidir. Qazax, Şəmkir şivələrində də bu söz işlədilir [20, s.455].

Şomun (Büt.ş.) – yeməli ot. Şomın şəklində Cəbrayıl ləhcəsində işlədilir [20, s.472].

b) Ağac adları

Vən (Büt.ş.) – öyrüc ağacı. Qollu-budaqlı meşə ağacıdır. Cəbrayıl, Kəlbəcər şivələrində də eyni ilə işlədilir [20, s.991].

Qarağaş (Büt.ş.) – qara ağac.

Qələmə (Büt.ş.) – düz qalxan hündür ağacdır. Tovuz rayonunun Qovlar kənd şivəsində də qələmə eyni mənanı verir [22, s.205].

Dağdağan (Büt.ş.) – meşə ağacıdır, oduncağından yanacaq kimi istifadə olunur. Bu söz Qazax rayonunun Daş Salahlı, Köçəskər, Borçalı bölgəsinin Kəpənəkçi kəndlərində də eyni mənada işlədilir [22, s.210].

Kələmpir (C., P., Bouz., Nəza., Au., Yu.) – meşə ağacı.

Nərbənd (C.) // narbənd – böyük çətirli ağacdır. Qarağaca calaq etmək yolu ilə yetişdirirlir. "Şıdırğı yağışda narbəndin altına damcı düşməz" (C.).

Söyüd (Büt.ş.).

Çinar (Büt.ş.).

c) Kol adları

Badamça (C., P., Buz., Güla.) – kiçik kol bitkidir, oduncaq kimi istifadə olunur.

Qaraçalı (C., P., Buz., Güla.) // çalı (Əks.ş.) – tikanlı kol.

Yurğun (Büt.ş.) – yulğun.

Kəngiz (Büt.ş.) – kol bitkidir, oduncağından yanacaq kimi istifadə olunur.

Kərməşov (Büt.ş.) – kolun bir növü. Bu söz Qazax rayonunun Birinci Şıxlı, Daş Salahlı, Tovuz rayonunun Yanıqlı, Borçalının Sabirkənd şivələrində gərməşöy şəklində eyni mənada işlədilir [22, s.225].

DƏRMAN BİTKİLƏRİNİN ADLARI VƏ BUNLARDAN HAZIRLANAN DƏRMANLAR

Alo gülü (Büt.ş.) – aloye, rəsmi adı: əzvay. Ev şəraitində dibçəkdə becərilir. Təzə dərilmiş yarpağını yaraların üstünə qoyurlar. Aloye yarpaqlarından çıxarılan şirəni bal və kaqor çaxırı ilə qarışdırıb qıcqıranadək gözləyirlər. Sonra mədə xəstəliklərində müalicəvi vasitə kimi istifadə edilir.

A′əvəliyi (Büt.ş.) – sucux yerdə bitir, aşağı hissəsində enli iri, yuxarı hissəsində isə kiçik yarpaqları olan bitkidir. Kökləri və toxumları dəmlənib ishala qarşı işlədilir.

Bağayarpağı (Büt.ş.) – dairəvi formalı bağayarpağından irinli yaraların müalicəsində istifadə olunur.

Bənəvşə (Büt.ş.) – birillik bitkidir. Gövdəsinin üzərində müxtəlif formalı yarpaqları yerləşir. Baharda gözəl çiçəkləri olur. Sərsəm xəstəliyində (miningit xəstəliyi) bənəvşə yer qurdu (soxulcan) ilə qaynadılıb məlhəm hazırlanaraq xəstənin başına çəkilir.

Biraçiçəyi (N., C., Güla.) – elmi adı boymadərəndir. Ağ rəngli çiçəkləri olan bitkidir. Çiçəklərini dəmləyib daxili qanaxmaya qarşı istifadə edirlər.

Qantəpər (Büt.ş.) – hirkan acıyoncası. Çoxillik ot bitkisidir. Açıq çəhrayı çiçəkləri çətir formasında olur. Ondan irinli yaralara qoymaq üçün məlhəm hazırlanır. Tibb

sənayesində ondan ürək xəstəlikləri üçün preparatlar hazırlanır.

Qatırquyruğu (Büt.ş.) – budaqlı gövdəsi olan bitkidir. Böyrək xəstəliklərində dəmləmə və bişirmə dərman kimi istifadə olunur.

Qorungə (Büt.ş.) – xəşənbül. Bir metrədək hündürlüyü olan qollu-budaqlı ot bitkisidir. Salxımlı, sarı rəngli çiçkləri xoş ətirli iyə malikdir. "Müasir təbabətdə iyun və iyul aylarında toplanmış xəşənbül otundan plastır şəklində dəri xəstəliklərində (frunkulyoz və s.) yumşaldıcı, iltihabı aradan qaldırıcı və yara sağaldıcı dərman kimi istifadə edilir" [30, s.59]. Qorungənin çiçəkləri ətirli və şirəli olduğundan arıçılıqda da faydalı bitkidir.

Quşdili (Büt.ş.) – qırxbuğum. Yarpaqları quş dilinə oxşadığı üçün bu ad verilmişdir. Böyrəkləri xəstə olan adama dəmləməsi verilir. Bundan əlavə, təzə çıxan quşdilidən kətə bişirilir.

Yalama (D., Nəza., Yu., Au.) // çölqarpızı (Əks.ş.) – quraqlıq yerdə bitir. Yerlə sürünən kökləri 1-2 metrə qədər uzanır. Yayda ağ çiçəklər açır, göy uzunsov meyvələri yetişəndə partlayır. İçərisi ətli, qırmızı rəngli olur. Meyvəsi ürəkağrısı və yel xəstəliyinə tutulanlara xeyirlidir.

Yemişən (C.) // yemişan (Büt.ş.) – iri kol bitkisidir. Payızda yetişən tünd qırmızı rəngli yumrutəhər meyvəsi olur. Meyvələri yeyilir. Dərman məqsədi ilə dəmlənib ürəkağrısı, ürək zəifliyində istifadə edilir. Elmi təbabətdə də bir sıra məqsədlər üçün gərəklidir.

Zirinc (Büt.ş.) – tünd-qırmızı uzunsov kiçik meyvəsi olur. Dəmləməsi müalicə məqsədi ilə ishala qarşı işlədilir.

Keşniş (Büt.ş.) – həm tərəvəz kimi əkilir, həm də yabanı halda bitir. Xoş iyə maliik birillik bitkidir. "Onun (keşnişin – T.Q.) mədə-bağırsaq və böyrək xəstəliklərində, eləcə də öd kisəsinin iltihabında yüksək müalicəvi əhəmiyyəti vardır" [30, s.69].

Kəhlikotu (Büt.ş.) – xoşətirli, nanəyə oxşar yarpaqları olan bitkidir. Yayda çətirli kiçik çiçəklər açır. Başağrısında, qanazlığında dəmlənib içilir.

Gəvən (Büt.ş.) – iri topa bənzər tikanlı koldur. Gəvən yağından el arasında diş dibinə çıxan çibanın müalicəsində istifadə edilir.

Piş-pişə (Büt.ş.) – söyüdün bir növüdür. May ayında boz meyvələri olur. Meyvələrindən araq çəkilib qanazlığında müalicə məqsədilə işlədilir.

Səhlab (C., P., Buz.) // səhləb (Əks.ş.) – yarpaqları və çiçəkləri yığılıb qurudulur. Dəmlənib soyuqdəymiş adama içirdilir.

Üzərrix′ (Büt.ş.) – üzərrik. "Dərman məqsədilə üzərriyin həm otundan, həm də toxumlarından istifadə olunur" [30, s.90].

Üşyarpax (C.) – meniant. Çoxillik bitki olub, yerlə sürünən kökümsov gövdəyə malikdir. Yumurtavari yaşıl yarpaqları üç-üç yerləşdiyindən üçyarpaq adlandırılır. "Müasir tibdə meniant (üçyarpaq – T.Q.) yarpağından dəmləmə tinstura və qatı ekstrakt şəklində, eləcə də, bir sıra başqa

Qalen preparatlarının tərkibində iştahartırıcı, həzm prosesinin yaxşılaşdırıcı dərman kimi istifadə olunur" [77, s.77].

Ciyirtkan (Büt.ş.) – gicitkən. Dalayıcı tüklərə malik olan tünd yaşıl yarpaqlı, qollu-budaqlı bitkidir. Gicitkən ənov (qarın ağrısı), yel xəstəliklərinə xeyirdir. Dəmlənib içilir, duzla ovulub yeyilir.

Çilədağ (Büt.ş.) – quraqlıq düzənlikdə bitir. Kökü iri turpa bənzəyir. Kökündən məlhəm şəklində bərk yaraları, əyri bitmiş sınıq, qırıqları yumşaltmaq, bişirilməsi isə qadın xəstəliklərini müalicə etmək məqsədilə işlədilir.

Çobanyastığı (Əks.ş.) // çobanəppəyi (Q., Cava.) – uzun saplaqlar üzərində yerləşən səbətşəkilli xoş iyli çiçəkləri olur. Çəmənliklərdə bitir. Çiçəkləri yığılıb yeyilir. Dərman məqsədilə elmi təbabətdə istifadə edilir.

Cırtaquş (Büt.ş.) – zoğları qaynadılıb safraya (tez-tez sıfraq etməyə) qarşı müalicə məqsədilə içirdilir. Kolu yandırılıb külü yağla qarışdırılaraq sarıyaraya (yara adı) sürtülür.

Halğaduzu (Büt.ş.) – dəmirov, ziyil (dəri xəstəlikləri) xəstəliklərinin müalicəsində istifadə olunur. "Azərbaycan dilinin dialektoloji lüğəti" kitabında səhvən "halağaduzu" kimi verilmişdir [20, s.418].

Həmərsün // itburnu (Büt.ş.) – kol bitkisidir. Mayiyun aylarında ətirli ağ, surəngi güllər açır. Meyvəsi payızda yetişir. Böyrəkdaşına qarşı müalicəvi əhəmiyyəti vardır. Yetişmiş meyvələri dəmlənib içilir, mürəbbəsi bişirilib yeyilir. Meyvələri elmi təbabət üçün tədarük edilir.

XƏSTƏLİKLƏR. BUNLARIN TƏZAHÜRÜ VƏ MÜALİCƏSİNƏ AİD SÖZLƏR

a) İnsan xəstəlikləri

Boğazağrısı (Büt.ş.) – soyuq nəticəsində boğaz vəzləri şişir və ağrı verir. Ovmaqla (masaj) müalicə edilir.

Boğazgəlmə (Q., Cava.) – dil dibçəyinin iltihabı. Boğaz basılması (əmələ gəlmiş irini dağıtmaq) ilə müalicə edilir.

Qarasancı (Büt.ş.) – korbağırsağın iltihabı. Baş hərlənir, ürək bulanır, qarın bərk sancı verir. “Qarasancı adamı o sa′t öldürür” (N.).

Qarınağrısı (Q., Cava., Əlia.) // ə′ğə getmə (Büt.ş.) – ishal. Qara zərinc dəmlənib içirdilir. Gilənar suyu verilir. Söyüd qabığı ilə əvəlik qaynadılıb suyu içirdilir. Üzüm cecəsinin toxumunu döyüb yeyirlər.

Qulaxdibi (Sova., Əlia.) – qulaq seyvanının ardında əmələ gələn şiş. Acıxəmrə, qətxəmri ilə müalicə olunur.

Qurtxəstiliyi (Büt.ş.) – adamda soxulcan, qızışma qurdu (xırda ağ qurdlar), kəpənəx′ qurdu (kəpənəyə oxşar) olur (C.) – acı ərik dənəsi yeməklə məhv edilir.

Qızdırma-titrətmə (Büt.ş.) – istilik artır, adam titrədir, iştaha pozulur. Ovmaqla (masaj etməklə), banka salmaqla tərləmə yolu ilə sağaldılır.

Qızılca (Büt.ş.) – əsasən uşaqlarda baş verir. İstilik artır, bədəndə qırmızı tumurcuqlar əmələ gəlir. Belə xəstələri soyuqdan qoruyurlar. Qorxulu xəstəlik olduğundan el arasında belə deyilir: "Qızılca al elər, hərdən bir xial (xəyal) elər". Qızılcaya tutulan adama eşşək südü içirirlər. Qazax, Tovuz şivələrində qızılcıx, Salyan şivəsində isə qızılcıq adlanır [20, s.133].

Daşyaman (Büt.ş.) – yaman şiş.

Daşçibanı (Büt.ş.) – dişin dibi şişir, ağrı verir. Məməli üzərliyi qaynadıb suyu ilə ağzı yaxalayır, dişin üstünə gəvən yağı qoyurlar.

Doqquzdonu (Büt.ş.) – böyük irinli yaradır. Bağayarpağı qoymaqla, zəyərək bitkisini südlə qaynadıb yaxmaqla sağaldılır. Ə′nou′ şəklində Bakının Novxanı və Şağan kənd leksikasında da eyni mənada işlədilir [95, s.202].

Ənov (N., Q., Cava.) – qarın xəstəliyi. Kal meyvə yemək nəticəsində əmələ gəlir. Ənovu müalicə etmək üçün ciyitkan (gicitkən) və ya qaraxor // xətmi otlarından dəmləyib içirlər.

İlancıx (Büt.ş.) – sümük vərəmi.

Korçiban (Büt.ş.) – irinli yaradır. Bağayarpağı qoymaqla, zəyərək bitkisini süddə qaynadıb məlhəmi qoymaqla sağaldılır.

Girgi (Q., Cava.) – yığıntı; qəbz.

Göyöskürəx′ (Büt.ş.) – bronxların iltihabı nəticəsində arasıkəsilmədən öskürmək.

Savda yeli (Büt.ş.) – dəri xəstəliyi. Xəstəliyə tutulan hissə qızarır, şişir və su verir. Xəstəliyə tutulan adama şətərə və pişpişə arağı içirdilir. Şətərə otunun qurusu ilə xına isladılıb yaranın üstünə çəkilir.

Sarıyara (Büt.ş.) – dəri xəstəliyi. Yara su verib quruduqda sarı rəng alır. Buna görə də sarıyara adlanır. Yaranı sağaltmaq üçün cırtanquş otunu və yaxud qarpız qabığını yandırıb külünü yağla qarışdırıb, alınan məlhəmi yaraya bir neçə dəfə sürtmək lazımdır.

Üşgünnüx′ (Q., Cava.) – (üçgünlük) ağız boşluğunun iltihabı. Zəylə çay sodası ilə müalicə edilir.

Xənəzir (Q., Cava.) – zob, çinədan, boğaz uru.

Xəfənəx′ (Büt.ş.) – bronxit astma.

Xoruzbeçə (Q., Cava.) – qadın xəstəliyi; ana bətnində uşağı tələf edən xəstəlik. Kəkrə otunun toxumu və darı döyülüb yeyilir. Lənkəran şivəsi leksikasında beçəxor həmin mənanı ifadə edir [20, s.65].

Heyzə // he′zə (Büt.ş.) – Bir neçə növ yeməyi, şirniyyat və çərəzi həddən artıq yeməklə yaranan narahatçılıq. Bəzən zəhərlənmə diaqnozu da qoyulur. Gülab içirdilir. Zirəni qaynadıb suyunu verirlər.

Çiban (Büt.ş.) – dəri xəstəliyi. Korçibanın müalicəsi kimi sağaldırlar.

Çırtıx // sızax (Büt.ş.) – səpki. İnsan bədənində kiçik qırmızı səpkilər əmələ gəlir, sonra irinləyir. Müalicə olunmaq üçün Sirab, Vayxır, Darıdağ, Parağa mineral sularında 10-15 dəfə yuyunmaq məsləhət görülür.

Şirinyara (Büt.ş.) – irinli dəri xəstəliyidir. Dərinin rəngi qızarır, bərk ağrı verir. Çörək qaynatması qoyulur. Acıxəmrə (xəmir mayası), qətxəmrə (şəkərlə hazırlanan xəmir) ilə müalicə olunur.

Şoba (Büt.ş.) – qrip.

b) Heyvan xəstəlikləri

Qaşqa yara (Büt.ş.) – mal-qarada olan yara adı.

Quşkeçər (Büt.ş.) – qoyunun dal qıçlarının tutulması.

Dabax (Büt.ş.) – dabax mal-heyvanın dırnağında, ağzında olar (C.). Davax şəklində Tovuz rayonunun şivələrində də eyni mənada işlədilir [20, s.162]. Ağızdan dabax olan heyvan yem yeyə bilmir, ağzından su gəlir. Dırnaqdan dabaq olan heyvanlar yeriyə bilmir. Qatran, ağ neft sürtməklə müalicə edilir.

Dalax (C.) – su vaxtını keçirən heyvanlarda olur. Qazax rayonu şivələrində də eyni mənanı verir [20, s.167].

Daşırqamax (C., P., Buz.) – mal-qaranın ayaqlarının daşlı yerdə zədələnməsi.

Dilbaş (Büt.ş.) – qaramalın dilinin üstündə əmələ gələn səpki xəstəliyi. “Gənə inəx′ dilbaş olub, yemə

baxmır” (C.). Dilbaş olan malın dilinin üstündəki səpkilərin bir neçəsini iynə ilə deşib qanadır, yaraları duzla masaj edirlər. Dilbaş // dilxırtma Şamaxı rayonu leksikasında da həmin mənada da işlədilir [20, 162].

Yanıqara (C., P., Buz.) // qarayara (Əks.ş.) – malqarada olan yaranın bir növü. “Yanıqara heyvana düşsə salamat buraxmaz, öldürər” (C.).

Şirnəx′ // sadırramax (C., P., Buz.) – qoyunun quyruğunun altında əmələ gələn səpki.

TOXUCULUĞA AİD SÖZ VƏ TERMİNLƏR

a) Toxuculuqda lazım olan materiallar

Yun növlərinə aid sözlər:

Alayun (Büt.ş.) – qara, qırmız və ağ yunun qarışığı.

Qarayun (Büt.ş.) – qara rəngli yun.

Qəzil (Büt.ş.) – keçi tükü. Salyan, Yardımlı, Zəngilan, Cəbrayıl rayonları şivələrində də eyni mənada işlədilir [20, s.126].

Qılan yun (C., P., Buz., Nəza., D., Yu., Au., Güla.) – cod yun.

Qırmızı yun (Büt.ş.) – qırmızı rəngli yun.

Qlox (C., P., Buz., Güla.) // qırın-qırtı (Əks.ş.) – qırxım yerindən yığılan yun.

Yapağı yun (Büt.ş.) – yazda qoyundan qırxılan yun; zərif yun. Yapağ // yapağı [22, s.218] şəklində Quba rayonunda və yapağı formasında Qazax rayonunun Daş Salahlı, Borçalının Sabirkənd [20, s.241] şivələrində eyni mənada işlədilir.

Yolma yun (Büt.ş.) – əl ilə yolunan yun.

Yun (Büt.ş.) – bir yaşdan sonra qoyundan yazda qırxılan yun.

Güzəm (Büt.ş.) – payızda qırxılan yun. Sabirabad, Şirkan, Bakı, Quba, Yardımlı dialekt və şivələrində də

eyni mənanı verir [22, s.218]. Güz əski türkçədə “payız” deməkdir.

Südgülyun (C., P., Buz., Güla.) – ağ, qırmızı qarışıq yun.

Tiftix (Büt.ş.) – keçi qəzilinin dibində olan yumşaq tük.

Qeyd: *demək olar ki, bu sözlərin əksəriyyəti dialekt xüsusiyyəti daşıyır.*

Başqa materiallara aid sözlər:

Arqaç (Büt.ş.) – hananın eninə toxumaq üçün hazırlanan ip. Bu söz Şəki və Ağdam şivələrində eynilə işlədilir. Arğac şəklində Qazax, Salyan, Cəbrayıl dialekt və şivələrində eyni mənanı bildirir [20, s.39].

Əlçim (Büt.ş.) – ip əyirmək üçün təmiz daranmış əl böyüklükdə yun. Salyan, Göyçay şivələrində də həmin mənada işlədilir [20, s.216].

Əriş (Büt.ş.) – hananın uzununa uzadılmış – şaquli iplər. Qazax rayonunda Daş Salahlı kəndində [22, s.215], Göyçay şivələrində [96, s.12] eyni mənanı verir.

Düx′cə (Büt.ş.) – cəhrənin iyinə sarılmış konus şəkilli ip. Şəmkir, Tovuz rayonlarında düxcə. Şamaxıda dükcə şəklində eyni mənanı verir [20, s.209].

Yumax (Büt.ş.) – yumru top kimi sarınmış ip.

Mənix′ (C.) // kələf (Büt.ş.) – oturmuş vəziyyətdə bardaş quraraq iki dizə xaç şəkilli sarınmış ip. Kələçi

sözü Qazax dialektində kiçik kələf, kələfin bir hissəsi mənasını bildirir [20, s.256].

Xam ip (Büt.ş.) – əyrilib boyanmamış ip.

Hilmə (C.) // ilmə (Büt.ş.) – gəbəni toxuyarkən əriş-arğacın arasından ipin bir dəfə keçirilməsi.

Xırxovlamax (C.) // kırtızlamax (Əks.ş.) – ipi hazırlamaq; naziltmək. Kırtızlamax sözü Cəbrayıl rayonu şivələrində kirtişləmək şəklində eyni mənanı verir [20, s.263].

Ə′i′rməx′ (Büt.ş.) – ip əyirmək, üşələməx′ (Büt.ş.). İki yumağı qoşalayıb yenidən əyirmək. Borçalı mahalının Qaçağan kənd şivəsində də eyni mənanı verir [22, s.243].

b) Toxuculuqda istifadə edilən əşya və alət adları

Darax (Büt.ş.) – yun daranan alət.

Kirkit (Büt.ş.) – dəmirdən hazırlanmış toxuculuq aləti. Bu söz eyni mənada qərb qrupu dialekt və şivələrində işlənir [22, s.222].

Kırtız (Büt.ş.) // xırxov (C.) – ipi hamarlamaq, naziltmək üçün işlədilən alət. Kırtız sözünün ifadə etdiyi mənanı Cəbrayıl rayonunda kirtiş sözü ifadə edir [20, s.263].

Teşi (Büt.ş.) – ip əyirmək üçün ağacdan hazırlanan alət; əl iyi. Qubadlı, Cəbrayıl, Şuşa bölgələrində da eyni mənada işlənir [20, s.376].

Həvə (Büt.ş.) – ilmələri bərkitmək üçün işlədilən alət. Bu söz Tovuz rayonunda həvə şəklində, Qazax rayonunda hüə şəklində, [22, s.247] Bakı, [95, s.198] və Gəncədə həvə şəklində, Gədəbəydə höə şəklində [20, s.429] işlənməkdədir.

Hana (Büt.ş.) – toxuculuq dəzgahı. "Bizdə yer hanası, göy hanası olur" (C.).

